RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 21 (10041) 4 fevral 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# "Sülh Qalxanı - 2026"

## Prezidentlər birgə əməliyyat-taktiki təlimi izləyiblər



**Məqsəd hərbi kontingentin antiterror əməliyyatları üzrə peşə bacarıqlarını təkmilləşdirmək, dayanıqlı sülhün təmin olunmasına töhfə vermək və qarşılıqlı təcrübə mübadiləsi aparmaqdır**



2

## Azərbaycanın sülh diplomatiyası

### Bu, beynəlxalq ictimaiyyət tərəfindən nümunə kimi dəyərləndirilir

Davosda "Euronews" televiziyasına müsahibəsi zamanı Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan düşünülmüş və çevik siyasət həyata keçirməklə, eləcə də strateji yanaşma ortaya qoymaqla Cənubi Qafqazda yeni reallıqlar formalaşdırıb. Bu siyasət bölgədə uzun illər hökm sürən qarşıdurma mühitini aradan qaldıraraq sabitlik, təhlükəsizlik və əməkdaşlıq üçün mühüm imkanlar yaradıb. Bu isə onu deməyə əsas verir ki, Azərbaycan üçün hər zaman prioritet hədəf dayanıqlı sülhün bərqərar edilməsi olub və postmünaqişə dövründə normallaşma istiqamətində atdığı praqmatik addımlarla regionu inkişaf, əməkdaşlıq yoluna çıxarıb.

5

## Aİ-nin ikili standartları Cənubi Qafqazda sülhə risk yaradır

Ermənistana maliyyə dəstəyinin verilməsi, xüsusilə də hərbi komponentlə əlaqələndirilən fond vasitəsilə həyata keçirilməsi, sülh təşəbbüsü kimi təqdim edilsə də, əks təsir doğura bilər. Bu cür təşəbbüslər qarşı tərəfdə yanlış gözləntilər formalaşdırmaqla yanaşı, əldə olunan müsbət dinamikanın zəifləməsinə də səbəb olar. Bu uyğunsuzluq Bakı tərəfindən haqlı narazılıqla qarşılanır.

Ermənistan hazırda Rusiyanın təsir dairəsindən çıxmağa çalışan "tərəfdaş" kimi təqdim olunur. Brüssel hesab edir ki, Paşinyan hökumətinə maliyyə və hərbi dəstək göstərməklə, Ermənistanın Qərbə inteqrasiyasını sürətləndirmək mümkündür. Eyni zamanda Aİ-də bəzi qüvvələr yanlış şəkildə düşünürlər ki, Azərbaycana hərbiyönümlü dəstək vermək tarazlığın pozulmasına səbəb ola bilər.

6

## Azərbaycan-BƏƏ enerji əməkdaşlığı şaxələnir

2024-cü il iyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" - "Caspian Power" sərgilərinin açılışı zamanı Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir tədbir çərçivəsində Neftçala, Biləsuvar Günəş-Elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlini qoydular. İndi bu "yaşıl enerji" layihələri özlərinin icrasının müxtəlif mərhələlərindədir.

Beləliklə, BƏƏ-nin aparıcı enerji şirkətlərindən olan "Masdar"la əməkdaşlıq və tərəfdaşlığımız getdikcə daha çox layihələri əhatə edir. Yeri gəlmişkən: 2006-cı ildə BƏƏ-də yaradılan "Masdar" həmin vaxtdan bəri zəngin təcrübə toplayıb, dünyada günəş və külək enerjisinin inkişafına on milyardlarla dollardan çox sərmayə yönəldərək onlarca layihənin iştirakçısı olub.

7

## Ermənistanda siyasi qütbləşmə dərinləşir

Müxalifətin vahid cəbhədə birləşmə ehtimalı hər zaman müzakirə olunsa da, reallıqda bu, çox çətindir. Həm Koçaryan, həm də digər iddialı fiqurlar, məsələn, keşiş Baqrat Srbazan vahid lider olmaq arzusunu bəyan ediblər. Hələlik müxalifəti birləşdirən məsələ "Paşinyan getsin" devizidir, onun yerinə kimin necə gəlməsi söhbətində müxalifətin mövqeyi fərqli və ziddiyyətlidir. Əgər müxalifət xalqın böyük qismini inandıra bilsə ki, Paşinyan dövlətçiliyi tamamilə itirir, o zaman vahid blok hökumət üçün real təhlükəyə çevrilə bilər. Lakin indiki vəziyyətdə müxalifətin daxili parçalanması Paşinyanın ən böyük sığortası hesab olunur. Məsələ ondadır ki, Paşinyanın ən böyük rəqibi klassik müxalifət yox, daha çox erməni cəmiyyətindəki ictimai məyusluqdur. Sərhədlərin delimitasiyası prosesində verilən qərarlar və anklavlar məsələsi müxalif media tərəfindən əhaliyə "milli itkilər" kimi sırınmaqdadır.

6

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri

# "Sülh Qalxanı - 2026"

## Prezidentlər birgə əməliyyat-taktiki təlimi izləyiblər





**Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan iki ölkənin Silahlı qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Əbu-Dabidə keçirilən "Sülh Qalxanı - 2026" birgə əməliyyat-taktiki təlimini izləyiblər.**

AZƏRTAC xəbər verir ki, yaşayış məntəqəsi, dağlıq ərazi və dəniz mühitində keçirilən birgə təlimdə qanunsuz silahlı dəstələrin aşkarlanaraq zərərsizləşdirilməsi, ələ keçirilmiş gəmi üzərində nəzarətin bərpası, terrorçu ünsürlərin zərərsizləşdirilməsi və girovların azad edilməsi, yaralıların təxliyəsi, yaşayış məntəqəsində ictimai təhlükəsizliyə təhdid yaradan iğtişaş və sabotaj xarakterli fəaliyyətlərin qarşısının alınması, eləcə də yanğınsöndürmə fəaliyyətləri üzrə tapşırıqlar yerinə yetirilib.

Qeyd edək ki, təlimin əsas məqsədi ölkələrimizin hərbi kontingentinin antiterror əməliyyatları üzrə peşə bacarıqlarını təkmilləşdirmək, dayanıqlı sülhün təmin olunmasına töhfə vermək və qarşılıqlı təcrübə mübadiləsi aparmaqdır.
















# Əbu-Dabidə Müsəlman Ağsaqqalları Şurasının baş katibi ilə görüş

**Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əbu-Dabi şəhərində Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Məhəmməd Əbdülsalam Azərbaycana səfərlərini və dövlətimizin başçısı ilə görüşlərini böyük məmnunluqla xatırladı. O, Prezident İlham Əliyevi "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi münasibətilə bir daha təbrik etdi.

Prezident İlham Əliyev təbrikə və yüksək mükafata görə minnətdarlığını bildirərək, Zayed Fondunun fəaliyyətini, xüsusilə Birləşmiş Ərəb Əmirliklərinin qurucusu Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsinin və bəşəri dəyərlərinin dünyada təşviq edilməsində oynadığı mühüm rolu yüksək qiymətləndirdi.

Azərbaycan Prezidentinin bu mükafata layiq görülməsi, həmçinin Roma Papası XIV Leonun və Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Əl-Tayyibin Azərbaycan Prezidentinin sülhün bərqərar olunması istiqamətində fəaliyyətinə verdikləri qiymətin təcəssümü kimi dəyərləndirildi.



## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 33** **Bakı şəhəri, 2 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 234-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 486 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1969 (Cild I); 2024, № 1, maddə 77, № 2, maddə 209, № 5 (II kitab), maddə 586, № 12 (II kitab), maddələr 1460, 1461; 2025, № 11, maddə 1103) ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı"nın 27-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"27. Qazın saxlanmasına icazə.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 34** **Bakı şəhəri, 2 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 avqust tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 534 (Cild I) ilə təsdiq edilmiş "İcra sənədinin verilməsi üçün əsas olan qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin ləğv edilməsi ilə əlaqədar icraata xitam verildikdə, icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin dövlət büdcəsi hesabına ödənilməsi Qaydaları"nın 1-ci və 5-ci hissələrində "icra xidməti icra məmurlarının müvafiq xüsusi Fondlarına" sözləri "ədliyyə orqanlarının xüsusi xəzinə hesabına" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 11, maddə 1084; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 357 nömrəli, 10 dekabr tarixli 385 nömrəli və 25 dekabr tarixli 412 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.4.2.5.8.0-cı yarımbənddə "Məqsədli büdcə fondlarının büdcədənkənar daxilolmaları" sözləri "Ədliyyə orqanlarının xüsusi xəzinə hesabına daxilolmalar" sözləri ilə əvəz edilsin;

2.2. 1.4.2.5.8.6-cı yarımbənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qəbələdə "Qış nağılı" Musiqi Festivalı başlayır

Fevralın 5-dən Qəbələdə II Beynəlxalq "Qış nağılı" Musiqi Festivalı başlayır.

AZƏRTAC xəbər verir ki, festival Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və "Gilan"ın dəstəyi ilə keçirilir.

2009-cu ildən yay mövsümündə keçirilən Qəbələ Musiqi Festivalı artıq ikinci ildir ki, qışda da təşkil edilir.

Festivalın keçirildiyi 4 gün ərzində Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzində izləyicilərə rəngarəng proqram təqdim ediləcək. Müxtəlif musiqi zövqlərinə uyğun konsertlər təşkil olunacaq: vokal, kamera instrumental musiqi axşamları, solo çıxışlar, flamenko-caz, Azərbaycan-İspaniya, Bakı-Neapol kimi musiqi gecələri soyuq qış fəslini rəngləndirəcək.

"Qış nağılı"nın birinci günü dahi bəstəkar Qara Qarayevin musiqi irsinə həsr olunacaq. Səhnədə Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadə, Azərbaycan Dövlət Simli Kvarteti çıxış edəcək.

Fevralın 6-da isə festivalın təntənəli açılış mərasimi olacaq. Açılış konsertində Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestri, Əməkdar artist Afaq Abbasova (soprano), Aytac Şıxəlizadə (mezzo-soprano), Azər Zadə (tenor), Mahir Tağızadə (bariton) çıxış edəcəklər. Həmin gecə Cakomo Puççini, Coakino Rossini, Cüzeppe Verdi, Frans Leqar, Musa Mirzəyev və digər Azərbaycan və dünya bəstəkarlarının sevilən əsərlərindən ibarət konsert proqramı təqdim olunacaq.

Qəbələ festivalı musiqi bayramı olmaqla yanaşı, həm də mədəniyyətlərarası dialoqa mühüm töhfə kimi dəyərləndirilə bilər. Budəfəki festival da bu mənada istisna deyil. Belə ki, fevralın 7-də Qəbələdə Azərbaycanla İtaliya arasında dostluğu təcəssüm etdirən "Bakı-Neapol: Musiqi Körpüsü" kamera musiqi axşamı keçiriləcək. İzləyicilər Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini dinləyəcəklər.

Fevralın 8-də isə "Qış nağılı" Beynəlxalq Musiqi Festivalının bağlanış mərasimi olacaq. "Azərbaycan-İspaniya: iki ölkə, bir musiqi" adlı flamenko-caz musiqi gecəsində İspaniyadan dəvət alan ifaçı və rəqqaslar səhnəyə çıxacaq.

Beləliklə, dörd gün ərzində Qəbələ növbəti dəfə musiqisevərlərə unudulmaz "Qış nağılı" bəxş edəcək.

# Leyla Əliyeva Əbu-Dabidə "İnsan Qardaşlığı Məclisi" tədbirində iştirak edib

Fevralın 3-də Leyla Əliyeva Əbu-Dabidəki Zayed Milli Muzeyində "İnsan Qardaşlığı Məclisi" ("Human Fraternity Majlis") adlı tədbirdə iştirak edib.







AZƏRTAC xəbər verir ki, əvvəlcə Birləşmiş Ərəb Əmirliklərinin tolerantlıq naziri Şeyx Nəhyan Mübarək Al Nəhyanın videomüraciəti nümayiş olundu.

Sonra Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam, Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva çıxış etdilər.

Kardinal Corc Koovakad Papa XIV Leonun tədbir iştirakçılarına ünvanladığı məktubunu oxudu.

"Zayed İnsan Qardaşlığı Mükafatı" barədə videoçarx nümayiş olundu.

"Qadın liderliyi insan qardaşlığının təməlidir" adlı panel sessiyada İndoneziyanın keçmiş Prezidenti və Zayed mükafatı münsiflər heyətinin üzvü Meqavati Sukarnoputri, Livanın birinci xanımı Nehmat Aoun, Kolumbiyanın birinci xanımı Veronika Alkoser Qarsiya çıxış etdilər.

Panel sessiyada çıxış edən Leyla Əliyeva Azərbaycanda fərqli mədəniyyətlərə, dinlərə və ənənələrə hörmətin hər zaman həyat tərzinin ayrılmaz hissəsi olduğunu bildirdi. O, uşaqların mehriban mühitdə və ali ailə dəyərləri ilə böyüdüklərini, bunun isə onları gələcəkdə güclü şəxsiyyət kimi formalaşdırdığını vurğuladı. Heydər Əliyev Fondunun fəaliyyəti haqqında danışan Leyla Əliyeva fond tərəfindən təkcə Azərbaycanda deyil, həm də Pakistan, Gürcüstan, Bosniya və Herseqovinada bir çox məktəblərin tikildiyini və ya əsaslı təmir edildiyini bildirdi. Yeni texnologiyaların inkişafı ilə təhsil sisteminin də dəyişməsinin vacibliyini vurğulayan Leyla Əliyeva bu prosesin artıq başladığını dedi.

Leyla Əliyeva qeyd etdi ki, həm valideynlər, həm də müəllimlər uşaqlara daha çox dəyər verməli, onlara hörmətlə yanaşmalı, onları dinləməyi bacarmalıdırlar.

Uşaqları sosial medianın mənfi təsirlərindən qorumağın əhəmiyyətinə toxunan Leyla Əliyeva hazırda Azərbaycanda beynəlxalq təcrübəyə əsaslanaraq yetkinlik yaşına çatmayanları zərərli məlumatlardan qorumağın yollarının araşdırıldığını bildirdi.

Tədbirdə həmçinin Pakistanın birinci xanımı Aseefa Bhutto Zərdari çıxış etdi.

# Leyla Əliyeva Əbu-Dabidə Şeyx Zayed məscidini ziyarət edib

Leyla Əliyeva fevralın 3-də Əbu-Dabidə Şeyx Zayed məscidini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Şeyx Zayed məscidi dünyanın ən böyük altı məscidindən biridir və Birləşmiş Ərəb Əmirliklərinin qurucusu və ilk Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın adını daşıyır. Məscidin tikinti işlərinə 1996-cı ildə başlanılıb. Burada təxminən 50 min nəfər eyni anda ibadət edə bilər. Bu möhtəşəm tikilidə fasiləsiz olaraq Quran oxunur.



# Milli Aviasiya Akademiyasında ənənəvi "Fevral məruzələri" beynəlxalq elmi-praktik gənclər konfransının açılışı olub









Milli Aviasiya Akademiyasında (MAA) "Fevral məruzələri 2026: Aviakosmik məsələlərin həllində gənclərin yaradıcı potensialı" adlı XI beynəlxalq elmi-praktik gənclər konfransı öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, 3 gün davam edəcək beynəlxalq konfrans aerokosmik sahədə gənc tədqiqatçıların yaradıcı potensialının dəstəklənməsi, innovativ yanaşmaların təşviqi və elmi əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm akademik platforma kimi çıxış edir.

Builki konfransda ümumilikdə 428 nəfər iştirak edir. Proqram çərçivəsində 276 elmi məruzə dinləniləcək. Konfransa ABŞ, Türkiyə, Almaniya, Koreya, Qazaxıstan, Rusiya, Özbəkistan və Qırğızıstan kimi ölkələrdən 45 nəfər tədqiqatçı qatılıb.

Konfransın geniş institusional əhatə dairəsi də diqqətəlayiqdir. Ümumilikdə tədbirdə 39 müxtəlif yerli və xarici universitet, elmi-tədqiqat institutu, dövlət qurumu və aparıcı təşkilat təmsil olunub. Bu fakt "Fevral məruzələri"nin artıq regionun aparıcı gənclər elmi platformalarından birinə çevrildiyini göstərir.

Konfransı giriş sözü ilə açan birinci prorektor, professor Ədalət Səmədov MAA-nın rektoru, akademik Arif Mir Cəlal oğlu Paşayevin iştirakçılara salamlarını və təbrikini çatdırıb və MAA-nın son 30 ildə keçdiyi inkişaf yolu haqqında məruzə ilə çıxış edib.

Konfrans çərçivəsində 11 bölmə üzrə aerokosmik sahə, nəqliyyat, energetika, iqtisadiyyat, hüquq, fundamental elmlər və texniki inkişaf istiqamətlərində aktual problemlər müzakirə olunacaq.

Plenar iclasda Merilend Universitetinin (ABŞ) fəxri professoru akademik Roald Saqdeyev, Moskva Fizika-Texnika İnstitutunun professoru Emil Əhmədov, Helmholts Elmi-Tədqiqat Mərkəzinin (Almaniya) əməkdaşı, Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri, Azərbaycanın Əməkdar elm xadimi, professor Məsud Əfəndiyev və Piri Reis Universitetinin (Türkiyə) elmi işlər üzrə müşaviri, Beynəlxalq SARES cəmiyyətinin prezidenti, professor Hikmet Karakoç çıxış edərək aerokosmik elmin gələcək inkişaf perspektivlərini və MAA-da gənclərin innovasiyalara töhfəsini xüsusi vurğuladılar.

Milli Məclisin Sədr müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov çıxış edərək bildirib ki, Milli Aviasiya Akademiyası akademik Arif Paşayevin Azərbaycan xalqına verdiyi çox böyük bir töhfədir. "Müəssisə yaratmaq olar, onu inkişaf etdirmək olar. Amma bir elmi mühit, bir düşüncə məktəbi yaratmaq hər kəsə nəsib olmur. Arif Paşayev məhz bunu bacaran şəxsiyyətdir",- deyə Milli Məclisin Sədr müavini qeyd edib.

Onun sözlərinə görə, Arif Paşayevin təşəbbüsü ilə keçirilən bu konfranslar silsiləsi məhz bu ehtiyaca cavab verir və eyni zamanda gənc nəslin düşüncəsinə elmin yaşaması zərurətini ötürür: "Keçirilən bu konfranslar, nəşr edilən elmi kitablar və yetişdirilən mütəxəssislər bir daha göstərir ki, Milli Aviasiya Akademiyası təkcə təhsil müəssisəsi deyil. Bu, milli düşüncənin, elmi irsin və dövlət müstəqilliyinin daşıyıcısı olan bir məkandır".

ADA Universitetinin rektoru Hafiz Paşayev çıxış edərək bildirib ki, çox gözəl bir konfrans təşkil olunub və konfransın məzmunu olduqca düşünülmüş şəkildə hazırlanıb. "Xüsusilə qeyd etmək lazımdır ki, Roald Saqdeyev Amerikadan gələrək bir daha öz intellektual potensialını nümayiş etdirdi və yüksəksəviyyəli, maraqlı bir məruzə ilə çıxış etdi".

Hafiz Paşayevin sözlərinə görə, Arif Paşayev haqqında çox danışmaq olar. O, heç vaxt kiməsə əziyyət verməkdən xoşlanmayan, daim insanları və xüsusilə tələbələri ön planda tutan bir şəxsdir. Bugünkü çıxışında da bunu aydın şəkildə gördük.

"Arif müəllim keçmişinə, həmkarlarına və ətrafındakı insanlara həmişə sadiq olub, onların maraqlarını qorumağa çalışıb. Bu baxımdan ondan öyrənilməsi çox şey var",- deyə H.Paşayev vurğulayıb.

Sonda Hafiz Paşayev Arif Paşayev adından hər kəsə təşəkkür edib. Qeyd edib ki, akademik Arif Paşayevə tədbirin və ona yüksək səviyyədə təşkil olunduğunu çatdıracağını bildirib.

Konfrans proqramına elmi müzakirələrlə yanaşı, "Fundamental elmlər və texniki inkişaf", "Energetikanın müasir problemləri" mövzularında "dəyirmi masa"lar, eləcə də "İdeyadan nəşrə - məqalə yazma bacarığı" və "Hava limanında yerüstü xidmətlərin mərkəzləşdirilmiş rəqəmsal idarəetmə sisteminin qurulması" mövzularında ustad dərsləri daxil edilib.

Bundan əlavə, tədbir çərçivəsində "Maliyyə uçotu" dərsliyi və "Auditdə iqtisadi təhlil" dərs vəsaitinin təqdimatı nəzərdə tutulub.

"Fevral məruzələri" beynəlxalq konfransı gənc tədqiqatçıların aerokosmik innovasiyalara töhfəsi baxımından MAA-nın elmi strategiyasının əsas istiqamətlərindən biri, həm də beynəlxalq elmi əməkdaşlığın inkişafında mühüm resursdur.

Konfransın sonunda Azərbaycan Respublikasının əməkdar artisti, pedaqoq, filologiya üzrə fəlsəfə doktoru Lalə Məmmədova iştirakçılara uğurlar arzuladı və kiçik konsert proqramı ilə çıxış edib.

# Baş prokuror İmişli rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.



Fevralın 3-də baş prokuror Kamran Əliyev İmişli Rayon Prokurorluğunun inzibati binasında İmişli, Beyləqan, Füzuli, Saatlı, Sabirabad, Cəbrayıl və Xocavənd rayonundan olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 38 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib. Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

# *DTX:* Rusiya-Ukrayna müharibəsində iştirak edən daha 4 vətəndaş həbs edilib

Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin tərkibində ölkə hüdudlarından kənarda hərbi münaqişələrdə iştirak edən Azərbaycan Respublikası vətəndaşlarının müəyyən edilərək hüquqi məsuliyyətə cəlb olunmaları istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən əməliyyat-istintaq tədbirləri həyata keçirilir.



DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əldə olunmuş məlumatlara əsasən, ötən müddət ərzində Rusiya və Ukrayna arasında davam edən hərbi əməliyyatlarda xeyli sayda Azərbaycan Respublikası vətəndaşı iştirak edərək həlak olub, itkin düşüb və ya yaralanıb, bəzilərinin isə əsirlikdə saxlanıldıqları təsbit edilib. Aparılmış araşdırmalarla Azərbaycan Respublikasının vətəndaşları - 1991-ci il təvəllüdlü Nəbiyev Real Eldəniz oğlunun, 1993-cü il təvəllüdlü Hüseynov Faris Famil oğlunun, 1994-cü il təvəllüdlü Məmmədov Ali Elnur oğlunun və Mirhəşimli Murov Həsən oğlunun Rusiya və Ukrayna silahlı birləşmələrinin nəzarəti altında döyüş əməliyyatlarında iştirak etmələri sübuta yetirildiyindən, həmin şəxslər 2026-cı ilin yanvar ayında saxlanılaraq cinayət məsuliyyətinə cəlb edilib və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Bir daha vətəndaşların diqqətinə çatdırılır ki, belə silahlı münaqişələrdə iştirak etmək Azərbaycan Respublikasında cinayət məsuliyyəti yaradır və bundan sonra da xarici dövlətlərin ərazisində müvafiq cinayət əməllərinə yol verən şəxslərin məsuliyyət məsələsi qanunauyğun şəkildə təmin ediləcək.

# BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında WUF13-ə həsr olunmuş tədbirlər keçirilib

Bu il mayın 17-22-də "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusunda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) bir sıra yüksəksəviyyəli beynəlxalq tədbirlərdə təqdim olunub.



AZƏRTAC xəbər verir ki, yanvarın 29-da Birləşmiş Millətlər Təşkilatının Nyu Yorkdakı mənzil-qərargahında Polşa və Zimbabve respublikaları BMT yanında Daimi nümayəndəliklərinin həmsədrliyi ilə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) dayanıqlı urbanizasiya və Yeni Şəhərsalma Gündəliyi üzrə Dostlar Qrupunun iclası keçirilib. Tədbir Yeni Şəhərsalma Gündəliyinin icrasının ortamüddətli qiymətləndirilməsinə hazırlıq çərçivəsində təşkil olunub və BMT-yə üzv dövlətlərin nümayəndələrinin geniş iştirakı ilə baş tutub.

İclas Dostlar Qrupunun həmsədrlərinin açılış nitqləri ilə başlayıb. Ardınca BMT Baş katibinin müavini və UN-Habitat-ın icraçı direktoru Anaklaudia Rossbax Yeni Şəhərsalma Gündəliyinin icrası üçün əsas fəaliyyət çərçivəsi, öhdəliklər, prioritetlər və hesabatlılıq mexanizmləri barədə təqdimatla çıxış edib. Daha sonra sənədin icrasının qiymətləndirilməsinə dair həmməruzəçilər Malavi və Polşa respublikalarının BMT yanında Daimi nümayəndələri şəhərsalma sahəsində mövcud çağırışlar və qiymətləndirmə hesabatının hazırlanması prosesi ilə bağlı fikirlərini bölüşüblər.

UN-Habitat-ın Dostlar Qrupu dünyanın bütün regionlarını təmsil edən 50 dövlətin üzv olduğu platformadır və əsas məqsədi şəhərlərin inklüziv, təhlükəsiz, dayanıqlı və davamlı inkişafını təşviq etmək üçün üzv dövlətlər arasında dialoq və əməkdaşlığı gücləndirməkdir. İclas çərçivəsində Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) ilə bağlı təqdimat edilib, forumun mövzusu, əsas tədbirləri və WUF13-ə hazırlıq prosesi haqda məlumat verilib.

Yanvarın 30-da Azərbaycan Respublikasının Hökuməti və UN-Habitat-ın birgə təşkilatçılığı ilə WUF13-ə həsr olunmuş diplomatik brifinq keçirilib. Tədbirdə BMT yanında akkreditə olunmuş 100-dən çox daimi nümayəndəliklərin rəhbərləri, müşahidəçilər və diplomatik korpusun üzvləri iştirak ediblər. Brifinqdə açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin müvəqqəti işlər vəkili, daimi nümayəndənin müavini Elvin Əşrəfzadə Azərbaycanın dayanıqlı şəhərsalma sahəsində qlobal dialoqa verdiyi töhfələri vurğulayıb və WUF13-ün müasir çağırışlara kollektiv cavabların formalaşdırılması baxımından əhəmiyyətini qeyd edib.

BMT Baş katibinin müavini və UN-Habitat-ın icraçı direktoru Anaklaudia Rossbax çıxışında bildirib ki, WUF13 dünyada 3 milyard insanı əhatə edən qlobal mənzil böhranının həlli üçün dialoqu genişləndirmək, tərəfdaşlıqları gücləndirmək və praktik həlləri təşviq etmək baxımından mühüm platformadır. O vurğulayıb ki, WUF13 tədbiri Yeni Şəhərsalma Gündəliyinin icrasına dəstək verərək şəhərlərin inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı inkişafına töhfə verəcək.

Brifinqdə WUF13 Milli Koordinatorunun müavini Gülşən Rzayeva çıxış edərək forumun mövzusu, məqsədləri və foruma hazırlıq prosesləri barədə məlumat verib. O, Azərbaycanın WUF13-də irəli sürdüyü yeni təşəbbüslər, ilk dəfə olaraq ölkə və hökumət başçılarının iştirakı ilə Zirvə Görüşünün təşkili, interaktiv və nəticəyönümlü formatda Nazirlər Görüşünün keçirilməsi, 35 min kvadratmetr ərazidə təşkil olunacaq "Urban Expo" sərgisindən danışıb.

Brifinq çərçivəsində UN-Habitat-ın Kanada ofisinin rəhbəri Omar Siddique WUF13-ün proqramı, əsas tədbirləri və iştirak imkanları barədə təqdimatla çıxış edib. Tədbir sual-cavab sessiyası ilə davam edib. Türkiyə, Qırğızıstan, Belarus, Pakistan, El Salvador və digər ölkələrin diplomatları WUF13 tədbirinin yüksək səviyyədə təşkil olunacağına Azərbaycana olan inamlarını ifadə ediblər.

# Xankəndidə Gənclərin XI Forumu

Gənclər və İdman Nazirliyi tərəfindən Xankəndi şəhərində Azərbaycan Gənclərinin XI Forumu keçirilib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, forumun ikinci günündə gənclər və idman naziri Fərid Qayıbov, Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatov, WUF13-ün Milli koordinatorunun müavini Gülşən Rzayeva və BMT-nin Məskunlaşma Proqramının ölkə üzrə rəhbəri Anna Soave açılış nitqi ilə çıxış ediblər.

S.Qəhrəmanov işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işlərində gənclərin fəal iştirakının vacibliyini vurğulayıb. O bildirib ki, Qarabağ Universitetində təhsil alan gənclər Xankəndinin inkişafında mühüm rol oynayırlar və şəhər gənclər üçün yeni imkanlar mərkəzinə çevrilir.

Daha sonra çıxış edən gənclər və idman naziri Fərid Qayıbov isə bu il Azərbaycan Gənclərinin Forumunun 30 illiyinin qeyd olunduğundan və forumun azad olunmuş Xankəndi şəhərində keçirilməsinin xüsusi əhəmiyyət daşıdığından danışıb. Nazir azad edilmiş şəhər və rayonlarda beynəlxalq tədbirlərin təşkil olunduğunu, Qarabağ bölgəsinin müasir şəhərsalma prinsipləri əsasında sürətlə yenidən qurulduğunu da xüsusi vurğulayıb. O, həmçinin qeyd edib ki, bu il Goranboy şəhəri "Gənclər paytaxtı" elan olunub və bu münasibətlə silsilə tədbirlər keçiriləcək.

Forum çərçivəsində "Gələcəyin şəhərlərinin qurulması: milli inkişafda gənclərin məsuliyyəti" və "Şəhərlər imkanlar sistemi kimi: gənclər üçün təhsil, bacarıqlar və məşğulluq" mövzularında panel sessiyalar təşkil olunub.

Qeyd edək ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası 17-22 may tarixlərində Bakıda keçiriləcək. Foruma gedən yol çərçivəsində Azərbaycan hökuməti və BMT-nin Məskunlaşma Proqramının birgə təşəbbüsü olan Azərbaycan Şəhərsalma Kampaniyası çərçivəsində gənclər də daxil olmaqla müxtəlif hədəf qruplarını əhatə edən tematik layihə və tədbirlərin təşkili davam etdirilir.

# Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının 2026-cı il üzrə ilk iclası

Fevralın 3-də Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının 2026-cı il üzrə ilk iclası keçirilib.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, Müşahidə Şurasının sədri Dağbəyi İsmayılovun rəhbərliyi ilə keçirilən görüşdə Müşahidə Şurasının üzvləri Vüqar Əliyev, Şəfəq Mehrəliyeva, Sevil Mikayılova, Elçin Şıxlı, agentliyin İcraçı direktoru Əhməd İsmayılov və İcraçı direktorun müavini Natiq Məmmədli iştirak ediblər.

İclasın gündəliyinə əsasən Medianın İnkişafı Agentliyinin Aparat rəhbəri Rəqsanə Kərimova tərəfindən agentliyin 2025-ci il üzrə fəaliyyətinə dair hesabat təqdim olunub. Hesabatda media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin və kommunikasiyaya məsul şəxslərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, cəmiyyətin media savadlılığının artırılması istiqamətində həyata keçirilən tədbirlər, həmçinin agentlik tərəfindən media sahəsində beynəlxalq əlaqələrin qurulması və inkişafı ilə bağlı görülən işlər, təşkil edilən beynəlxalq tədbirlər barədə ətraflı məlumat verilib. Şura üzvləri tərəfindən nizamnaməyə uyğun olaraq icra edilən layihələrin əhatə dairəsinin daha da genişləndirilməsi üçün yeni təkliflər irəli sürülüb, agentliyin qarşıdakı dövrdə fəaliyyətinin təşkili üçün prioritet istiqamətlər müəyyənləşdirilib.

Daha sonra agentliyin Maliyyə və təminat departamentinin direktoru Orxan Hümbətzadə qurumun Nizamnaməsinə uyğun olaraq, bütün fəaliyyət istiqamətləri əhatə edilməklə cari il üçün maliyyə planlaşdırması barədə ətraflı məlumat verib, şura üzvləri tərəfindən 2026-cı il üçün nəzərdə tutulmuş büdcə çərçivəsində vəsaitlərin bölgüsü məqsədəuyğun və qənaətbəxş hesab edilib. Bununla yanaşı, müzakirələr zamanı media sahəsinin davamlı inkişafını təmin edəcək strateji layihələrin icrası, innovativ yanaşmaların təşviqi və mövcud resurslardan səmərəli istifadə imkanları geniş müzakirə olunub, bu istiqamətlər üzrə fikir mübadiləsi aparılıb.




# Azərbaycanın sülh diplomatiyası

## Bu, beynəlxalq ictimaiyyət tərəfindən nümunə kimi dəyərləndirilir

"Bu gün Cənubi Qafqaz yeni inkişaf mərhələsinə daxil olur. Biz beş-altı aydır sülh şəraitində yaşayırıq. Buna öyrəşirik. Öz müstəqillik tariximizdə heç zaman sülh şəraitində yaşamamışıq. Xüsusi hissdir və əlbəttə ki, böyük fürsətdir. Bu gün Azərbaycan ilə Ermənistan arasında münasibətlər artıq əməkdaşlığa çevrilir. ...Düşünürəm ki, Ermənistan və Azərbaycanın, eləcə də vətəndaş cəmiyyətinin birgə səyləri ilə biz Qafqazda uzunmüddətli deyil, əbədi sülhə nail olacağıq. Məqsədimiz budur".

Yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibəsi zamanı Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan düşünülmüş və çevik siyasət həyata keçirməklə, eləcə də strateji yanaşma ortaya qoymaqla Cənubi Qafqazda yeni reallıqlar formalaşdırıb. Bu siyasət bölgədə uzun illər hökm sürən qarşıdurma mühitini aradan qaldıraraq sabitlik, təhlükəsizlik və əməkdaşlıq üçün mühüm imkanlar yaradıb. Bu isə onu deməyə əsas verir ki, Azərbaycan üçün hər zaman prioritet hədəf dayanıqlı sülhün bərqərar edilməsi olub və postmünaqişə dövründə normallaşma istiqamətində atdığı praqmatik addımlarla regionu inkişaf, əməkdaşlıq yoluna çıxarıb. Məhz bu siyasi iradə sayəsində Azərbaycan hazırda yalnız regional proseslərin iştirakçısı deyil, eyni zamanda həmin proseslərin formalaşdırıcısı və istiqamətini müəyyən edən əsas aktorlardan biri kimi çıxış edir.

### Mükəmməl nümunə

Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondu tərəfindən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də elə həyata keçirilən sülh siyasətinin beynəlxalq miqyasda yüksək qiymətləndirilməsinin bariz göstəricisidir.

Sözügedən mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib. Bu fakt bir daha sübut edir ki, Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi və prinsipial mövqeyi bölgədə de-fakto sülhün təmin olunmasında həlledici rol oynayıb.

Prezident İlham Əliyev yanvarın 9-da Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvləri - Avropa İttifaqı Şurasının sabiq prezidenti Şarl Mişeli və Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Fakini qəbul edib. Həmin zaman adıçəkilən mükafatın münsiflər heyətinin üzvlərinin ötən il dünya üzrə bütün sülh modellərinin araşdırılmasından sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin modelinin münaqişə və müharibə olan digər bölgələrdə də tətbiqi üçün gözəl nümunə olması barədə qərar qəbul etdikləri bildirilib.

"Münsiflər heyətinin adından demək istərdim ki, sülh sazişi üzrə uğurun əldə olunması üçün Zati-alinizin gördüyü işlər bizim hamımızı ruhlandırır və dünyanın müxtəlif yerlərində mövcud münaqişə bölgələri üçün sülhün möhtəşəm bir nümunəsidir.

Biz və bütün dünya bunu dəyərlər baxımından yüksək qiymətləndiririk, çünki dünyanın, həqiqətən, buna ehtiyacı var. Həmin mükafatın Sizə təqdim edilməsi sazişin sülh, barışıq və regional sabitliyin bərqərar edilməsi baxımından əhəmiyyətini göstərir. Cənab Prezident, Sizə həqiqətən təşəkkürümüzü bildiririk", - deyə, Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam Azərbaycan Prezidentinin sülh səylərinə beynəlxalq səviyyədə yüksək dəyər verildiyini bu sözləri ilə dilə gətirdi.

### Qlobal çağırışlara töhfə

Bütün bu nümunələr ortaya qoyur ki, qlobal miqyasda sülhün və sabitliyin ciddi sınaqdan keçdiyi bir dövrdə Azərbaycanın ortaya qoyduğu sülh modeli həm region ölkələri, həm də beynəlxalq ictimaiyyət üçün nümunə kimi dəyərləndirilir. Eyni zamanda bu mükafat Azərbaycan Prezidentinin yalnız region daxilində deyil, qlobal səviyyədə də sülhə, dialoqa və qarşılıqlı anlaşmaya verdiyi töhfələrin rəsmi təsdiqi kimi ön plana çıxır.

Bu faktdır ki, Azərbaycan təkcə regional müstəvidə deyil, dünyada barışın əldə olunması üçün hər zaman mühüm təşəbbüslərlə çıxış edir, qlobal çağırışlara töhfələr verir, münaqişələrin, qarşıdurmaların aradan qaldırılması üçün çalışır. Prezident İlham Əliyevin dünyada sülh yaradan lider kimi tanınması dəfələrlə müharibənin astanasına gələn ölkələr arasında vasitəçilik etməklə tarixi barışdırıcılıq missiyası həyata keçirməsi, yəni fəaliyyəti ilə sülhə xidmət etməsi ilə də birbaşa əlaqədardır.

Bu mənada "Zayed İnsan Qardaşlığı Mükafatı" Azərbaycanın sülh modelinə və dövlətimizin dünyada barışın bərqərar olması üçün göstərdiyi səylərə beynəlxalq etimadın ifadəsidir. Prezident İlham Əliyevin bu nüfuzlu mükafata layiq görülməsi Azərbaycanın regional sabitliyin təmin olunmasında aparıcı və etibarlı aktor statusunu daha da möhkəmləndirir.

Prezident İlham Əliyev beynəlxalq səviyyədə göstərilən yüksək etimadın təzahürü olan bu nüfuzlu mükafatı almağın özü üçün böyük şərəf olduğunu deyib: "Belə nüfuzlu mükafatı almaq mənim üçün böyük şərəfdir. Xüsusən də o, Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyır. Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm".

Bir sözlə, ölkəmizin rəhbərinin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın sülhə, dialoqa və beynəlxalq əməkdaşlığa əsaslanan dövlət siyasətinə verilən yüksək qiymətdir. Bu mükafat ölkəmizin regionda qarşıdurmaların deyil, barışın təşviqçisi kimi çıxış etdiyini, sabitliyin və təhlükəsizliyin təmin olunmasında etibarlı tərəfdaş və uğurlu vasitəçi rolu oynadığını göstərir.

Bəli, qlobal sülhün ciddi sınaqlardan keçdiyi bir dövrdə Azərbaycanın nümayiş etdirdiyi məsuliyyətli və düzgün siyasət sayəsində əldə etdiyi sülh uğuru bu gün dünya üçün örnək təşkil edir. Bu onu göstərir ki, davamlı sülh yalnız güclü siyasi iradə, prinsipial mövqe və qarşılıqlı etimada əsaslanan siyasət nəticəsində mümkündür. Məhz bu yanaşma Azərbaycanı regionda sabitliyi bərqərar edən gücə çevirir və ölkəmizin beynəlxalq nüfuzunu daha da möhkəmləndirir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Milli Məclisin komitələrinin iclaslarında

Fevralın 3-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, gündəliyin birinci məsələsini - Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihəni birinci oxunuşda təqdim edən komitə sədri Musa Quliyev bildirib ki, dövlət sosial sığorta sistemində elektron xidmətlərə keçidin sürətləndirilməsi və innovativ həllərin tətbiqi mütəmadi olaraq bu sistemlə bağlı dəyişikliklərin aparılmasını və təkmilləşdirilmələrin həyata keçirilməsini zəruri edir. Sosial sığorta nömrəsi (SSN) verilərkən bu, elektron sistemlərdə həmin şəxsin şəxsiyyət vəsiqəsinin fərdi identifikasiya nömrəsi (FİN) ilə əlaqələndirilir. Qeyd olunub ki, hazırda sığortaedənlər tərəfindən muzdlu işlə əlaqədar vahid rüblük bəyannamə təqdim edilərkən SSN və FİN məlumatların hər ikisinin daxil edilməsi əlavə iş yükü yaradır və sistemdə məlumat bazasının yüklənməsinə səbəb olur.

Diqqətə çatdırılıb ki, qanun layihəsində sığortaolunanların sığortaçıda uçotunun yalnız FİN ilə aparılması təklif edilir. Bu dəyişiklik sosial sığorta sistemində məlumatların idarə olunmasında vahidliyi və uyğunluğu təmin edəcək, habelə qurumlar arasında məlumat mübadiləsini asanlaşdıraraq e-sistemlərin inteqrasiyasını sürətləndirəcək.

Sonra Musa Quliyev növbəti məsələ - birinci oxunuşda olan Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib.

Komitə sədri təqdim olunan sənəddə "Uşaq hüquqları haqqında" qanun layihəsindən irəli gələrək, uşaqların hüquq və azadlıqlarının təmin edilməsi, uşaq hüquqlarının təminatının hüquqi əsaslarının formalaşdırılması məqsədilə bir sıra qanunvericilik aktlarında müvafiq dəyişikliklərin nəzərdə tutulduğunu qeyd edib.

Bildirilib ki, layihədə adıçəkilən "Sosial xidmət haqqında" qanuna çətin həyat şəraitində olan uşaqların aşkarlanması ilə bağlı yeni 10-1-ci maddənin əlavə edilməsi təklif olunur. Dəyişikliyə əsasən, çətin həyat şəraitində olan uşaqların aşkarlanması bu qanunun 7.1.1-ci maddəsində qeyd edilən əsaslar üzrə Ailə Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan, bu qanunun 7.1.2-7.1.8-ci və 7.1.10-cu maddələrində qeyd edilən əsaslar üzrə "Uşaq hüquqları haqqında" qanuna uyğun olaraq uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiya tərəfindən həyata keçirilir.

Sənəddə bir sıra digər dəyişikliklər, o cümlədən uyğunlaşdırma xarakterli düzəlişlər də nəzərdə tutulub.

Onlayn iclasda həmçinin Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ikinci oxunuşda nəzərdən keçirilib. Komitə sədri bildirib ki, Məcəlləyə təklif olunan dəyişiklik minimum



əməkhaqqının müəyyənləşməsinin dövriliyinin təmin edilməsi ilə bağlıdır.

Təqdim olunan məsələlər ətrafında müzakirələrdə komitə üzvləri Nigar Məmmədova, Jalə Əliyeva, Vüqar Bayramov, Göydəniz Qəhrəmanov, Soltan Məmmədov, Sevinc Hüseynova, Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək fikirlərini açıqlayıblar, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Müzakirə olunan qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Fevralın 3-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin videokonfrans formatında iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Arzu Nağıyev gündəliyə bir məsələnin - "İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə və ağır cinayətlərə aid olan sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi - Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının qanun layihəsinin daxil edildiyini söyləyib.

Bildirilib ki, preambula, 9 fəsil və 68 maddədən ibarət olan Konvensiya informasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən cinayətlərlə mübarizədə dövlətlər arasında əməkdaşlığı gücləndirmək, ağır cinayətlərə dair elektron sübutların toplanması, mübadiləsi və mühafizəsi üçün vahid hüquqi mexanizm formalaşdırmaq məqsədilə hazırlanıb. Bununla belə, Konvensiya kibercinayətkarlıqla mübarizənin yalnız milli səviyyədə deyil, həmçinin beynəlxalq hüquqi yardım, ekstradisiya və operativ qarşılıqlı əlaqə mexanizmləri vasitəsilə həyata keçirilməsini nəzərdə tutur.

İclasda iştirak edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid Konvensiyanın təsdiqinin hüquqi dövlət quruculuğu, insan hüquqlarının müdafiəsi və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması baxımından xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıblar. Qeyd olunub ki, Konvensiya müasir dövrdə kibercinayətkarlıqla bağlı bütün halları özündə ehtiva edir.

Müzakirələrdə komitənin sədr müavini Qüdrət Həsənquliyev, üzvləri Hikmət Məmmədov, Qaya Məmmədov, Gülşən Paşayeva, Rizvan Nəbiyev təqdim olunan sənədlə bağlı fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Sonra iclasda iştirak edən Milli Kibertəhlükəsizlik Mərkəzinin nümayəndələri Orxan Abdulkərimli və Elvin Balacanov qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Qanun layihəsi baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Prezident İlham Əliyevə beynəlxalq etimadın nümunəsi

**A**zərbaycan-Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlər strateji səviyyəyə yüksəlib. Hər iki dövlət fundamental məsələlərdə ortaq mövqedən çıxış edir. İki ölkə arasında bütün sahələr üzrə əməkdaşlıq genişlənməkdədir. Siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, xüsusilə "yaşıl enerji", hərbi texniki, humanitar sahələrdə, ümumilikdə elə bir sfera yoxdur ki, əlaqələr sürətlə inkişaf etməsin.

Milli Məclisin deputatı Elman Nəsirov qəzetimizə açıqlamasında bildirib ki, BƏƏ-nin nüfuzlu mükafatı olan "Zayed İnsan Qardaşlığı Mükafatı" il ərzində dünya üzrə bütün sülh modellərinin araşdırılmasından sonra qiymətləndirilir: "Bu il isə "Zayed İnsan Qardaşlığı Mükafatı" Azərbaycan Prezidenti İlham Əliyevə təqdim olunub. Bu mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib".

Deputat Prezident İlham Əliyevin yanvarın 9-da "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə bağlı nümayəndə heyətini qəbul etdiyini xatırladaraq əlavə edib ki, Müsəlman Ağsaqqalları Şurasının baş katibi



Məhəmməd Əbdülsalam sülh sazişi üzrə uğurun əldə olunması üçün Prezidentin gördüyü işlərin hamını ruhlandırdığını və dünyanın müxtəlif yerlərində mövcud münaqişə bölgələri üçün sülhün möhtəşəm bir nümunəsi olduğunu vurğulayıb. Qeyd olunub ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin modelinin münaqişə və müharibə olan digər bölgələrdə də tətbiqi üçün gözəl nümunə olması barədə qərar qəbul edilib. Beləliklə, sülhün və təhlükəsizliyin təminatı ilə bağlı Azərbaycanın bu modeli əsas, nəticəsi olan model kimi qiymətləndirilib. Bu səbəbdən Prezident İlham Əliyev belə nüfuzlu mükafata layiq görülüb. Həqiqətən də bu, yüksək göstəricidir və Prezidentə olan beynəlxalq etimadın nümunəsidir.

E.Nəsirov bildirib ki, bu gün İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövlətinin sözünün məna və çəkisi kifayət qədər yüksəkdir: "Qazandığımız bütün tarixi nailiyyətlərin, xüsusilə ərazi bütövlüyü və suverenliyimizin tam təmini ilə bağlı tarixi qələbəmizin əsas müəllifi Prezident İlham Əliyevdir, onun formalaşdırdığı nizami ordu, arxasında "dəmir yumruq" kimi dayanmış Azərbaycan xalqıdır. Bu uğurları dünya birliyi də görür və qiymətləndirir".

Deputat qeyd edib ki, dünyada böyük nüfuza malik "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edilməsi dövlət başçısının siyasi arenada sözünün məna və çəkisinin kifayət qədər yüksək olduğunun, ona olan ehtiram və hörmətin ifadəsidir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Ermənistan vətəndaşlarının məhkəməsi fevralın 5-də davam etdiriləcək

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi fevralın 5-də davam etdiriləcək.



Bu barədə AZƏRTAC-a Bakı Hərbi Məhkəməsindən məlumat verilib.

Xatırladaq ki, məhkəmə prosesi 2025-ci il yanvarın 17-də başlayıb. Dekabrın 26-da məhkəmə kollegiyası müşavirəyə gedib.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Aİ-nin ikili standartları Cənubi Qafqazda sülhə risk yaradır



Avropa İttifaqına üzv olan 27 dövlətin razılığı ilə Ermənistana Avropa Sülh Fondundan 20 milyon avro ayrılması, Cənubi Qafqazda formalaşan həssas geosiyasi balans fonunda ciddi suallar doğurur. Qərarın Brüsseldə Aİ Şurasının iclasında qəbul edilməsi və "sülhə dəstək" adı altında təqdim olunması mövcud reallıqlar baxımından birmənalı qarşılanmır.

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, regionda son illərdə baş verən proseslər sülhün möhkəmləndirilməsi üçün əsas şərtin tərəflər arasında etimadın artırılması və normallaşma prosesinə zərər vurmayan addımların atılması olduğunu göstərir: "Bu kontekstdə Ermənistana maliyyə dəstəyinin verilməsi, xüsusilə də hərbi komponentlə əlaqələndirilən fond vasitəsilə həyata keçirilməsi, sülh təşəbbüsü kimi təqdim edilsə də, əks təsir doğura bilər. Bu cür təşəbbüslər qarşı tərəfdə yanlış gözləntilər formalaşdırmaqla yanaşı, əldə olunan müsbət dinamikanın zəifləməsinə də səbəb olar. Bu uyğunsuzluq Bakı tərəfindən haqlı narazılıqla qarşılanır".

Deputat qeyd edib ki, Ermənistan hazırda Rusiyanın təsir dairəsindən çıxmağa çalışan "tərəfdaş" kimi təqdim olunur. Brüssel hesab edir ki, Paşinyan hökumətinə maliyyə və hərbi dəstək göstərməklə, Ermənistanın Qərbə inteqrasiyasını sürətləndirmək mümkündür. Eyni zamanda Aİ-də bəzi qüvvələr yanlış şəkildə düşünürlər ki, Azərbaycana hərbiyönümlü dəstək vermək tarazlığın pozulmasına səbəb ola bilər. Halbuki minatəmizləmə əməliyyatları tamamilə humanitar xarakter daşıyır və sülhün möhkəmləndirilməsinə birbaşa töhfə verir.

Azərbaycanın dünyada minalarla ən çox çirklənmiş ölkələrdən biri olduğunu diqqətə çatdıran K.Bayramov əlavə edib ki, bu ərazilərin təmizlənməsi insanların təhlükəsiz qayıdışına və dayanıqlı sülhün təmin olunmasına xidmət edir: "Cənubi Qafqazda dayanıqlı sülhün təmin olunması üçün beynəlxalq aktorların balanslı, ədalətli və regiondakı real vəziyyəti nəzərə alan mövqe sərgiləməsi xüsusi əhəmiyyət kəsb edir. Əks təqdirdə, "sülhə dəstək" adı altında atılan addımlar regionda sabitliyi möhkəmləndirmək əvəzinə, yeni gərginliklərin yaranmasına səbəb ola bilər. Rəsmi açıqlamalarda ayrılan vəsaitin Ermənistanın "müdafiə qabiliyyətinin artırılması" məqsədi daşıdığı bildirilsə də, məhz bu yanaşma regionda ciddi narahatlıqlar doğurur. Xüsusilə də Azərbaycanın mövqeyindən baxdıqda bu məsələ əsaslı suallar yaradır, çünki 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda tamamilə yeni geosiyasi reallıq formalaşıb və mövcud status-kvo regionda sülhün bərqərar olması üçün real imkanlar yaradıb. Bu yeni mərhələdə Azərbaycan dəfələrlə sülh müqaviləsinin imzalanması, dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası, eləcə də regional kommunikasiyaların açılması istiqamətində konstruktiv və ardıcıl mövqe nümayiş etdirib. Rəsmi Bakı qarşılıqlı etimada əsaslanan, uzunmüddətli sabitliyi hədəfləyən sülh gündəliyinin irəli aparılmasında maraqlı olduğunu konkret addımlarla ortaya qoyub. Belə bir şəraitdə Ermənistanın silahlanmasına və ya hərbi infrastrukturunun gücləndirilməsinə yönələn istənilən maliyyə dəstəyi regionda sülhə xidmət etmir".

Deputat bildirib ki, Azərbaycan uzun illər beynəlxalq hüququn açıq şəkildə pozulması şəraitində qalmasına baxmayaraq, Qərb institutları tərəfindən prinsipial və adekvat mövqe nümayiş etdirilməyib. Ermənistanın təxminən 30 il davam edən işğal siyasəti dövründə Avropa İttifaqı təcavüzkar dövlətə qarşı nə sanksiya mexanizmlərini işə salıb, nə də işğal faktını aradan qaldırmağa yönəlmiş ciddi siyasi təzyiq göstərib. Həmin dövrdə Ermənistana göstərilən münasibət beynəlxalq hüququn norma və prinsipləri ilə ziddiyyət təşkil edib. "Bu müddət ərzində Ermənistanın destruktiv və işğalı davam etdirən siyasətinə qarşı prinsipial və ardıcıl mövqe nümayiş etdirilməyib. Əksinə, mövcud vəziyyətin dəyişməsinə yönəlməyən passiv yanaşma işğalın illərlə davam etməsinə, münaqişənin uzanmasına və regionda gərginliyin qorunub saxlanmasına şərait yaradıb. Hazırda isə münaqişə faktiki olaraq həll olunduqdan və regionda yeni reallıqlar yarandıqdan sonra Ermənistanın maliyyə və hərbi baxımdan dəstəklənməsi ciddi suallar doğurur. Bu addımlar, bir tərəfdən, sülh və sabitlik çağırışları ilə ziddiyyət təşkil edir, digər tərəfdən isə beynəlxalq münasibətlərdə ikili standartların açıq təzahürü kimi dəyərləndirilir", - deyə o bildirib.

K.Bayramov əlavə edib ki, Avropa İttifaqının Cənubi Qafqazda davamlı sabitlik və təhlükəsizliyə səmimi marağı varsa, bunu tərəflərdən birinin silahlandırılması ilə deyil, ədalətli, balanslı və beynəlxalq hüquqa əsaslanan siyasət yürütməklə nümayiş etdirməlidir. "Sülh Fondu" adlanan mexanizmin faktiki olaraq hərbi məqsədlərə yönəldilməsi Avropa İttifaqının bəyan etdiyi dəyərlər və sülh çağırışları ilə açıq şəkildə ziddiyyət təşkil edir. Regionda dayanıqlı sülhün təmin olunması üçün silahlanmanı təşviq edən deyil, etimadı artıran, dialoqu və əməkdaşlığı dəstəkləyən yanaşmaların üstünlük təşkil etməsi daha məqsədəuyğundur. Əks halda ikili standartlara əsaslanan mövqelər və qeyri-bərabər münasibət Cənubi Qafqazda etimad mühitinin formalaşmasına deyil, yeni gərginliklərin yaranmasına zəmin yarada bilər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## *Amerikalı ekspert:*

# "Azərbaycan Sülh Şurasının effektiv fəaliyyətinə əhəmiyyətli dərəcədə töhfə verəcək"

"ABŞ-nin rəhbərlik etdiyi Sülh Şurasında Azərbaycan hökumətinin iştirakı çox əhəmiyyətlidir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Qlobal Siyasət İnstitutunun prezidenti, Vaşinqtondakı Bay Atlantik Universitetinin politologiya və beynəlxalq münasibətlər üzrə professoru Paolo Von Şirah deyib. O bildirib ki, Sülh Şurasının yaradılması Amerikanın Qəzzadakı münaqişəyə son qoymaq səylərindən irəli gəlsə də, müxtəlif coğrafi bölgələrdən olan iştirakçılarla birlikdə tamamilə yeni bir inkişaf yoluna qədəm qoya bilər.

Ekspert deyib ki, indiyə qədər beynəlxalq sülhə, sülhməramlılığa və digər məsələlərə qarşı təhdidlərlə mübarizə aparan yeganə təşkilat Birləşmiş Millətlər Təşkilatı olub, amma siyasi ziddiyyətlər üzündən təşkilatın Təhlükəsizlik Şurasının yaxşı fəaliyyət göstərməsi çox çətindir.

"Sülh Şurasının münaqişələri dayandırmaq, sülhü təmin etmək, beynəlxalq sabitliyi qorumaq və ya dəstəkləmək üçün hansı icra vasitələrinə sahib olacağı hələlik tam aydın deyil. Lakin Azərbaycan hökumətinin bu sahədə kifayət qədər təcrübəsi var. On illərdir qonşusu Ermənistanla münaqişədə olub. Azərbaycan öz ərazisi və suverenliyi üzərində tam nəzarəti bərpa edə bilib. Buna görə də düşünürəm ki, Azərbaycanın sülh yaratmaq sahəsində birbaşa, canlı təcrübəsini nəzərə alsaq, hər kəsin rahatlığını təmin edən ədalətli bir sülh sahəsində töhfə verə bilər. Beləliklə, düşünürəm ki, Bakı Sülh Şurasına bilik, təcrübə və fərqli bir baxış bucağı gətirə bilər. Beləliklə, çox güman ki, Azərbaycan hökuməti Prezident Trampın rəhbərliyi altında yeni yaradılmış şuranın effektiv fəaliyyətinə əhəmiyyətli dərəcədə töhfə verə biləcək", - deyə ekspert əlavə edib.

# Sülh missiyası və artan beynəlxalq nüfuz

## Azərbaycan regionda sabitliyin moderatoru kimi çıxış edir

Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu mövqe yalnız coğrafi üstünlüklərlə deyil, həm də apardığı balanslaşdırılmış və sülhə yönəlmiş xarici siyasətlə xarakterizə olunur. Şərq və Qərb, Şimal və Cənub arasında təbii körpü rolu oynayan Azərbaycan coğrafi mövqeyini çevik diplomatiya ilə birləşdirərək regionun əsas güc mərkəzinə çevrilib.



Ölkəmiz qlobal müstəvidə etibarlı tərəfdaş və strateji dialoq məkanıdır. Bakı mütəmadi olaraq beynəlxalq humanitar forumlara və sivilizasiyalararası dialoqlara evsahibliyi edərək dünyada sülhün və qarşılıqlı anlaşmanın təşviqçisi statusunu möhkəmləndirir. 2010-cu ildə başlayan və regional təşəbbüsdən qlobal çağırışa çevrilən "Bakı Prosesi" vasitəsilə mədəniyyətlərarası dialoqa verilən töhfə ölkəmizin "yumşaq gücü"nü artırıb. Azərbaycanın 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına uğurlu sədrlik etməsi və pandemiya dövründə qlobal həmrəylik təşəbbüsləri ölkəmizin beynəlxalq nüfuzunu zirvəyə daşıyıb.

Prezident İlham Əliyevin müdrik siyasəti və unikal idarəetməsi ölkəmizə böyük güclər arasında manevr etmək və milli suverenliyini qorumaq imkanı verir. Azərbaycanın daxili sabitliyi və multikulturalizm siyasəti beynəlxalq aləmdə bir model kimi qəbul edilir. Dünyanın ən böyük güclərinin hərbi-siyasi rəhbərlərinin məhz Bakıda görüşməsi heç də təsadüfi deyil. Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə NATO-nun hərbi rəhbərliyinin Bakıda keçirdiyi görüşlər də Azərbaycanın hər iki tərəf üçün nə dərəcədə etibarlı məkan olduğunun sübutu idi. Türkiyə və İsrail arasındakı vasitəçilik missiyası da ölkəmizin xarici siyasətindəki "qızıl körpü" rolunun ən bariz nümunələrindən biridir. Hər iki ölkə ilə strateji müttəfiqlik və yaxın dostluq münasibətlərinə malik olmaq Bakıya bu gərginliyi yumşaltmaq üçün unikal imkanlar qazandırıb. Azərbaycan rəsmiləri illərlə hər iki tərəf arasında anlaşılmazlıqların aradan qaldırılması üçün səssiz diplomatiya metodundan istifadə ediblər. Bakının qardaş Türkiyə və etibarlı, strateji tərəfdaş İsrailə təklifləri hər iki ölkə tərəfindən məmnunluqla qəbul olunub.

Suriyadakı rejim dəyişikliyi və regiondakı yeni reallıqlar fonunda da Azərbaycan yenidən ön plana çıxdı. Bakı Suriyada maraqları kəsişən güclər arasında hərbi toqquşma riskini minimuma endirmək üçün "qaynar xətt" rolunu oynadı. Ölkəmizin bir neçə coğrafiyanı əhatə edən uğurlu fəaliyyəti bir daha göstərir ki, dövlətin gücü, sadəcə, ərazisi, əhali sayı və ya ordusu ilə deyil, həm də dünyada nə qədər lazımlı olması, etibarlı tərəfdaşa çevrilməsi və problemləri həlletmə qabiliyyəti ilə ölçülür. Azərbaycan Şərqlə Qərbin, Şimalla Cənubun qovuşduğu təhlükəsiz tranzit qovşağı olmaqla bərabər, fərqli dinlərin və etnosların dinc yaşaması üçün ideal nümunə, o cümlədən bloklara qoşulmadan, bütün güc mərkəzləri ilə bərabərhüquqlu münasibətlər quran, mürəkkəb siyasi məsələlərdə neytral moderator funksiyasını icra edən nadir ölkələrdəndir.

Sülh və sabitlik iqtisadi inkişafın əsas şərtidir. Azərbaycanın təşəbbüskarı olduğu nəqliyyat və enerji layihələri ("Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars və s.) yalnız iqtisadi mənfəət deyil, həm də iştirakçı ölkələr arasında qarşılıqlı anlaşma və sülh zənciri yaradır.

Mehriban qonşuluq və regional sabitlik Azərbaycanın xarici siyasət doktrinasının özəyini təşkil edir. Prezident İlham Əliyevin İran Prezidenti Məsud Pezeşkianla təmasları və verdiyi mesajlar göstərdi ki, Bakı üçün ən böyük prioritet, ilk növbədə, regional təhlükəsizlik qurşağı yaratmaqdır. Cənab İlham Əliyevin həmkarı Pezeşkianla telefon danışığı əsnasında İran rəhbərinin Azərbaycana səfərləri, dövlət başçılarının görüşləri və səmərəli danışıqlar məmnunluqla xatırlandı. Söhbət zamanı Azərbaycan ilə İran arasında münasibətlərin dostluq, qardaşlıq prinsiplərinə əsaslandığı və xalqlarımız arasında tarixi, etnik və dini bağların olduğu bir daha qeyd edildi. Həmçinin dövlət başçısı İlham Əliyev bölgədə yaranmış vəziyyətdən narahat olduğunu və Azərbaycanın gərginliyi aradan qaldırılmasına töhfə verməyə hazır olduğunu xüsusi vurğuladı.

Reallıq odur ki, qonşu ölkələrdə yaranacaq hər hansı xaos və ya hərbi münaqişə ölkəmizin milli maraqlarına da təsirsiz ötüşməyəcək. İran ərazisi Azərbaycan üçün həm Naxçıvanla əlaqə (Araz dəhlizi), həm də "Şimal-Cənub" nəqliyyat dəhlizi üçün əhəmiyyət kəsb edir. Azərbaycan cənub qonşusu İranla bağlı mövqeyini dəfələrlə ortaya qoyub. Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan ərazisindən qonşu dövlətlərə qarşı hər hansı hücum və ya kəşfiyyat məqsədilə istifadə edilməsinə icazə verilməyəcək. Bu qətiyyətli mövqe İranın narahatlığını aradan qaldırır və iki ölkə arasında etimad mühitini bərpa edir. Prezident İlham Əliyevin İranla bağlı yürütdüyü uzaqgörən siyasət regionun "alov halqası"na çevrilməsinin qarşısını alan mühüm faktorlardan biridir. Sülh və sabitlik tərəfdarı olan, bu istiqamətdə çoxsaylı əməli addımlar atan Azərbaycan qonşu ölkələrin münaqişələrə cəlb olunmasında qətiyyən maraqlı deyil.

Nəticə etibarilə, Azərbaycanın yürütdüyü müstəqil xarici siyasət kursu ölkəmizi geosiyasi fırtınaların ortasında sabitlik və etimad adasına çevirir. Azərbaycan, sadəcə, iqtisadi və enerji layihələri ilə deyil, eyni zamanda mürəkkəb münaqişələrdə nümayiş etdirdiyi ədalətli moderator missiyası ilə beynəlxalq sistemdə əvəzedilməz yer tutur. Bu strateji yanaşma dövlətimizi yeni dünya düzənində daha mühüm qlobal iştirakçı səviyyəsinə yüksəldir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Ermənistanda siyasi qütbləşmə dərinləşir

## Seçki dilemması: sülh və əməkdaşlıq, yoxsa müharibə və fəlakət?

Ermənistanda cari il iyunun 7-də keçiriləcək parlament seçkiləri yaxınlaşdıqca siyasi rəqabət kəskin fazaya adlayır. Siyasi qüvvələr öz maraqları naminə müxtəlif taktiki gedişlər edirlər. Mövcud pərakəndəlik şəraitində müxalif düşərgənin vahid cəbhədə birləşməsi variantı gündəmdən düşmür. Bu istiqamətdə ən fəal fiqur sabiq dövlət başçısı Robert Koçaryandır. Keçmiş prezident keçirdiyi sonuncu media brifinqində seçki dövründə genişmiqyaslı müxalif koalisiyanın formalaşmasının önəmindən danışıb.



Koçaryanın qənaətincə, müxalif cinahın təmsilçiləri təməl prinsiplərdə fərqli baxışlara sahib olsalar da, əsas niyyət və məqsədləri üst-üstə düşür. O hesab edir ki, ortaq məqam tərəflər arasında işbirliyi qurmaq və fəaliyyətləri koordinasiya etmək üçün əlverişli zəmin yaradır. Şübhəsiz, Koçaryanın çıxışının pərdəarxasında hökumətdən narazı kütləni, xüsusilə radikal meyilli qrupları məhz öz liderliyi altında toplamaq niyyəti dayanır. Bu yolla seçkilər qabağı öz siyasi reytinqini yüksəltməyə ümid edir. O, seçki öncəsi formalaşacaq siyasi bloka başçılıq etməyə "ən layiqli namizəd" kimi özünü gördüyünü açıqlayıb.

Müxalifətin vahid cəbhədə birləşmə ehtimalı hər zaman müzakirə olunsa da, reallıqda bu, çox çətindir. Həm Koçaryan, həm də digər iddialı fiqurlar, məsələn, keşiş Baqrat Srbazan vahid lider olmaq arzusunu bəyan ediblər. Hələlik müxalifəti birləşdirən məsələ "Paşinyan getsin" devizidir, onun yerinə kimin necə gəlməsi söhbətində müxalifətin mövqeyi fərqli və ziddiyyətlidir. Əgər müxalifət xalqın böyük qismini inandıra bilsə ki, Paşinyan dövlətçiliyi tamamilə itirir, o zaman vahid blok hökumət üçün real təhlükəyə çevrilə bilər. Lakin indiki vəziyyətdə müxalifətin daxili parçalanması Paşinyanın ən böyük sığortası hesab olunur. Məsələ ondadır ki, Paşinyanın ən böyük rəqibi klassik müxalifət yox, daha çox erməni cəmiyyətindəki ictimai məyusluqdur. Sərhədlərin delimitasiyası prosesində verilən qərarlar və anklavlar məsələsi müxalif media tərəfindən əhaliyə "milli itkilər" kimi sırınmaqdadır. Müharibədən sonrakı dövrdə hərbi gücün bərpasının gözlənilən sürətlə getməməsi də ciddi tənqid hədəfidir. Həmçinin Ermənistana köçən kütlənin sosial problemləri və onların potensial etiraz elektoratına çevrilmə ehtimalı hakimiyyət üçün daxili gərginlik mənbəyi sayılır. Baş nazir 2018-ci ildə verdiyi vədləri reallaşdırmamaqda ittiham olunur. Yeni müxaliflər hər fürsətdən istifadə edərək Paşinyan hökumətinin mövqeyini sarsıtmağa, reytinqini azaltmağa çalışır.

Radikal müxalifətin xarici dəstəyi də önəmli faktordur. Revanşistlərin Rusiya siyasi elitaları və mediası ilə sıx əlaqələri mövcuddur. Kreml Paşinyanın Qərbə meyilliliyindən narazı olduğu üçün köhnə elitaya "etibarlı tərəfdaş" kimi baxır. Həmçinin, xaricdəki erməni lobbi təşkilatları və diasporunun, xüsusilə Daşnaksütyun tərəfdarlarının maliyyə və ideoloji dəstəyi bu qüvvələr üçün mühümdür. Ancaq istifadə müddətini başa vurmuş köhnə siyasi elitanın daxildəki bazası heç də geniş deyil. Onların əsas dayağı keçmiş idarəetmə aparatında qalan şəxslər, bəzi oliqarx dairələr və Erməni Apostol Kilsəsidir. Sıravi ermənilərin böyük əksəriyyəti hələ də keçmişin qayıdışından qorxduğu üçün revanşistləri dəstəkləmir. Kilsə əvvəlki seçkilərdə pərdəarxası dəstək verirdisə, bu dəfə birbaşa siyasi aktor rolundadır. Baqrat Srbazan kimi fiqurların liderlik etdiyi hərəkat göstərdi ki, kilsə artıq müxalifətin dağınıq liderlərini deyil, xalqı öz ətrafında birləşdirməyə çalışır. Ona görə də seçicilərə "milli və dini kimlik" seçimi təqdim edir. Paşinyanın tərəfdarlarını "vətən xaini" və ya "imansız" kimi qələmə verməklə baş nazirin elektoratını zəiflətməyə çalışır. Seçki prosesini "xeyirlə şərin savaşına" çevirməyə cəhd edir. Hökumətin Qərb dəyərlərinə yaxınlığı, Paşinyanın ailə və din məsələlərindəki liberal yanaşması kilsə tərəfindən kəskin tənqid olunur. Nəzərə alaq ki, rayon və kənd yerlərində keşişlərin sözü hələ də təsirlidir və kilsə öz şəbəkəsini seçki təşviqatı mərkəzləri kimi istifadə edə bilər.

Paşinyan kilsənin təbliğatına qarşı artıq bir neçə addım atıb və güman ki, qarşıdakı günlərdə keşişlərlə mübarizəsini daha da gücləndirəcək. Baş nazir kilsənin gəlirlərinin vergiyə cəlb edilməsi və maliyyə şəffaflığı məsələsini gündəmə gətirməklə dini qurumu "korrupsioner şəbəkə" kimi təqdim edir. Dövlət və dinin ayrılması prinsipini müdafiə edərək, kilsənin siyasətə qarışmasını qanunsuzluq kimi qiymətləndirir. Kilsənin birbaşa hakimiyyətə iddiası da ictimaiyyətdə teokratik dövlət qorxusu yaradır.

Paşinyan hakimiyyəti ilə revanşist müxalifətin qarşıdurması təkcə Ermənistanın daxili işi deyil, həm də Cənubi Qafqazın gələcək təhlükəsizlik arxitekturasını müəyyən edən amildir. Baş nazir çıxışlarında uydurma və zərərli "tarixi Ermənistan" ideologiyasından imtina edərək, sülh və əməkdaşlığa əsaslanan "real Ermənistan" konsepsiyasını təqdim edir. Paşinyan seçki kampaniyasını "sülh və sülhsüzlük" dilemması üzərində qurur. Bu, Azərbaycanla sülh müqaviləsinin imzalanması üçün yeganə rasional yoldur. İndiki şəraitdə Paşinyanın məğlubiyyəti bu prosesin dondurulmasına və ya tamamilə ləğvinə səbəb ola bilər. Çünki müxalifətin ritorikası itirilmiş mövqeləri geri qaytarmaq və delimitasiya prosesini dayandırmaq üzərində qurulub. Revanşistlər Paşinyanın Azərbaycanla olan istənilən razılaşmasını "ölkənin satılması" kimi qələmə verirlər. Ələlxüsus, 2026-cı ilin əvvəlindən etibarən Ermənistanda dezinformasiya və hibrid hücumların artması müşahidə olunur. Müxalifətin hakimiyyətə gəlişi Ermənistanın yenidən özünütəcrid vəziyyətinə qayıtması və gərginlik ocağı kimi qalması deməkdir. Paşinyanın qalibiyyəti isə regionun kənar qüvvələrin, xüsusilə Rusiya-Qərb qarşıdurmasının poliqonuna çevrilməsinin qarşısını bir qədər ala bilər. Nəticə etibarilə, Ermənistan seçicisi qarşısında iki yol var: ya sağlam təfəkkürlə mövcud reallığı qəbul edib sülh və sabitlik içində yaşayacaqlar, ya da utopik xəyallar dalınca gedərək yeni fəlakətlərə sürüklənəcəklər.

*İ.QOCAYEV,*
*"Azərbaycan"*



# Münasibətlərin yeni mərhələsi

## Əlaqələr çoxşaxəli tərəfdaşlıq səviyyəsinə yüksəlib

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında münasibətlər son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq strateji və hərtərəfli tərəfdaşlıq səviyyəsinə yüksəlib. Siyasi dialoqun intensivləşməsi, iqtisadi və enerji sahələrində irimiqyaslı layihələrin icrası, parlamentlərarası və humanitar əlaqələrin genişlənməsi bu münasibətlərin dərin və davamlı xarakter daşıdığını nümayiş etdirir.

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, iki ölkə arasında münasibətlərin möhkəmlənməsində dövlət başçılarının qarşılıqlı səfərləri mühüm rol oynayır. Prezident İlham Əliyevin BƏƏ-yə iki rəsmi və beş işgüzar səfəri, eləcə də BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi və işgüzar səfərləri iki ölkə arasında siyasi etimadın yüksək səviyyədə olduğunu göstərir. Azərbaycan-BƏƏ münasibətlərində parlament diplomatiyası da fəal rol oynayır. Milli Məclisdə və BƏƏ Federal Milli Şurasında fəaliyyət göstərən dostluq qrupları, spikerlərin qarşılıqlı səfərləri və beynəlxalq parlament platformalarında birgə iştirak siyasi dialoqu tamamlayan mühüm komponentdir. Xüsusilə, bu il 26-27 yanvar tarixlərində Milli Məclisin spikeri Sahibə xanım Qafarovanın BƏƏ-yə səfəri, onun qadın parlamentarilərin 2-ci forumunda iştirakı parlamentlərarası əməkdaşlıqda humanitar və sosial gündəliyin güclənməsinə xidmət edir.

İki ölkə arasında 50-dən artıq sənəd imzalandığını diqqətə çatdıran P.Vəliyeva deyib ki, 2024-cü ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Memorandum, 2025-ci ildə qüvvəyə minmiş Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi və Birgə Strateji Bəyannamə münasibətlərin hüquqi-siyasi çərçivəsini yeni səviyyəyə çıxarıb. Yaxın perspektivdə Bakı və Əbu-Dabi şəhərləri arasında qardaşlaşma (twinning) münasibətlərinin qurulması da gözlənilir ki, bu da şəhərsalma və urbanizasiya sahəsində əməkdaşlıq üçün yeni imkanlar açacaq. "City within a City" kimi iri urbanizasiya layihələri, enerji saxlama sistemləri, bank sektoru və aqrar sahədə planlaşdırılan layihələr əməkdaşlığın şaxələndirildiyini göstərir. Xüsusilə Abşeron, Biləsuvar və Neftçala layihələri ilə "yaşıl enerji" gündəliyində BƏƏ-nin aparıcı rolu diqqət çəkir. COP29 çərçivəsində də bu ölkə ilə birgə təşəbbüslər reallaşdırılmışdı.

Azərbaycan-BƏƏ iqtisadi münasibətlərinin sürətlə inkişaf etdiyini vurğulayan deputat bildirib ki, 2025-ci ildə ticarət dövriyyəsinin 88 faizdən çox artması, ixracın iki dəfə yüksəlməsi bu dinamikanın bariz göstəricisidir: "Hazırda Azərbaycanda yüzlərlə BƏƏ şirkəti fəaliyyət göstərir. Qarşılıqlı investisiyalar isə artıq milyardlarla dollarla ölçülür. Enerji sektoru Azərbaycan-BƏƏ əməkdaşlığının əsas sütunlarından biridir. "Masdar", ADNOC və SOCAR arasında imzalanmış sazişlər bərpaolunan enerji, neft-qaz hasilatı və beynəlxalq enerji bazarlarında birgə fəaliyyət üçün möhkəm zəmin yaradır. Abşeron yatağı, "Cənub qaz dəhlizi" və Əbu-Dabidəki investisiyalar bu əməkdaşlığın strateji xarakterini təsdiqləyir. Nəqliyyat sahəsində artan tranzit həcmləri, intensiv hava əlaqələri və turizm axını iki ölkə arasında fiziki və iqtisadi bağlantının gücləndiyini göstərir".

P.Vəliyeva qeyd edib ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlər artıq klassik ikitərəfli əməkdaşlıq çərçivəsini aşaraq strateji, çoxşaxəli və uzunmüddətli tərəfdaşlıq modelinə çevrilib. Siyasi etimad, güclü müqavilə-hüquqi baza, iri investisiya layihələri və ortaq qlobal gündəlik bu münasibətlərin gələcəkdə daha da dərinləşəcəyini göstərir. Bu əməkdaşlıq həm regional, həm də qlobal miqyasda dayanıqlı inkişaf və qarşılıqlı fayda prinsiplərinə xidmət edən uğurlu model kimi çıxış edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan-BƏƏ enerji əməkdaşlığı şaxələnir

Son illər Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı davamlı xarakter alıb. Bunun bariz göstəricilərindən biri qeyri-neft ticarətinin ümumi həcminin bir neçə dəfə artmasıdır. Kənd təsərrüfatı, texnologiya, əczaçılıq və enerji infrastrukturu sektorlarına sərmayələrin yatırılması prioritet təşkil edir. Ölkələrimizin dövlət başçılarının qarşılıqlı səfərləri, ali səviyyədə görüşlər və söhbətlər, birgə tədbirlər iqtisadi əlaqələrin daha da inkişafına təkan verir.

Prezident İlham Əliyevin bu ölkəyə növbəti səfəri zamanı da BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla söhbətdə Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığı vurğulanaraq əməkdaşlığın bütün sahələrdə inkişafından məmnunluq ifadə olunub.

Xatırladaq ki, iki ölkənin iqtisadi əməkdaşlığında əsas yeri enerji sektoru tutur. Məsələn, 2023-cü ilin dekabrında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) arasında strateji əməkdaşlıq sazişi imzalanıb. Bu, Dubayda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası (COP28) çərçivəsində baş tutub.

Saziş ətraf mühitin mühafizəsi sahəsində SOCAR və ADNOC arasında birgə fəaliyyətin daha da genişləndirilməsini, o cümlədən "yaşıl hidrogen", geotermal enerji və karbon emissiyalarının idarə edilməsi sahəsində əməkdaşlıq məsələlərini nəzərdə tutur. ADNOC Xəzərin Azərbaycan sektorundakı "Abşeron" qaz yatağı layihəsində sanballı iştirak payına da malikdir. Beləliklə, bu şirkət yaxın tərəfdaşlarımız arasında özünə yer alır.

Ölkələrimizin birgə reallaşdırdığı "yaşıl enerji" layihələri xüsusi əhəmiyyət kəsb edir. Belə ki, BƏƏ-nin "Masdar" şirkətinin Azərbaycanda həyata keçirilən bərpaolunan enerji layihələrində önəmli rolu var. Təkcə o faktı qeyd etmək kifayətdir ki, "Masdar" Bakıda Xəzər regionunun və MDB məkanının ən böyük günəş-elektrik stansiyasını tikib.

230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası 2023-cü il oktyabrın 26-da işə salındı. Obyektin təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də Prezident İlham Əliyevin iştirakı ilə keçirilmişdi. Prezident stansiyanın açılışında da iştirak etdi.

Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal olunmaqla 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək. Bir sözlə, ölkəmizin öz "yaşıl gündəlik" prioritetlərinə doğru atdığı inamlı və uğurlu addımlardan biri də məhz "Qaradağ"ın tikintisinin başa çatdırılıb istifadəyə verilməsidir.

Növbəti ildə isə Bakıda Azərbaycanın energetika naziri Pərviz Şahbazov və BƏƏ-nin sənaye və yüksək texnologiyalar naziri, "Masdar" şirkətinin idarə heyətinin sədri Sultan Əhməd Əl-Cabirin rəhbərlik etdiyi nümayəndə heyətləri arasında keçirilən görüş tərəfdaşlığın uğurla davam etdiyinin daha bir təsdiqi oldu. Belə ki, görüşdə "Masdar" şirkəti ilə quruda və dənizdə "yaşıl enerji" layihələrinin icrası, hər iki ölkənin apstrim sektorunda dövlət şirkətlərinin iştirakı, həmçinin COP29 çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edildi. 1000 MVt gücündə günəş və külək enerjisi stansiyalarının inşası ölkələrimizin "yaşıl enerji" keçidinə birgə töhfəsi kimi dəyərləndirildi.

Görüşün yekununda Energetika Nazirliyi və "Azərenerji" ASC ilə "Masdar" şirkəti arasında 445 MVt gücündə Biləsuvar, 315 MVt gücündə Neftçala günəş-elektrik stansiyaları və 240 MVt gücündə Abşeron-Qaradağ Külək-Elektrik Stansiyası layihələri üzrə "İnvestisiya müqaviləsinə Əlavə", "Enerji alqı-satqı müqaviləsi", "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" və "Torpaq icarə müqaviləsi" imzalandı.

2024-cü il iyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" - "Caspian Power" sərgilərinin açılışı zamanı Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir tədbir çərçivəsində Neftçala, Biləsuvar Günəş-Elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlini qoydular. İndi bu "yaşıl enerji" layihələri özlərinin icrasının müxtəlif mərhələlərindədir.

Beləliklə, BƏƏ-nin aparıcı enerji şirkətlərindən olan "Masdar"la əməkdaşlıq və tərəfdaşlığımız getdikcə daha çox layihələri əhatə edir. Yeri gəlmişkən: 2006-cı ildə BƏƏ-də yaradılan "Masdar" həmin vaxtdan bəri zəngin təcrübə toplayıb, dünyada günəş və külək enerjisinin inkişafına on milyardlarla dollardan çox sərmayə yönəldərək onlarca layihənin iştirakçısı olub. Təsadüfi deyil ki, COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev "Masdar" şirkətinin adını çəkib.

Keçən il sentyabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi səfəri çərçivəsində hər iki ölkənin dövlət başçılarının iştirakı ilə sənədlərin mübadiləsi mərasimi oldu. Bunların sırasında "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında Azərbaycan Respublikasının "yaşıl enerji" zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə XRG ASC arasında "Cənub qaz dəhlizi"ndə investisiya haqqında Anlaşma Memorandumu" da vardı.

Həmin gün Şuşada Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşündə dövlətimizin başçısı demişdir: "Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir. Bu gün imzalanmış sənədlər arasında nəqliyyat sektorundakı əməkdaşlıq böyük perspektivə malikdir. Biz xüsusilə ölkənizə və ölkənizin şirkətlərinə minnətdarıq ki, Azərbaycanın bərpaolunan enerji növlərinin işlənilməsi istiqamətində bizə çox böyük dəstək vermişlər. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri burada bizim strateji tərəfdaşlarımızdır, əsas investordur və Azərbaycanda istifadəyə verilmiş birinci günəş-elektrik stansiyasının tikintisi və investisiyaları ölkənizin bizə dəstəyi nəticəsində mümkün olmuşdur. Bilirsiniz ki, planlarımız daha genişdir, bir neçə qiqavat bərpaolunan enerji növünün yaxın gələcəkdə Azərbaycanda istehsalı məhz Sizin şəxsi göstərişinizin və ölkənizin şirkətlərinin fəaliyyəti nəticəsində mümkün olacaqdır".

Dövlətimizin başçısının BƏƏ-yə budəfəki səfərində hər iki ölkənin prezidentlərinin iştirakı ilə "Cənub qaz dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənəd imzalandı. Bu hadisənin özü də göstərir ki, Azərbaycan-BƏƏ iqtisadi əməkdaşlığı genişlənir və möhkəmlənir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Leyla Əliyeva missiyasını davam etdirir

## Mərhəmət göstərmək, gənclərin dostu olmaq, təbiəti qorumaq bu missiyanın əsas məqsədidir



Müasir Azərbaycan cəmiyyətində ictimai və mədəni həyatın fəal iştirakçıları arasında Leyla Əliyevanın adı xüsusi çəkilir. O, bu gün yalnız adı ilə deyil, ardıcıl təşəbbüsləri və fəal vətəndaş mövqeyi ilə ictimai xadim kimi diqqət mərkəzindədir. Gənclərlə iş, ekoloji problemlərin qabardılması, milli-mənəvi dəyərlərin təbliği və Azərbaycanın beynəlxalq aləmdə tanıdılması istiqamətində apardığı fəaliyyət Heydər Əliyev Fondunun vitse-prezidenti, "Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq" İctimai Birliyinin (IDEA) təsisçisi və sədri Leyla Əliyevanın ictimai-siyasi mövqeyinin əsas cizgiləridir.

Onun təşəbbüsləri cəmiyyətdə sosial həssaslıq yaratmaqla yanaşı, müasir düşüncənin və fəal vətəndaş mövqeyinin formalaşmasına xidmət edir. Bu da əsas verir deyək ki, cəmiyyətin inkişafı yalnız iqtisadi göstəricilərlə deyil, həm də onu irəli aparan insanların mənəvi mövqeyi və ictimai məsuliyyəti ilə ölçülür. Məhz bu baxımdan Leyla xanımın fəaliyyəti müasir Azərbaycanın ictimai həyatında xüsusi bir xətt kimi seçilir. IDEA sədri cəmiyyətin ağrılarına biganə qalmayan, sosial ədalət, humanizm və milli dəyərlər naminə sözünü və əməlini ortaya qoyan ictimai xadimdir. İrəli sürdüyü təşəbbüslər insanları düşünməyə, duymağa və hərəkətə keçməyə sövq edir.

Məhz bu nöqtədə onun ictimai-siyasi fəaliyyəti sözlə əməli birləşdirən bütöv bir xətt kimi üzə çıxır. Gördüyü işlər təkcə ayrı-ayrı layihələr deyil, cəmiyyətin sosial, mədəni və ekoloji problemlərinə sistemli yanaşmanın ifadəsidir. Hər kəsin gördüyü və bildiyi bir həqiqət var ki, onun fəaliyyətində insan amili ön plandadır. Sosial həssas təbəqələrə diqqət, uşaq və gənclərin problemlərinə humanist və xeyirxah yanaşma, cəmiyyətin laqeyd qaldığı mövzuların gündəmə gətirilməsi Leyla xanımın ictimai mövqeyinin əsas dayaqlarındandır. Xeyriyyəçilik, sosial aksiyalar və maarifləndirici təşəbbüslər vasitəsilə o, cəmiyyətdə mərhəmət və həmrəylik ruhunun güclənməsinə töhfə verir.

Müasir dünyanın ən ağrılı problemlərindən biri olan ekoloji böhran IDEA rəhbərinin fəaliyyətində xüsusi yer tutur. Təbiətin qorunması, ətraf mühitə məsuliyyətli münasibətin formalaşdırılması və ekoloji maarifləndirmə onun təşəbbüslərinin əsas istiqamətlərindəndir. Bu fəaliyyət həm də gələcək nəsillərin sağlam və təhlükəsiz mühitdə yaşamaq hüququnu qorumağı hədəfləyən məsuliyyətli, humanist baxışın ifadəsidir. Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən ekoloji kampaniyalar, kütləvi ağacəkmə aksiyaları, biomüxtəlifliyin qorunmasına yönəlmiş layihələr və heyvanlara qarşı humanist münasibətin təşviqi cəmiyyətdə ekoloji məsuliyyət anlayışının formalaşmasında mühüm rol oynayıb. IDEA İctimai Birliyi çərçivəsində reallaşdırılan həmin işlər təbii ki, rəmzi xarakter daşımır, əksinə, insanları təbiətlə harmoniyada yaşamağa çağıran real və təsirli mesajlar verir. Leyla Əliyevanın ekoloji fəaliyyəti sübut edir ki, ətraf mühitin qorunması yalnız ekoloq və mütəxəssislərin deyil, hər bir vətəndaşın mənəvi borcudur.

Leyla xanımın fəaliyyəti ölkə hüdudları ilə məhdudlaşmır. O, Azərbaycanı beynəlxalq aləmdə humanitar dəyərlərə sadiq, dialoqa açıq və mədəni müxtəlifliyə hörmətlə yanaşan bir ölkə kimi təqdim edən simalardandır. Onun təşəbbüsləri vasitəsilə Azərbaycan həqiqətləri, milli-mədəni irs və humanizm ideyaları müxtəlif beynəlxalq platformalarda ardıcıl şəkildə təbliğ olunur. Xüsusilə mədəniyyətlərarası dialoq, humanitar əməkdaşlıq və sülh çağırışları Leyla Əliyevanın beynəlxalq fəaliyyətinin əsas ideya xəttini təşkil edir. Beynəlxalq layihələr, mədəni tədbirlər və sosial-humanitar təşəbbüslər vasitəsilə o, Azərbaycanın zəngin mədəniyyətini və tolerantlıq ənənələrini qlobal auditoriyaya çatdırır. Heydər Əliyev Fondunun vitse-prezidentinin ictimai-siyasi fəaliyyəti ölkənin beynəlxalq humanitar imicinin formalaşmasında mühüm rol oynayır, Azərbaycanı müasir dünyada humanizm, mədəni əməkdaşlıq və qarşılıqlı anlaşma məkanı kimi tanıdır. O, çoxsaylı xarici ölkələrə səfərlər edərək, müxtəlif layihələrin iştirakçısı olub, Azərbaycanın mədəni, ekoloji və humanitar təşəbbüslərini tanıdıb, ölkəmizin nüfuzunu beynəlxalq səviyyədə yüksəldib.

Beynəlxalq səviyyədə əldə etdiyi uğurlar təkcə son iki ayda - ötən ilin dekabrından bu ilin yanvar ayına qədər davam edən mühüm tədbirlərdə daha aydın görünür. Təkcə 2025-ci ilin dekabrında Leyla Əliyeva iki mühüm tədbirdə - Bakıda təşkil olunan İslam Dünyasında Süni İntellekt İndeksinin təqdimatı və Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə Regional Ofisinin İqlim və Sağlamlıq üzrə Pan-Avropa Komissiyasının iclasında çıxış edərək Azərbaycanın humanitar və elmi dəyərlərini beynəlxalq səviyyədə təmsil edib. Bu platformalar vasitəsilə elm, təhsil və etikaya dair qlobal dialoqun inkişafına əlavə dəstək verib. Həmçinin iqlim dəyişikliyi və insan sağlamlığı məsələlərinə diqqət çəkib ki, bu da onun beynəlxalq humanitar gündəliklərə fəal qatıldığını göstərir.

Bir neçə gün əvvəl Leyla xanımın BMT-nin Cenevrədəki baş ofisinin direktoru ilə görüşü, həmçinin Xəzər dənizinin ekoloji problemlərinə dair apardığı müzakirələr Azərbaycanın beynəlxalq ekoloji gündəliklərdə fəal iştirakını nümayiş etdirdi. Bu görüş və müzakirələr IDEA rəhbərinin beynəlxalq səhnədə sözünü deməkdən çəkinməyən, konkret və məqsədyönlü fəaliyyət göstərən ictimai nüfuz sahibi olduğunu təsdiq etdi. O, Xəzər dənizinin ekoloji problemlərini gündəmə gətirməklə kifayətlənmədi, eyni zamanda ölkəmizin ekoloji məsuliyyətə verdiyi önəmi beynəlxalq ictimaiyyətə çatdırdı. Elə həmin gün Leyla xanım BMT-nin Cenevrə ofisində yaradılmış "Azərbaycan otağı" ilə tanış olaraq, ölkəmizin mədəni irsini və humanitar təşəbbüslərini qlobal auditoriyaya ötürdü. Bu tədbirlər Azərbaycanın elmi, mədəni və humanitar təşəbbüslərinin vahid xətt üzrə inkişaf etdiyini göstərir və Leyla Əliyevanı cəmiyyət üçün nümunəvi lider kimi tanıdır.

Xüsusi qeyd edək ki, Leyla Əliyeva gəncləri cəmiyyətin sadəcə müşahidəçisi deyil, onun fəal qurucuları kimi görür. Azərbaycanlı gənclərin intellektual, yaradıcı və ictimai potensialının üzə çıxarılması, onların milli kimlik və qlobal düşüncə balansında formalaşması bu fəaliyyətin əsas məqsədlərindəndir. Onun çağırışları gənclərdə təşəbbüskarlıq, sosial məsuliyyət və vətənpərvərlik hissini gücləndirməyə xidmət edir. Leyla xanım müxtəlif proqramlar, layihələr vasitəsilə gəncləri bilik və bacarıqlarını inkişaf etdirməyə, ictimai fəallıq göstərməyə və sosial layihələrdə iştirak etməyə həvəsləndirir.

Leyla Əliyevanın fəaliyyəti göstərir ki, ictimai məsuliyyət, humanizm və vətənpərvərlik yalnız sözlə ifadə edilmir. Bu işlər konkret addımlar, davamlı layihələr və nümunəvi təşəbbüslərlə həyata keçirilir. Onun fəaliyyəti cəmiyyətin hər sahəsində - ekoloji təşəbbüslərdən beynəlxalq humanitar əməkdaşlığa, gənclərin inkişafından mədəniyyətin təbliğinə qədər Azərbaycanın yerli və beynəlxalq aləmdə nüfuzunun artmasına xidmət edir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Lütfi Zadə – 105

**ABŞ-nin Kaliforniya ştatının Berkli Universitetinin mərhum professoru, nəzəriyyələri ilə dünya elmini zənginləşdirən azərbaycanlı alim Lütfi Ə.Zadənin bu gün 105-ci doğum günüdür. O, 6 sentyabr 2017-ci ildə 96 yaşında Kaliforniya statının Berkli şəhərində dünyasını dəyişdi. Vəsiyyətinə əsasən nəşi Kaliforniyadan Bakıya gətirilərək Fəxri xiyabanda dəfn edildi.**



# Dünya elminin azərbaycanlı ulduzu

"Mən özümü Azərbaycana hər zaman yaxın hiss etmişəm, mən azərbaycanlıyam. Mənim mədəniyyətimə Bakıda keçirdiyim illərin böyük əhəmiyyəti olmuşdur. Azərbaycan hər zaman mənim qəlbimin ən isti yerindədir və qəlbimdə yaşamağa davam edir", - deyən Lütfi Ələskərzadə 1921-ci il fevral ayının 4-də Bakıda anadan olmuşdur. Atası Rəhim 1893-cü ildə İranın Ərdəbil şəhərində, anası Feyga 1894-cü ildə Rusiyanın Volınski quberniyasının Kremeneuk uyezdində doğulmuşlar. Rəhim Ələskərzadə Azərbaycan Universitetinin Şərqşünaslıq fakültəsində təhsil almışdı. Sonralar o, həm iş adamı, həm də eksport-import mətbuat nümayəndəsi kimi tanınmışdı. Rəhimlə Feyga 1919-cu ilin sentyabrında ailə qurmuşlar. 1921-ci il fevralın 4-də Lütfi dünyaya gəlmişdir. Lütfi ailənin yeganə övladı olduğu üçün çox sevilirdi. O, Bakıdakı 16 saylı məktəbdə 4 il təhsil almışdır.

1931-ci ildə sovetlər İran vətəndaşları olan azərbaycanlılarla bağlı yeni fərman imzalayır. Bu fərmana görə, onlar ya sovet Azərbaycanında qalıb buranın vətəndaşlığını qəbul etməli, ya da ölkəni tərk edib getməli idilər. Ələsgərzadələr ailəsi sovetlərin hakimiyyətə gəlməsindən sonra ətrafda baş verən hadisələrdən narazı olduqlarından İrana geri qayıtmaq qərarına gəlirlər. Lütfi 10 yaşında olanda ailəsi Tehrana köçür. Balaca Lütfi Bakıda rusdilli məktəbin üçüncü sinfini bitirmişdi. Valideynləri onu Tehranda fəaliyyət göstərən "Albroz" adlı Missioner kollecinə yazdırdılar. Kolleci bitirdikdən sonra Tehran Universitetinin Elektrik Mühəndisliyi fakültəsinə daxil olan Lütfi 1942-ci ildə universiteti bitirib bakalavr dərəcəsi alır və bir müddət atasinın yanında işləməli olur.

Lütfi Ə.Zadə təhsilini davam etdirmək üçün 1944-cü ildə Amerika Birləşmiş Ştatlarına getməyə qərar verir. O, Bostonda Massaçusets Texnologiya İnstitutunda oxuyur və 1946-cı ildə oranı bitirərək elektro-texnika üzrə magistr pilləsinə yüksəlir. 1949-cu ildə doktorluq dissertasiyasını Kolumbiya Universitetində müdafiə edən və 10 il bu ali məktəbdə işləyən Lütfi 1950-ci ildə professor köməkçisi, 1957-ci ildə isə professor vəzifələrində çalışır. Onun 1950-ci ildə ayrı-ayrı jurnallarda kibernetikanın atası Norbert Vinnerin proqnozlaşdırma nəzəriyyəsini inkişaf etdirən sanballı elmi əsərləri dərc olunur. 1952-ci ildə nəşr etdirdiyi elmi işi ilə avtomatik idarəetmə sistemində çevirmə nəzəriyyəsinin əsasını qoyan L.Zadənin 1954-ci ildə "Sistem nəzəriyyəsi" yaranır.

1957-ci ildə Kaliforniya Elmi mərkəzinin sədri olan Norbert Viner L.Zadəyə məktub yazaraq onu Kaliforniyadakı Berkli Universitetinə işləməyə dəvət edir. 1959-cu ildə L.Zadə ailəsi ilə birlikdə Berkli şəhərinə köçür. O, Berkli Universitetində elektrik mühəndisliyi üzrə şöbədə işləməyə başlayır. 1963-cü ildən həmin şöbəyə başçılıq edir və bundan sonra şöbənin adını dəyişdirərək "Elekrtik mühəndisliyi və kompüter elmləri" kafedrası adlandırır. Berkli Universitetinin Elekrtik mühəndisliyi və kompüter elmləri kafedrası onun bir alim kimi yetişib formalaşmasında və inkişafında böyük rol oynayır.

Lütfi Zadə Berkli Universitetində işlədiyi dövrlərdə diqqətini əsasən xətti sistemlər və avtomatlar problemi cəlb etməyə başladı. Burada o, professor Çarlz Desoer ilə birlikdə xətti sistemlərin təhlili üçün vəziyyətlər fəzası yanaşması probleminin araşdırılması ilə məşğul olur. Beləliklə, "xətti sistemlərin təhlili üçün vəziyyətlər fəzası" adlı müştərək elmi əsəri meydana gəlir. Nəticədə Lütfi Zadə dinamik idarəetmə sistemlərinin əsasını təşkil edən yeni yanaşma üsulu təklif edir. Bu üsulun mərkəzində Lütfi Zadənin vəziyyətlər fəzası nəzəriyyəsi dayanır. 1964-cü ildə dünya elmində yeni olan qeyri-səlis çoxluqlar nəzəriyyəsi yaranır.

Lütfi Zadə bu nəzəriyyəsini kəşf edəndən sonra onu Riçard Bellmana göstərmək qərarına gəlir. R.Belmanın Lütfi Zadənin qeyri səlis çoxluqlar nəzəriyyəsinə fikri belə olur: "Zənnimcə, sizin bu işiniz elmdə inqilaba bərabər bir işdir. Tədricən o, bütün elmlərə yeni baxış formalaşdırıb çox şeyi kökündən dəyişdirəcək. Hətta insan fenomeni barəsində də təsəvvür yaranacaq". Belmanın bu fikirlərinə baxmayaraq, Amerika mühiti Lütfi Zadənin bu elmi konsepsiyasını qəbul etmir. Amma zaman keçdikcə bu fikirlərin həqiqət olduğu təsdiqlənir və qeyri-səlis çoxluqlar nəzəriyyəsinin bəhrəsi olan beşinci və altıncı nəsil skeptik kompüterlərin meydana çıxması söz-söhbətlərə son qoyur. 1965-ci ildə ABŞ-də yaşayan azərbaycanlı alim Lütfi Zadə tərəfindən tamamilə yeni, çox qiymətli qeyri-səlis məntiq nəzəriyyəsi yaradılır. Bununla da dünya elm tarixində, kompüter sahəsində böyük kəşflər edilir.

Lütfi Zadənin elmə gətirdiyi "qeyri-səlis"lik anlayışına söykənən bütün nəzəri elmi istiqamətlər çox böyük praktiki əhəmiyyətə malikdir. Qeyri-səlis çoxluqlar nəzəriyyəsi yarandığı vaxtdan cəmi bir il keçəndən sonra ilk olaraq Yaponiya şirkətlərində, nəhəng sənaye mərkəzlərində öz tətbiqini tapdı. Onlarca elmi-tədqiqat institutları yarandı, bu elm sahəsi Yaponiya universitetlərinin tədqiqat obyektinə çevrildi. Yüksək iqtisadi səmərə gətirdiyinə görə 1989-cu ilin iyul ayında Lütfi Zadəyə Yaponiyanın elm sahəsində ən yüksək mükafatı - Honda mükafatı verildi. Lütfi A.Zade 1965-ci ildə qeyri-səlis nəzəriyyəsinin riyaziyyatını ətraflı izah edən qeyri-səlis çoxluqlar seminal əsərini nəşr etdi. 1973-cü ildə o, qeyri-səlis məntiq nəzəriyyəsini təklif etdi.

Lütfi Zadə müasir riyazi statistikanı, siqnalların optimal süzgəclərini, riyazi linqvistikanın və mürəkkəb sistemlərin nəzəriyyəsini inkişaf etdirməklə dünya elmini xeyli zənginləşdirmişdir. O, ilk dəfə olaraq qeyri-səlis çoxluqlar, qeyri-səlis məntiq və qərar qəbul etmə prosesinin çox səlis nəzəriyyəsini yaratmış, müasir riyaziyyatın və idarəetmənin əsasını qoyanlardan biri kimi tanınmışdır. Bütün bunlarla yanaşı, o, dəqiq humanitar və elm sahələrindəki elmi problemlərin tədqiqinin ümumi intellektual kompüter metodologiyasını yaratmışdır.

Professor Lütfi Zadənin elmi yaradıcılığı olduqca zəngin və çoxsahəlidir. Bu baxımdan, onun "Zamana görə dəyişən şəbəkələrin tezlik sahəsinin inkişafı" (1949), Ç.R.Raqassini ilə birlikdə yazdığı "Vinerin proqnozlaşdırma nəzəriyyəsinin inkişaf etdirilməsi" (1950), Ç.R.Raqassini ilə birlikdə yazdığı "Z-çevirmə üsulunun yaradılması" (1952), "Qeyri-xətti süzgəclər nəzəriyyəsinin yaradılması" (1953), "Sistemlərin identifikasiya problemlərinin formalaşdırılması" (1956), Ç.A.Desoir ilə birlikdə yazdığı "Xətti sistemlərin təhlili üçün vəziyyət fəzası" (1963), R.E.Belman ilə birlikdə yazdığı "Qeyri-səlislik şəraitində qərar qəbul etmək" (1970), "Linqvistik dəyişən və qeyri-səlis "əgər-onda" qaydalarının konsepsiyası" (1973), "Təbii dilin işlənilməsi üçün mümkünlük nəzəriyyəsi" (1978), "Təxmini mühakimə nəzəriyyəsi" (1979), "Sağlam düşüncəyə əsaslanan mühakim nəzəriyyəsi" (1985), "Dispozisiya məntiqi" (1988), "Qeyri-səlis qaydalar, qeyri-səlis qraf və qeyri-səlis ehtimal hesabı, soft computing nəzəriyyəsi" (1991), "Sözlə işləyən kompüterlər nəzəriyyəsi" (1996), "Qeyri-səlis informasiya qranulyasiya nəzəriyyəsi" (1997), "Təəssürat nəzəriyyəsi" (1998) dünya elminin inkişafında mühüm rol oynayır.

Dünya elmində Zadə və Qassini kimi tanınan statistik qeyri-müəyyənlik şəraitində işləyən idarəetmə sistemlərində optimal süzgəclər məsələsinin həlli kimi bu elmi təklif mürəkkəb proqnozlaşdırma sistemlərinin qurulması üçün əsas götürülür. Zadənin bu təklifi məşhur Viner məsələsini xeyli genişləndirmişdir. Lütfi Zadənin dünya idarəetmə elminə verdiyi ən böyük töhfələrdən biri də elmi ədəbiyyatda Z-çevirmə üsulu kimi tanınan (Zadə sözünün baş hərfi) diskret və rəqəmli idarəetmə, informasiya və kommunikasiya sistemlərinin əsasını qoyan elmi nəzəriyyədir. Alimin elmi xidmətlərindən biri də müasr idarəetmə elminin əsasını təşkil edən vəziyyətlər fəzası, dinamik sistemlərin idarəolunma və müşahidəolunma nəzəriyyələrinin təklif olunmasıdır.

"Qeyri-səlis hadisələrin ehtimalının meyarları" (1968) əsərində alim qeyri-səlis hadisə anlayışını tətbiq edərək onu "bu gün hava istidir", "X kəmiyyətin qiyməti təqribən 5-ə bərabərdir" və s. kimi misallarla izah etmişdir. Bu ifadələr "müvafiq sözlərin mənasının dəqiq olmasına görə qeyri-səlisdir". Bundan əlavə o, qeyri-səlis hadisələr ücün ədədi orta, variasiya və entropiya anlayışlarının riyazi ümumiləşdirilməsi verilmişdir. "Mürəkkəb sistemlərin və qərarlar qəbul edilməsi proseslərinin təhlilinə yeni yanaşmanın əsasları" (1973) işində isə Lütfi Zadə linqvist dəyişən anlayışını və kompozision nəticə çıxarılması qaydasını tətbiq edir.

"Qeyri-səlis çoxluqlar mümkünlük nəzəriyyəsinin əsası kimi" (1978) məqaləsində L.Zadə yazır: "Bizim əsas məqsədimiz informasiya ölçüsündə (Şennon və Vinnerin statistik informasiya nəzəriyyəsinə dair işlərində göstərilən mənada) daha çox informasiyanın mənasını təsvir etməkdən ibarət olduqda informasiyanın təhlilinə mümkünlük mövqeyindən yanaşma, bu məsələdə ehtimal mövqeyindən yanaşma ilə müqayisədə öz təbiətinə görə daha münasib və təbii olur". Müəllif bu məqalədə "imkanların paylanması", "imkanın ölçüləri", "həqiqiliyin keyfiyyət baxımından təsviri", "ehtimal edilən ixtisas" və s. anlayışlar daxil edir.

"Qeyri-səlis məntiq - sözlərlə hesablamalar" (1996), "Qeyri-səlis informasiya qranulyasiyası nəzəriyyəsi və onun insan mühakimələrində və qeyri-səlis məntiqdə mərkəzi yeri haqqında" (1997) və "Rəqəmli hesablamalardan sözlərlə hesablamalara - ölçülərlə manipulyasiyadan hissi obrazlarla manipulyasiyalara" (2001) silsilə əsərlərində Lütfi Zadə yazır: "Qeyri-səlis məntiqin əsas töhfəsi sözlərlə hesablamalar aparılması üçün metodologiya yaradılmasıdır". Hələlik bundan ötrü heç bir başqa metodologiya yoxdur. Adi mənada hesablamalar rəqəmlər və simvollarla manipulyasiyadan ibarətdir. İnsanlar təbii dilin vasitələrilə ifadə edilmiş və ya perspektiv obrazlar formasında çıxış edən mühakimələrdən sözlərlə ifadə edilmiş nəticələr çıxarmaq üçün hesablama və mühakimələrində isə əksinə, əsasən, sözlərdən istifadə edirlər.

1966-cı ildən etibarən isə dünyanın bir çox ölkələrində - Böyük Britaniyada, Almaniyada, Yaponiyada və başqa yerlərdə Lütfi Zadənin yaratdığı elmi məktəblər, laboratoriyalar fəaliyyət göstərir. Umtaçi, Mitsubisi, Toşiba, Soni, Orison, Kanon, Riqo, Sanyu, Anesan, Honda, Nek, Şarp və s. firmalar Lütfi Zadə nəzəriyyəsinin kommersiya tətbiqi ilə məşğuldur.

Professor Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi ABŞ-də kosmik proqramların həyata keçirilməsində mühüm rol oynayır. Yaponiyada qeyri-səlis məntiqə əsaslanan foto-video cihazlar buraxılır. Danimarkada qeyri-səlis məntiq əsasında işləyən sement sobaları istehsal edilir. Avropa çoxlu sistemlər və qurğular, xüsusi "ağıllı" ekspert sistemləri hazırlanır. Yaponiyada panasonik və Kvassar adı altında mallar istehsal edən Mitçusita kompaniyası qeyri-səlis məntiq nəzəriyyəsinin tətbiqindən sonra milyard dollardan çox mal istehsal edib sata bilmişdir. Hazırda bu nəzəriyyədən iqtisadiyyatda, psixologiyada, linqvistikada, siyasətdə, fəlsəfədə, sosiologiyada, dini məsələlərdə, münaqişə problemlərində də istifadə olunur. Sosioloji araşdırmalar göstərir ki, bu nəzəriyyənin tətbiq dairəsi gələcəkdə daha da genişlənəcəkdir. Professor Lütfi Zadə həm də sistem və optimal süzgəclər nəzəriyyəsinin müəllifidir. Alimin dünya elm aləmində hadisəyə çevrilən kəşflərindən biri də dinamik sistemlərdə çox meyarlı optimallaşdırma nəzəriyyəsidir.

Bu gün dünyanın ayrı-ayrı ölkələrində Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi ilə əlaqədar 25-ə yaxın elmi jurnal çıxır. Həmin jurnallarda alimin nəzəriyyəsi ilə bağlı hər il minlərlə məqalə çap olunur. Yaponiyada 2 mindən çox alim qeyri-səlis məntiqin istehsala tətbiqi ilə məşğuldur. Onlar qeyri-səlis məntiqi məişət tipli cihazların, elektrik avadanlıqların hazırlanması layihələrinə əlavə edirlər. Son illər ABŞ-də, Yaponiyada, Avropada qeyri-səlis məntiqin bəhrəsi olan 1300-dən çox patent tətbiq edilmişdir. Alimin elmi uğurları 1991-ci ildən Yaponiyanın ən yüksək mükafatına Honda mükafatına layiq görülmüşdür.

Professor Lütfi Zadə sistem və optimal süzgəclər nəzəriyyəsi sahəsində də fundamental nəticələrə nail olmuşdur. Dünya alimləri onun əldə etdiyi elmi nəticələri müasir riyaziyyat və kibernetika sahəsində yeni bir hadisə kimi qiymətləndirmişlər. Ümumiyyətlə, Lütfi Zadənin elmi ideyaları tükənib bitmir. Onun elmi nəzəriyyələri: müasir idarəetmə nəzəriyyəsinin təməlini qoymuş vəziyyətlər məkanı; diskret və rəqəmli idarəetmə sisteminin yaradılması üçün baza rolunu oynamış çevirmələr nəzəriyyəsi; insanın dünya haqqında, özü haqqında təsəvvüründə inqilabi dəyişikliklər əmələ gətirmiş qeyri-səlis məntiq və s. artıq gerçəkliyə çevrilmişdir. Bunlar müxtəlif sahələrdə yeni müasir tərzdə təqdim olunmuşlar və gələcəkdə bu gün həlledilməz görünən məsələləri həll edəcək. Yeri gəlmişkən, qeyd edək ki, Lütfi Zadə nəzəriyyəsindən bəhrələnən superkompüterlər qeyri-səlis məntiqdən istifadə edilərək elmin bütün sahələri üçün ekspert sistemləri hazırlanır və müasir kompüterlərə tətbiq olunur.

Professor sistem və optimal süzgəclər nəzəriyyəsi sahəsində də fundamental nəticələr qazanmışdır. Dünya alimləri onun əldə etdiyi elmi nəticələri müasir riyaziyyat və kibernetika sahəsində yeni bir hadisə kimi qiymətləndirmişlər. Onun nəzəriyyəsini tətbiq edən aparıcı müəssisələr və şirkətlər sırasına Hitaçi, Matsuhiti, Mitsubişi, Toşiba, Soni, Fuji, Orison, Kanon, Rigo, Sanyu, Ninolta, Nissan, Honda, Hek, NTT, Şarp daxildir.

Lütfi Zadə 24 ölkənin fəxri doktoru adına layiq görülüb. O, həmçinin Koreya, Bolqarıstan, Polşa, Finlandiya, Azərbaycan və ABŞ-nin milli Mühəndislik Akademiyasının həqiqi üzvü olub.

Lütfi Zadənin doğma Bakıya ilk səfəri 1965-ci ildə Qara dənizdə Odessa-Batumi istiqamətində üzən "Admiral Naximov" teploxodunda avtomatik idarəetmə problemlerinə həsr olunmuş beynəlxalq elmi konfransdan sonra olmuşdur. 43 ildən sonra Lütfi Zadə "BakuTel" beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransında iştirak etmək üçün 2008-ci ilin noyabrın 8-10-da Bakıya ikinci dəfə səfər etmişdir. Səfər zamanı Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edən dünyaşöhrətli alim Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilmişdir. Görüşdə Lütfi Zadə Bakıya səfərindən və dövlət başçısı ilə görüşündən məmnunluğunu ifadə etmişdir. İlk dəfə 1965-ci ildə Bakıda birgünlük səfərdə olduğunu xatırlayan alim budəfəki səfərin onda böyük təəssürat yaratdığını söyləmiş, ötən dövr ərzində ölkəmizin xeyli dəyişdiyini, Bakıda böyük abadlıq və quruculuq işləri ilə yanaşı, elmin və mədəniyyətin inkişafının da yüksək səviyyədə olduğunu vurğulamışdır. Lütfi Zadə əldə olunan bütün bu nailiyyətləri Azərbaycan Prezidenti İlham Əliyevin elmə və mədəniyyətə göstərdiyi qayğı və diqqətin təzahürü kimi dəyərləndirmişdir.

Dövlətimizin başçısı bildirmişdir ki, Azərbaycan hazırkı imkanlarından istifadə etməklə elmin, təhsilin və mədəniyyətin müxtəlif sahələrini inkişaf etdirməyi, ən müasir texnologiyaların tətbiqini qarşıya məqsəd qoymuşdur: "Prioritetlərdən biri də informasiya-kommunikasiya texnologiyalarıdır. Mən buna çox böyük əhəmiyyət verirəm. Bu, ölkənin ümumi inkişaf dinamikasını göstərən bir sahədir. Bu sahədə çoxlu yeniliklər, çoxlu ixtiralar var. Azərbaycan da bu sahədə qabaqcıl yerlərdədir. Biz bu sahəyə böyük investisiyalar qoymaq fikrindəyik. Xarici şirkətləri, dünyanın aparıcı informasiya-kommunikasiya şirkətlərini Azərbaycana dəvət etmişik və onların da Azərbaycanla işləməyə böyük maraqları var. Biz indi texnoparkların yaradılması üzərində işləyirik. Bir də demək istəyirəm ki, dövlət öz tərəfindən bu sahəyə investisiya qoymağa hazırdır. Biz, tanınmış şirkətlərlə, sadəcə tərəfdaşlıq etmək istəyirik. Bu sahənin çox böyük gələcəyi var və bəlkə də, neft sektorundan sonra ölkəmizi inkişaf etdirən ikinci sahə ola bilər".

"BakuTel-2008" beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində və konfransında iştirak edən alim sərgi ilə tanış olmuş, bu beynəlxalq tədbiri yüksək qiymətləndirmişdir. Daha sonra alim Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində təşkil olunan tədbirdə məruzə etmiş, ona elm qarşısında göstərdiyi xidmətlərə görə AMEA-nın xarici vətəndaşlar üçün fəxri diplomu təqdim edilmişdir. Səfər çərçivəsində o, həmcinin təhsil aldığı 16 saylı məktəbdə də olmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 4 fevral 2011-ci il sərəncamı ilə elm və texnologiyaların inkişafına verdiyi töhfələr və mədəniyyətlərarası dialoqun qurulmasında göstərdiyi görkəmli xidmətlərinə görə Lütfi Zadə (Lütfi Rəhim oğlu Ələskərzadə) "Dostluq" ordeni ilə təltif edilmişdir.

Lütfi Zadə Prezident İlham Əliyevə ünvanladığı minnətdarlıq məktubunda yazırdı: "Hörmətli Prezident İlham Əliyev, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə yüksək dövlət mükafatı "Dostluq ordeni" ilə mükafatlandırıldığıma görə Sizə dərin minnətdarlığımı bildirmək üçün müvafiq söz tapmaq mənim üçün çətindir. Mənim qeyri-səlis məntiq nəzəriyyəmin tanınmasının və onun konsepsiyasının tətbiqi intellektual sistemlərin istifadə edilməsinin sübutudur.

Bu mükafat mənin üçün son dərəcə üstündür və Siz bildiyiniz kimi, mən həyatım boyunca elmə marağımın təməli Bakıda məktəb təhsili və Azərbaycanın elmə və mədəniyyətə dərin hörmətidir. Siz bu böyük ənənənin təcəssümüsüz.

Mən Azərbaycanda olan sosial-iqtisadi inkişafdan dərindən məmnunam. Sizin apardığınız Qara Qızılın İnsan Qızılına çevrilməsi Doktrinası Sizin rəhbərliyinizin ilkin vaxtlarından çox dəyərlidir və minlərlə vətəndaşlara və Azərbaycandan kənarda yaşayan dostlarına da yaxşı mənada təsir edir və Sizin Azərbaycanın gələcəyi ilə uzaqgörən planlarınız məni xoşbəxt və əmin edir ki, gənc və müstəqil Azərbaycan cavan və məşhur siyasi lider tərəfindən güclü əllərdədir. Azərbaycanın dostları bu faktı da bilirlər ki, Azərbaycanın görkəmli, uzaqgörən və güclü Prezidenti var və bu da ölkədə yaşamaq üçün güclü və sülh şəraitini yaradır; son bir neçə illər ərzində Sizin əldə etdiyiniz sosial stabillik və iqtisadi inkişaf Azərbaycanda yaşamaq, oxumaq və işləmək üçün ən gözəl yer olması üçün güclü platforma yaradıb.

Elmdə, texnologiyada və təhsildə böyük addımlarınız son bir neçə illər ərzində Azərbaycanı regionda lider ölkəsinə çevirmişdir. Sizin müdrik baxışlarınız və rəhbərliyiniz Azərbaycanı geniş inkişafa gətirmişdir. Mən inanıram ki Sizin planlarınız və islahatlarınız Azərbaycanı informasiya və kommunikasiya texnologiya mərkəzinə çevirəcək və ölkənin mədəni və ənənəvi dəyərləri dünya bilik xəzinə irsi kimi tanınacaq.

Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi mənim yenidən Azərbaycanla bağlı təsəvvürümə qayıtmağımda dəstək oldu və bizim bir neçə vacib ideyalarımız və güclü planlarımız gələcəkdə reallaşacaq. Mən fikirləşirəm ki, bu planlar Sizin Azərbaycanın regionda, habelə Qərb ölkələri tərəfindən güclü tanınması üçün planlarınıza digər bir dəstək yaradacaq. Sizin hökumətin səyləri nəticəsində bu gün Azərbaycan İKT sahəsində böyük uğur əldə edilib və mən əminəm ki, bu tendensiya gələcəkdə Sizin müdrik siyasətiniz altında davam etdiriləcək.

Mən bir daha Sizin mənə və mənim ailəmə bəxş etdiyiniz bu əlamətdar hadisəyə görə minnətdarlığımı bildirirəm və Sizi şəxsən yenidən görməyimi səbirsizliklə gözləyirəm. Siz, Bakı və Bakıda olan dostlarım ürəyimin ən isti yerindəsiniz.

Dərin hörmət və ehtiramla,
Lütfi Ə.Zadə".

***Şahnaz ŞAHBAZOVA,***
***texnika elmləri doktoru,***
***professsor***

I Türkoloji Qurultay - 100

# Terminologiya: ideoloji mübarizənin əsas cəbhələrindən biri



B.Çobanzadə qeyd edir ki, Avropada artıq vahid elmi sistem, ənənə (latın dili əsasında), terminoloji baza və dillərarası sıx əlaqə formalaşdığı üçün elm adamları bir-biri ilə çətinlik çəkmədən ünsiyyət qura bilirlər. O, terminologiyanı yalnız dil məsələsi deyil, sivilizasiya faktoru kimi görür - elm vahiddirsə, terminologiya da vahid olmalıdır.

Bunu mümkün edən 3 tarixi faktor göstərir: latın sxolastik ənənəsi, renessans dövründə Avropa dillərinin ortaq termin bazası və xalqlarının ortaq iqtisadi-mədəni inkişaf modeli əlaqəsi. Qeyd edir ki, türk dillərinin də terminologiyası üçün 3 real baza mövcuddur: 1) ümumtürk (bütün türk dillərində mövcud olan) baza. Burada sırf türkçülük ideyasına qapılmaq olmaz, çünki dilimiz artıq ərəb və fars təsiri ilə dəyişib, "təmiz türk dili" anlayışı düzgün deyil *(Zifelddən fərqli olaraq, daha elmi və tarixi yanaşmadır - N.M.).* 2) ərəb və fars bazası - ərəb və fars mənşəli terminlər yalnız dini sahə ilə məhdudlaşmr, onlar türk ədəbi dillərinin tarixi, elmi və mədəni bazasını formalaşdırıb. Ərəb və fars terminləri artıq dilin tarixi-mədəni qatına çevrilib, onlar aradan qaldırılsa, klassik ədəbiyyatla bağlarımız qırılar. Bunu dil tarixi reallıq kimi qəbul edir. 3) Qərb (Avropa) - ən strateji baza: hətta Çin yaxınlıqda olsa belə, xalqlar elmdə Şərqə yox, Qərbə yönəlir. Bütün türk xalqları Avropa elmi və mədəniyyətinə inteqrasiya prosesindədir. Nəticə çıxır ki, gələcək terminologiya Avropa bazasına söykənməlidir, ancaq bunu kor-koranə yox, vahid prinsip əsasında etmək lazımdır. Məsələn, bir termin yunan mənşəlidirsə, bütün türk xalqları onu eyni formaya yaxın şəkildə qəbul etməlidir.

Terminlərin iki funksiyası vardır: elmi və pedaqoji. Hazırda prioritet pedaqoji terminologiyadır, çünki cəmiyyət təzəcə elmə qədəm qoyur. Bu o deməkdir ki, termin anlaşılan, mücərrəd deyil, tədris üçün yararlı olmalı, elmi dəqiqlikdən yayınmamalıdır. Bu, elmi düşüncənin şəffaflığı üçün zəruri şərtdir. Türk terminologiyası qurularkən paralel 3 baza nəzərə alınmalıdır: ümumtürk söz fondu, ərəb və fars - müsəlman-islam mədəniyyət qatından gələn tarixi termin qatı, müasir Avropa elmi terminləri. Bunlar ziddiyyət deyil, sintez olunmalıdır - çox müasir və balanslı strategiyadır. O, türk dilləri üçün terminologiya siyasətinin ən inkişaf etmiş nəzəri modelini təqdim edir: milli, tarixi-mədəni, beynəlxalq elmi komponent. Məqsəd türk xalqları elm dilində həm bir-biri ilə, həm də Qərb dünyası ilə asanlıqla ünsiyyət qura bilməsidir.



**Hənəfi Zeynallının (1896-1937)** fikrincə, elm nailiyyətləri ilə "sadə xalq" arasında bütün maneələr aradan qaldırılmalıdır. Orijinal və tərcümə elmi ədəbiyyatının yaradılması tələbi hər bir respublikanı öz ana dilində vahid və dayanıqlı terminologiyanın yaradılmasına sövq edir. Türk-tatar dillərinin köklərini müqayisəli öyrənmək göstərir ki, bu dillər quruluş etibarilə eyni olsalar da, bütün aspektlərdə vahid terminologiyanın yaradılması mümkün deyil. Bunun səbəbi müxtəlif həyat şərtləri və fərqli dialektlərin mövcudluğudur. Buna baxmayaraq, mümkün görünən budur ki, 3-4 əsas türk dilindən ibarət terminologiya qrupu yaradılsın və digərləri bu qollardan birinə uyğunlaşdırılsın.

*(Əvvəli qəzetin 3 fevral tarixli nömrəsində)*

Müxtəlif türk xalqının digər xalqlarla yaxın əlaqəsi dialektlərdə dərin iz qoymuşdur. Bu səbəbdən bəzi mütəxəssislər dilin qanunlarına zidd olaraq, hələ də uyğunsuz yönəltmələrə (məsələn, cənub türk dillərində "ərəb-fars", şimal türk dillərində "rus təsiri") sadiq qalırlar. Bu süni üsullar bizi dünya texnologiyası və iqtisadiyyatından ayıra, həmçinin anlayışlar dünyasında qarışıqlıq yarada bilər. Buna görə türk ləhcələrinin məqsədəuyğun təsnifatını daha dəqiq müəyyən etmək və dayanıqlı terminologiyanın yaradılması üçün vahid prinsip sistemini formalaşdırmaq vacibdir. Təklif olunan rəhbər prinsiplər:

1. Türk xalqlarının sosial, siyasi və iqtisadi vəziyyəti təxminən eyni olduğundan terminlərin yaradılması və onların mənbələri də oxşar olmalıdır. Birinci yerdə xalqın özünün yaradıcılığı durmalıdır.
2. Müvəqqəti olaraq elmi terminlərin bəzilərini, yerli sözlərlə əvəz etmək mümkün olmadıqda, ərəb və fars sözlərini saxlamalıyıq: bu terminlərin yalnız kütlə tərəfindən anlaşılan hissəsi qalmalıdır. Qlobal iqtisadi və texniki mədəniyyətin bütün Şərqdə, xüsusən də türk xalqları arasında qəbul olunması qaçılmazdır. Buna görə də, bu sahələrdə yeni yerli terminlər yaratmaq əvəzinə, hazır terminlərdən istifadə etmək məqsədəuyğundur. Məsələn: *mühərrik, dinamo, sosializm, trest, sindikat* sözlərini milli dillə əvəz etmək düzgün olmayacaq.
3. Hər hansı bir sahəyə aid termin mənbə dildən götürülməlidir. Məsələn: iqtisadi terminlər - İngiltərə, cinayət hüququ terminləri - Fransa, fəlsəfi terminlər - Almaniya və s.

Avropa terminlərini iki kateqoriyaya bölmək təklif olunur: bütün Avropa xalqları tərəfindən dəyişdirilmədən qəbul edilən terminlər və ümumi əsasdan götürülən, lakin hər dilə uyğunlaşdırılan və qismən tərcümə edilən terminlər.

Heç bir halda ərəb və fars terminlərinə geri dönüş olmamalıdır, terminlər mümkün qədər türk dillərinin tələblərinə uyğunlaşdırılmalıdır.

H.Zeynallı konkret bir fikir irəli sürür: elmi nailiyyətlər ilə sadə xalq arasında maneələr olmamalıdır. Bu, o deməkdir ki, elmi dil xalqdan uzaq olmamalıdır, terminlər sıravi insan üçün yad və anlaşılmaz qalmamalıdır, tərcümə və orijinal elmi ədəbiyyat ana dildə olmalıdır - dil milliləşməli, amma elm də əlçatan olmalıdır. "Bütün türkdilli xalqlar üçün tam vahid terminoloji sistem yaratmaq mümkün deyil" - çox səmimi və realist etirafdır. Səbəblər müxtəlif tarixi mühit, fərqli sosial-iqtisadi şərtlər, dillərarası fərqlər, başqa xalqlarla təmas nəticəsində dil qatlarının dəyişməsi və s.-dir. Onun fikrincə, struktur eyni olsa da, tam vahid termin sistemi yaratmaq real deyil *(bu mövqe B.Çobanzadəyə qismən alternativdir - N.M.).* Onun "türk dil qrupları əsasında termin sistemi" ideyası çox maraqlı və praktik modeldir, yəni bütün türklər üçün bir terminologiya deyil, dil qrupları üzrə vahid termin standartları yaradılsın. Məsələn, oğuz qrupu, qıpçaq qrupu üçün ayrıca sistem və s. və digər dialektlər bu qruplardan birinə uyğunlaşdırılsın, bu, həm birliyi qoruyur, həm də real fərqləri nəzərə alır. Onun qənaəti belədir ki, "uyğunsuz istiqamət seçimi təhlükəlidir". Bəzi xalqlar dilin təbii qanunlarına zidd olaraq terminləri yanlış istiqamətlərdən götürürlər. Məsələn, cənub türkləri ərəb və fars, şimal türkləri rus dillərinin təsiri ilə; bu, nəticədə elmdə xaos yaradır, türk dillərinin bir-birini başa düşməsini çətinləşdirir, bizi dünya elmindən uzaqlaşdırır *(siyasi-mədəni xəbərdarlıqdır - N.M.).*

H.Zeynallının terminyaratma prinsipləri çox konkret və praktikdir. O, bir neçə prinsip sistemi təqdim edir: 1) əsas mənbə xalq dili və yerli yaradıcılıqdır, çünki bütün türk xalqlarının sosial-mədəni vəziyyəti oxşardır, buna görə də terminlərin yaranması oxşar qaydalara tabe olmalıdır; 2) ərəb və fars terminləri şərti və məhdud şəkildə saxlanıla bilər, yalnız *xalq tərəfindən artıq mənimsənilmişlər* qalmalıdır, yəni dini və tarixi olaraq oturuşmuş terminlər qala bilər, amma süni şəkildə geriyə dönüş edilməməlidir, yeni anlayışlar üçün təkrar ərəb və fars bazasına qayıtmaq olmaz; 3) müasir texniki-iqtisadi terminlər Avropadan götürülməlidir, bunları yerli sözlərlə əvəz etmək düzgün deyil. Səbəbi bu anlayışların Qərbdə formalaşması, beynəlxalq elmi-iqtisadi bazaya aid olması, tərcümə zamanı mənaca itki və anlaşılmazlıq yaratmasıdır. O, beynəlxalq terminlərin qorunmasının tərəfdarıdır.

Alimin çox maraqlı və sistemli yanaşmasından biri "Terminlər mənşə ölkələr üzrə götürülməlidir" prinsipidir. Məsələn, iqtisadi terminlər - İngiltərə, hüquq terminləri - Fransa, fəlsəfə terminləri - Almaniya və s. Bu, o deməkdir ki, hər elm sahəsinin tarixi mənbə və aparıcı mədəni mühiti var, terminologiya həmin mənbədən götürülərsə, daha sistemli olar. Son dərəcə yüksəksəviyyəli qərbşünas düşüncəsidir.

Avropa terminlərinin kateqoriyaları ilə bağlı H.Zeynallının təsnifatı belədir: dəyişdirilmədən qəbul edilən terminlər (bunlar beynəlxalq sözlərdir). Qismən uyğunlaşdırılan terminlər: eyni kökdən gəlir, amma dilin fonetikasına uyğunlaşdırılır, müəyyən hallarda tərcümə elementləri ola bilər. Onun mövqeyi qətiyyətli Avropa yönümüdür. Yəni mənbə Avropa, forma türk - radikal təmizləmə deyil, rasional inteqrasiya.

Odabaş göstərir ki, hər bir sosial çevriliş, yeni hərəkat və ədəbi məktəbin yaranması, ümumiyyətlə, kəşf və ixtira dilin lüğət tərkibində çoxlu sayda yeni sözlərin yaranmasını tələb edir. Yeni anlayışlar, həmin dilin müəyyən sosial-tarixi münasibətlərdə olduğu dillərdən götürülmüş sözlərlə ifadə olunur. Bütün mövcud və bizə məlum olan mədəni dillərə müraciət etsək, bu sahədə iki istiqamətin olduğunu görərik: 1. Avropa dillərində xüsusi anlayışlar üçün yeni sözlər əsasən, latın və daha az dərəcədə yunan dilindən götürülür. Rus, fransız, ingilis və digər dillərdə elmi terminlərin 50-60 faizi məhz bu dillərdən alınmışdır; 2. Müsəlman Şərqinin dillərində, xüsusilə türk dillərində yeni sözlər, demək olar ki, tamamilə ərəb dilindən və nisbətən az hallarda fars dilindən götürülmüşdür.

Yeni kəşf və ixtiralar yarandığı ölkədə müəyyən ad alır və sonradan həmin ad bütün digər dillərə keçərək işlənir. Yeni sözlər ixtiraçıların, alimlərin və digər şəxslərin adlarından da yarana bilər. Məsələn: *darvinizm, qalvanizasiya, ampermetr.* Dil canlı bir orqanizm kimi ona təsir edən bütün amillərə - istər arxaizm, istər neologizm, istərsə də barbarizmlər olsun, biganə qala bilməz, onlarla davamlı mübarizə aparır və daimi fəaliyyət göstərən qanunlarına tabe etdirməyə çalışır. Bu hadisə istisnasız olaraq bütün dillərdə "purizm" hərəkatını yaradır. Purizm arxaizmlərin, neologizmlərin və barbarizmlərin dilə həddindən artıq təsirinin tənzimlənməsi işində müəyyən müsbət rol oynasa da, dilin yeni təsirlərdən tamamilə qorunmasını heç vaxt təmin edə bilmir. Ona görə də onlara qarşı ehtiyatlı və şüurlu münasibət tələb edilir. Türk dillərinin müxtəlif şivələrində purizm aşağıdakı formalarda özünü göstərir:

a) Osmanlı və ona yaxın olan Azərbaycan şivəsində purizm, ilk növbədə, bu dillərin ərəb və fars dillərinin təsirindən təmizlənməsinə yönəlir. Bu isə tərkiblərin, isimlə sifətlər arasındakı uyğunluq qanunlarının və ərəb-fars mənşəli müxtəlif şəkilçilərin dilə təsirindən imtina formasında təzahür edir; bu şivələri ərəb və fars mənşəli sözlərin çoxluğundan təmizləmək meyili ilə bağlıdır. Aparılan hərəkat tam uğur qazanmasa da, onlara kifayət qədər təsir göstərmişdir.

b) Krım tatarları, türkmənlər, qazaxlar, qaraçaylılar, özbəklər, Voqaboyu tatarlar və s. ləhcələrində isə purizm hərəkatı, ərəb və fars dillərinin qanunlarının təsiri ilə mübarizə aparmalı olmamışdır. Bu ləhcələrdə hazırda elmi terminologiya yaratmaq meyli o qədər güclüdür ki, çox vaxt ifratçılığa gətirib çıxarır.

Elmi terminologiyanın yaradılmasında aşağıdakı prinsiplər əsas götürülməlidir:

a) Sosial-tarixi səbəblər nəticəsində türk dillərinə ərəb və fars dillərindən keçmiş elmi terminlər saxlanılmalı, lakin əvvəlcə onlar yenidən nəzərdən keçirilməli, vahid yazılış forması müəyyənləşdirilməli və bütün türk xalqları üçün eyni mənada işlədilməlidir. Ayrı-ayrı türk tayfalarının bəzi ərəb və fars terminlərini yerli sözlərlə əvəz etmək meylini məqsədəuyğun hesab etmək olmaz.

b) Yeni terminologiya tərtib edilərkən üstünlük, əsasən, türk dillərinin öz materialına verilməli və türk dilinin qanunlarına əsaslanmalıdır.

c) Yeni terminologiya yaradılarkən ərəbcədən alınmış sözlərdə bəzi ərəb şəkilçilərindən də istifadə etmək olar. Məsələn: "-i", "-iyyat" və s. Bu şəkilçilər türk dillərində çoxdan işlənildiyindən, sanki onlarla üzvi surətdə qaynayıb-qarışmışdır.

Müasir texniki biliklər sahəsində Qərbi Avropa terminlərinin türk dillərinə güclü axını müşahidə olunur. Abstrakt-fəlsəfi və ideoloji sahədə türk dilləri ərəb dilindən alınmış sözlər baxımından kifayət qədər zəngindir və bunlar əksər hallarda türk dillərinin ehtiyaclarını ödəyə bilir. Yerli terminologiya savadsızlıq səviyyəsi yüksək olan kütlələr arasında elementar və mədəni anlayışların yayılması üçün müəyyən qədər istifadə oluna bilər. Türk terminologiyası məsələləri bütün detallarına qədər yalnız bu məqsədlə yaradılacaq xüsusi elmi institutda həll edilə bilər.

*(Ardı var)*

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına***
***Dilçilik İnstitutunun direktoru,***
***filologiya elmləri doktoru, professor***

# Bakıdan türk dünyasının gələcəyinə: "ortaq əlifba, ortaq dil və böyük türk birliyinin strateji manifesti"

"Bu il Bakı Türkoloji Qurultayının 100 illiyi qeyd olunur. 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay təkcə elmi hadisə deyil, türk dünyasının tarixi taleyinə istiqamət verən sivilizasiya dönüş nöqtəsi idi. Türk dövlətləri arasında ortaq əlifba məsələsinin gündəmin mərkəzində olduğu bir vaxtda Bakı Türkoloji Qurultayının 100 illiyinin keçirilməsi tarixi məsuliyyətlə strateji fürsətin kəsişdiyi nadir məqamlardandır. Çünki əlifba sadəcə yazı sistemi deyil, düşüncə tərzinin, mədəni yaddaşın və sivilizasiya kimliyinin daşıyıcısıdır. Ortaq əlifba ortaq dilin formalaşmasına, ortaq dil ortaq mədəni şüurun yaranmasına, ortaq mədəni şüur isə ortaq gələcəyin inşasına aparan əsas strateji xətdir. Bu baxımdan, Bakı Türkoloji Qurultayı ortaq əlifba ideyasının tarixi və mənəvi legitimliyini möhkəmləndirən əsas platformaya çevrilir".



Bunu AZƏRTAC-a açıqlamasında Türkiyənin Yunus Əmrə İnstitutunun Bakı nümayəndəliyinin sabiq rəhbəri Səlçuk Karakılıç deyib.

O bildirib ki, ortaq əlifba, ortaq dil, ortaq tarix və ortaq sivilizasiya anlayışları 2026-cı ildə keçiriləcək Bakı Türkoloji Qurultayında yeni mərhələyə qədəm qoyacaq. Bu qurultay mədəni və dil məsələlərinin nəzəri müzakirəsindən institusional qərarlara keçidin intellektual bazasını formalaşdıracaq.

"2026-cı il Bakı Türkoloji Qurultayı türk xalqları üçün ortaq gələcəyin inşasına xidmət edən tarixi platforma olacaq. Qurultaydan sonra ortaq təhsil proqramlarının, vahid elmi mərkəzlərin, akademik mübadilələrin və gənc nəsillər arasında mədəni inteqrasiyanın daha da güclənməsi üçün real zəmin yaranacaq. Zaman keçdikcə bu proses, Türk dünyasında siyasi, iqtisadi və strateji davranış birliyini də dərinləşdirəcək. Çünki ortaq düşüncə formalaşmadan ortaq siyasi iradə mümkün deyil", - deyə Səlçuk Karakılıç deyib.

Onun sözlərinə görə, gələcəkdə türk dünyasının birliyinin dayanıqlı şəkildə möhkəmlənməsi üçün humanitar inteqrasiyanın dərinləşdirilməsi həlledici əhəmiyyət daşıyır. Dil, təhsil, elm və mədəniyyət sahələrində ortaq siyasət formalaşdırılmadan siyasi və iqtisadi inteqrasiya uzunömürlü ola bilməz. Bu baxımdan, Bakı Türkoloji Qurultayı ortaq dərsliklərin hazırlanması, vahid terminoloji bazanın yaradılması, türk dillərinin rəqəmsal məkanda koordinasiyalı inkişafı üçün strateji qərarların qəbul olunduğu mərkəzə çevrilməlidir.

"Nəticə etibarilə, Bakı Türkoloji Qurultayı türk dünyasının keçmişdən gələcəyə uzanan yolunda strateji mərhələdir. Bu qurultaydan doğan ideyalar və qərarlar həyata keçdikcə, türk dünyası parçalanmış coğrafiya olmaqdan çıxaraq ortaq iradə, ortaq maraq və ortaq gələcək ətrafında birləşmiş güclü sivilizasiya məkanına çevriləcək. Azərbaycan isə bu tarixi prosesdə birləşdirən mərkəz, strateji ağıl və ideoloji lider kimi mövqeyini daha da möhkəmləndirəcək", - deyə o əlavə edib.

# Bakıda Azərbaycan-Türkiyə birliyinə həsr olunan görüş keçirilib




Fevralın 3-də Azərbaycan-Türkiyə qardaşlığına, birliyinə və ortaq dəyərlərinə həsr olunmuş görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, "Beynəlxalq Demokratlar Birliyi (UID) Azərbaycan" tərəfindən təşkil edilən tədbirə Azərbaycan və Türkiyədən rəsmi şəxslər, şəhid ailələrinin üzvləri, ictimai təşkilat rəhbərləri və müxtəlif sahələrdən olan qonaqlar qatılıblar.

Tədbirdə çıxış edən "UID Azərbaycan" nümayəndəliyinin rəhbəri Cengiz Aygör qurumun fəaliyyətindən danışaraq, təşkilatın beynəlxalq miqyasda fəal rol oynadığını qeyd edib. O vurğulayıb ki, qurum Azərbaycan-Türkiyə münasibətlərinin möhkəmləndirilməsi, qardaşlıq əlaqələrinin dərinləşdirilməsi və ortaq dəyərlərin təşviqi üçün davamlı layihələr həyata keçirir.

15 İyul Dərnəyinin sədri İsmayıl Hakkı Turunç çıxışında insan haqlarının əhəmiyyətinə toxunaraq, 15 iyul hadisələrinin xalqın vətənə və dövlətə bağlılığının bariz nümunəsi olduğunu qeyd edib.

Şimali Kipr Türk Cümhuriyyətinin Bakıdakı nümayəndəliyinin rəhbəri Ufuk Turganer çıxışında UID-in fəaliyyətlərini yüksək qiymətləndirərək, qurumun türk dünyasında birlik və həmrəyliyin möhkəmləndirilməsinə verdiyi töhfələrdən danışıb.

O qeyd edib ki, Şimali Kipr və Azərbaycan arasındakı dostluq və əməkdaşlıq münasibətləri ölkələr üçün strateji əhəmiyyət kəsb edir. Bu əlaqələrin davamlı inkişafı iki qardaş ölkə arasında qarşılıqlı dəstəyi və birliyi daha da möhkəmləndirir.

Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün isə ölkələrimiz arasında mövcud olan qardaşlıq münasibətlərinin prezidentlərin səyləri nəticəsində daha da gücləndiyini bildirib və iki ölkənin hər zaman bir-birinin yanında olduğunu vurğulayıb.

Tədbir tanışlıq, fikir mübadiləsi və gələcək əməkdaşlıqlar üçün "networking" mərhələsi ilə başa çatıb.

# Ana dili xalqın əmanətidir

**"Xalqın dili, xalqın ruhu, xalqın ruhu, xalqın dili. Bundan da güclü eyniyyət tanımıram". Böyük dilşünas alim Vilhelm fon Humboldtun böyük həqiqəti əks etdirən fikri neçə illik təcrübənin və tədqiqatların nəticəsində yaranmışdır. Dilin xalqın ruhunu ifadə etdiyini, onun tarixini, dəyərlərini, mənəvi keçmişini özündə qoruduğunu yaxşı bilən sovet imperiyası təbeliyində olan türk xalqlarının bir çox dəyərlərini əritmək istədiyi kimi, dilini də unutdurmaq, zaman-zaman yox etmək istəyirdi.**




"Millətlərin və milli dillərin yaxınlaşması, qaynayıb-qarışması" modeli ilə öz siyasi məqsədlərini gerçəkləşdirmək və xalqın yaddaşını yumağı düşünürdülər. Xalqlara və millətlərə öz doğma dillərini unutdurmaqla tarixlə əlaqələrini kəsmək və beləliklə, yeni mədəniyyət, yeni əxlaq tendensiyaları formalaşdırmaq istəyirdilər. Rus dilinin imtiyazlarının genişləndirilməsi, hüququnun artırılması ilə sovet imperiyasında "vahid dil - rus dili" ideyasının gerçəkləşdirilməsinə çalışılır və bu bir konseptual proses kimi həyata keçirilirdi. Professor Yaşar Qarayevin dediyi kimi: "...xalq miqyasında ümummilli qəsdlər və cinayətlər törətmək (repressiyalar, vaxtaşırı deportasiyalar, təkrar və vulqar əlifba "islahatları"...) üçün vicdandan əvvəl yaddaşı aradan götürmək lazım idi: yoxsa yaddaşın gözü baxa-baxa sosial ədaləti və vicdanı meydandan necə qovmaq olardı? Ən böyük yaddaş isə dildir, əlifbadır, xalqın sözlərdə və hərflərdə sənədləşən tarixi və keçmişidir".

Dilimizin XX əsrdəki rəsmi statusuna nəzər yetirsək görərik ki, 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətində Azərbaycan dili (türk dili) dövlət dili elan olunur, bütün kargüzarlıq işləri türk dilində aparılır, hətta başqa dildə yazılan ərizə və müraciətlərin üzərinə "Ərizəniz qeyri-türk dilində yazıldığı üçün əncamsız qalmışdır" kimi dərkənar yazılırdı. Məlumdur ki, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyası tərəfindən işğal olunmuş, müstəqilliyini itirmişdir. 1921-ci ildə türk dilinin dövlət dili olması ilə bağlı dekret imzalansa da, elə həmin il qəbul olunan Azərbaycan Sovet Respublikasının ilk Konstitusiyasına dövlət dili haqqında maddə salınmamışdır. 1936-cı ildə yeni hazırlanan Konstitusiya layihəsində isə Azərbaycan dili dövlət dili kimi qeyd edilir. Amma 1937-ci il kabusu ayrı-ayrı aydınlarımızı, münəvvər şəxsiyyətlərimizi, maddi-mənəvi abidələrimizi qaraladığı kimi, dilimizi də unutmadı. Şəxsən Stalinin tapşırıq və nəzarəti ilə latın qrafikasından Kiril əlifbasına keçidin layihəsi hazırlanır, bir çox termin rus dilinə uyğunlaşdırılır, rəsmi dairələrdə Azərbaycan dilinin hüququ və işləkliyi azaldılırdı. Hər cəhdlə türklər üçün vahid bir ədəbi dil yaratmaq, türklərin hamısını eyni dildə danışdırmaq istəyirdilər.

Akademik Tofiq Hacıyev bu barədə yazırdı: "Bundan gözəl nə varmış ki! Bu ideyanın müəllifləri və mücahidləri türklüyün böyük ideoloqları idi: İsmayıl bəy Qaspıralı, Əli bəy Turan, Ziya Göyalp və onların müxtəlif türk məmləkətlərindəki yetirmələri. Bəs maraqlı olanı da budur ki, antitürk, şovinist sovetlər dövləti niyə bu ideyanın təbliğinə meydan verirdi. Doğrudanmı bu imperialist dövlət imperiya daxilində böyük çoxluq təşkil edən türklərin birləşməsinə çalışır? ...Hətta bəziləri çox vulqar şəkildə bu birləşməni kolxozlaşma ilə müqayisə edir və deyirlər ki, təsərrüfatları birləşdirən, həyatın bütün sahələrində birlik yaradan sosializm türkləri də, türk ləhcələrini (dillərini) də birləşdirəcəkdir. Və iş də budur ki, imperiya bu birləşməni istəyirdi. Niyə? Çünki bu qədər dilləri bir-bir udmaq hara, bir dili udmaq hara? İmperiya istəyirdi ki, hər türk xalqı öz ana dilini unutsun, türklərin hamısı birləşsin və rus dili asanlıqla bu bircə dənə dili udsun. Həm də imperiya xam xəyalda idi ki, öz dədə-baba dilini, beşik dilini unutmuş insanın daha bir başqa dili qəbul etməsində problem olmayacaqdır. İmperiya bu məsələni türklərin ərəb əlifbasından latına, ondan da Kirilə keçməsi kimi təsəvvür edirdi".

Azərbaycan türkcəsini qara kabusdan, bədniyyət və xoşagəlməz planlardan məhz aydınlarımızın mübarizliyi, zəka və ağıllı addımları qurtarmışdır. Onlar mətbuatda, bədii əsərlərində, dillə bağlı müzakirə və toplantılarda öz sözlərini deyir, hər vəchlə dilimizi məhv olmaq təhlükəsindən qoruyurdular. Cəlil Məmmədquluzadə "Anamın kitabı" əsərində ana dili məsələsini əsas problem kimi qoyur, övladları ananın - vətənin ətrafında birləşə bilmək üçün məhz ana dilində danışmağa çağırırdı. Ədib bir-biri ilə dil tapa bilməyən, mübahisə edən, ancaq özünü haqlı hesab edən qardaşların birləşə bilməsi üçün məhz ana dili faktorunu qoyurdu. Səməd Vurğunun ana dili uğrunda mübarizə aparması bir neçə istiqamətdə idi. O, Azərbaycanın şeir dilini xalq dilinin bütün əlvanlığından, bədii-poetik imkanlarından istifadə etməklə zənginləşdirir, bir tərəfdən yüksək kürsülərdən dilimizin müdafiəsinə qalxır, onu yad təsirlərdən qorumağa çalışır, qələm dostlarına bu aspektdən tövsiyələrini verirdi. Dilimizdə qarşılığı ola-ola yad söz və ifadələrin işlənməsinin əleyhinə çıxırdı. Yuxarıda da qeyd etdiyimiz kimi, latın qrafikasından Kiril qrafikasına keçid edərkən şair mütləq Azərbaycan dilinin daxili qanunlarını nəzərə almağı vacib sayırdı: "Birinci şərt bu olmalıdır ki, yeni quracağımız əlifba Azərbaycan xalqının dilinin bütün xüsusiyyətlərinə cavab versin. Ana dilimizin bir nöqtəsinə, bir vergülünə balaca da olsa, zərər gələ bilməyəcəkdir. Çünki dil əlifba üzərində qurulmur, əlifba dil üzərində qurulur. Odur ki, biz bu işdə olduqca ehtiyatlı tərpənməliyik ki, işi bir çox "ura", yalançı internasionalizmə doğru aparmaq istəyən adamlara yol verməyək". Azərbaycan dilinin qrammatikasını, fonetikasını mükəmməl bilən şair bizim dilimizdə olan, rus dilində isə olmayan ə, ö, h, g, ğ kimi hərflərin yeni əlifbaya salınmasına çalışır, yaxud əksinə - rus əlifbasında olub bizim dilimizdə olmayan hərflərin qəbul edilməsinin əleyhinə olmaqla bu işi həm də dövlət işi, siyasi məsələ hesab edirdi. Səməd Vurğun ana dili uğrundakı mücadiləsini fəaliyyətinin bütün sahələrində sərgiləyirdi. Tədqiqatçıların da dediyi kimi, Vurğun öz yaradıcılığı ilə ana dilinə abidə ucaltmışdır. Həm öz poetik irsi ilə, həm tərcümə etdiyi əsərlərlə.

Qeyd edək ki, şair rus klassiki A.S.Puşkinin "Yevgeni Onegin", gürcü şairi Şota Rustavelinin "Pələng dərisi geyinmiş pəhləvan" əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. O, tərcümə prosesi haqqında yazırdı: "Mən Azərbaycan dilini korlamaqdan qorxurdum, çalışırdım ki, dilimizin saflığını və əlvanlığını qoruyum. Ona görə yazı masamın üstünə çox sayda lüğət kitabları yığmışdım. Həyat yoldaşım Xavər xanımdan xahiş edirdim ki, mən Puşkini tərcümə edərkən patefonda Azərbaycanın xalq mahnı və aşıq musiqilərini səsləndirsin. Beləliklə, mən öz milliliyimi qoruyub saxlamağa çalışırdım". Şair "Yevgeni Onegin" əsərinin tərcüməsindən sonra yazırdı:

*Axıtdım alnımın inci tərini,*
*Yanmadım ömrümün iki ilinə,*
*Rusiya şeirinin şah əsərini*
*Çevirdim türkün şirin dilinə.*

Buradakı "türkün şirin dili" ifadəsi senzuranın diqqətindən qaçmamış, şairə irad bildirilmişdir. Bu zaman şair məcbur olaraq, türkün sözünü Vaqifin sözü ilə əvəz etmiş, "Çevirdim Vaqifin şirin dilinə" kimi yazmışdır.

Dünyaşöhrətli bəstəkar, dramaturq, publisist Üzeyir bəy Hacıbəyli də millətin var olması üçün onun istiqlaliyyəti qədər dilinin də varlığını vacib sayırdı. Tədrisin ana dilində aparılmasının vacibliyindən danışan ədib öz məqalələrində mütləq bu mövzuya müraciət edir, ana dilinin saflığına əngəl törədən problemlərdən söz açırdı. "Kart vizitləri üzərində adları rusca, dükan qabağındakı elanları əksərən rusca, dəftər-kitabları rusca, təqvimləri rusca, blankları rusca..." deyərək ürək ağrısı ilə yazan Üzeyir bəy ana dilinin qorunmasına təkcə bu haqda yazdığı silsilə məqalələrlə cavab vermirdi. Həm də xalq dilinin şirinliyindən istifadə edərək yazdığı əsərlərlə də ana dilinə xidmət edirdi.

Dilin bir xalqın yaşamasında, var olmasında, onun kimliyini, keçmişini, tarixini, yaddaşını qorumasında, psixologiyasını ifadə etməsində rolu danılmazdır. Hətta neçə əsr əvvəl müəyyən səbəblərdən Azərbaycanı tərk edib İraqda, Əfqanıstanda və dünyanın başqa yerlərində yaşamalı olan milyonlarla soydaşımız öz kimliklərini məhz ana dilini qorumaqla yaddaşa köçürə bilmişlər. Kərküklü tədqiqatçı Səid İrmaq yazırdı: "Vətən torpağı kiçilib genişlənə bilər, tamamilə əldən çıxa bilər, sərhədləri tükənə bilər, hətta şan və şərəfi tapdana bilər, dini dəyişdirilə bilər. Lakin bir şey dəyişmir. Qalan bu tək varlıq ana dilidir". Bəxtiyar Vahabzadə kərküklü alimə haqq verərək yazırdı: "Doğru sözdür. Öz doğma Azərbaycanından ayrılan, bir sözlə, alimin dediyi kimi, "doğma vətəni əldən çıxan" bu xalqı üstündən əsrlər keçməsinə baxmayaraq, yenə özü kimi yaşadan, milli mənliyini qoruyub saxlayan onun ana dilidir. Bu yerdə ana dilinin böyüklüyü qarşısında necə əyilməyəsən, necə baş əyməyəsən? Qərib eldə, yad mədəniyyətlər içində öz kimliklərini ancaq ana dilinin sayəsində qoruyub əsrdən-əsrə keçirənlər üçün dil həm xilasedici, həm birləşdirici xidmətdə olub".

Cənubi Azərbaycanda da ana dilimiz daim təqib və təzyiqlərlə üzləşmiş, uğrunda neçə-neçə insan zindan köşələrinə atılmış, dar ağacından asılmışdır. Ana dilində nəinki yazmaq, oxumaq, hətta bəzən danışmaq belə yasaqlanmışdır. Cənublu şair və yazıçılarla, inqilabçılarla bərabər, Azərbaycanın bu tayından olan şairlərimiz də soydaşlarının müdafiəsinə qalxmışdır. O tayda Şəhriyar:

*Türkün dilitək sevgili, istəkli dil olmaz,*
*Ayrı dilə qatsan bu əsil dil əsil olmaz...*
*...Fars şairi çox sözlərini bizdən aparmış,*
*Sabir kimi bir süfrəli şair pəxil olmaz.*
*Türkün məsəli, folkloru dünyada təkdi,*
*Xan yorğanı kənd içrə, məsəldir, mitil olmaz,*

- deyib dilimizi öyəndə, onun müdafiəsinə qalxanda bu tayda Süleyman Rüstəm daha kəskin, daha sərt olaraq:

*Mən sənin dilinə dəymirəm, cəllad,*
*Gəl sən də ana dilimə dəymə!*
*Sənin də bağın var, gülün var, çəkin,*
*Bağımda əkdiyim gülümə dəymə!*

- deyərək xalqın haqq səsini qaldırırdı.

Xalq şairi Bəxtiyar Vahabzadə də ana dilinin saflığı, azadlığı üçün daim mübarizə aparmışdır, təkcə şair kimi, ədəbiyyat adamı kimi deyil, həm də bir ideoloq kimi, ictimai xadim kimi. O, həmişə yüksək kürsülərdən səsini ucaltmış, ana dilinin müdafiəsinə qalxmışdır. "Ana dilim - ana kököm", "Mən aşiqəm, yasaq yoxdur dilimə", "Sözün şəhdi, dilin nəğməsi", "Dilimiz - ədəbiyyatımız", "Ana laylası, uşaq dünyası", "Dildə təbiilik və gözəllik" kimi məqalələrində də Azərbaycan dilinin saflığı, zənginliyi, necə təbliğ olunması məsələlərinə toxunmuş, ona biganə yanaşanları ittiham etmiş, dilin inkişafı üçün konkret təkliflər irəli sürmüşdür. Bəxtiyar Vahabzadə bir ziyalı, bir alim kimi özünü bu işdə məsul hesab edir, yeri gələndə sərt mövqe sərgiləyirdi. Şairin fikrincə, dilin qayğısına bütün xalq qalmalıdır, onu yad təsirlərdən qorumalıdır. "Dil xalqındır. Ona görə də dilin gözəlliyi keşiyində yalnız alim və yazıçılar, filoloq və jurnalistlər deyil, bütün xalq durmalıdır. Bu, hər birimizin vətəndaşlıq borcudur. Bu, ümumxalq işi, dövlət işidir". Bəxtiyar Vahabzadə dilimizi sevdirmək, onun poetik imkanlarını göstərmək üçün xalq ədəbiyyatı nümunələrini misal gətirir, klassik ədəbiyyatın yaradıcılarının əsərlərinə diqqət çəkirdi. Bir neçə bayatını nümunə gətirərək az sözlə dərin fəlsəfi fikir ifadə etməyi dilin intellektual səviyyəsinin göstəricisi hesab edirdi. Nəsiminin, Füzulinin şeirlərinin isə birdən-birə meydana çıxmadığını, onları məhz dilimizin tarixi inkişafının təzahürü kimi dəyərləndirirdi. Bəxtiyar Vahabzadə müasirlərinin, qələm dostlarının yaradıcılığına münasibət bildirəndə də mütləq onların bədii dilinə münasibət bildirir, dil sadəliyini mətnin əsas göstəricisi hesab edirdi. Şair, qeyd etdiyimiz kimi, dilin qorunmasını təkcə söz adamlarının vəzifəsi hesab etmirdi. O, sözünü eyni tələbkarlıqla məmurlara da deyir, onlara ana dilində yazılmış qəzetlərə abunə olmağı, ana dilində oxumağı tövsiyə edirdi. "Mən bu yaxınlarda Azərbaycan SSR Ali Sovetinin deputatı kimi seçicilərin tapşırığını həll etmək üçün Bakı şəhər XDS İcraiyyə Komitəsinin sədri O.Zeynalovun qəbulunda oldum. O, mənimlə iki kəlmə ana dilində danışa bilmədi. Halbuki Konstitusiya üzrə respublikada Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdur. Ana dilini bilmir, özü bilər. Amma ana dili dövlət dili kimi qəbul olunubsa, dövlət aparatının başında duran bu adamın dövlət dilini bilməməsini nə ilə izah etmək olar?"

Xalq şairi Vaqif Səmədoğlu ədəbiyyata 60-cı illərdə gəlsə də, ilk şeirləri 1963-cü ildə çap olunsa da, əsərləri əsasən sovet dövründə çap oluna bilməmiş, yazdığı əsərlər məhz Azərbaycan öz müstəqilliyini qazanandan sonra nəşr edilmişdir. Bunun bir səbəbi onun şeirlərindəki azadlıq, istiqlal mövzusu idisə, bir səbəbi də elə ana dilinin müdafiəsi idi. Onun yaradıcılığında ana dilinə yad münasibətdən qaynaqlanan bir narahatlıq və nigaranlıq var idi. Doğma dilə göstərilən ögey münasibəti şair bəzən ağrı, acı, təəssüf, böyük yanğı, bəzən isə kinayə ilə ifadə edirdi:

*Yenə getdi ayrılığa,*
*Yaxın, doğma izləri.*
*Yenə qərib şeirə döndü*
*Ana dilin sözləri...*

Ana dili Vaqif Səmədoğlunun şeirlərində elə vətənin özüdür. Ana dili Vaqif Səmədoğlu üçün Vətənin sərhədləri, azadlığı qədər dəyərli idi. Ana dili Vaqif Səmədoğlu üçün həm də yaddaşdır.

İstiqlal şairi Xəlil Rzanın "Ana dili" şeiri də maraqlı ədəbi nümunədir. Xəlil Rzanın bu əsərini ana dili haqqında yazılmış dastan, epopeya adlandırsaq, yanılmarıq. Ana dili yaşadıqca şərafətinin, əsalətinin yaşadığını deyən Xəlil Rza üçün ana dili babalardan bu günə qalan və sabahkı nəslə çatdırılmalı olan mirasdır. Ana dili qəhrəmanların qılıncının davamı, yarıya bölünmüş Azərbaycanı birləşdirən polad körpüdür. Xəlil Rza, müasirlərinin dediyinə görə, dilimizi yad ünsürlərdən, yad sözlərdən qorumaq üçün hətta maraqlı bir üslub işlədirdi: həmkarları ilə belə bir "oyun" oynayırdı. Kim öz nitqində rus sözü işlətsəydi, qarşısındakına 20 qəpik verməli olurdu.

Başqa bir şairimiz Tofiq Bayram isə

*Qalxıb Şahdağına söz istəyirəm,*
*Çatsın hay-harayım dinləyənlərə.*
*Mən nankor deyirəm, nacins deyirəm,*
*Öz ana dilini bilməyənlərə!*

- deyərək, ana dilimizi zirvələrə uçmağa kömək edən qanada, şərbətə, ana südünə bənzədir, ana dilini bilməyənləri fərari adlandırır, vətənin çörəyini, naznemətini onlara haram sayırdı. Ana dilini bilmədən, sevmədən Füzulini, Xətaini, Vaqifi, Vurğunu duyub hiss etməyin mümkünsüzlüyünü deyən şair elələri üçün Vətəni qürbət hesab edirdi.

Bu gün Azərbaycan dili yaşayırsa, dövlət dili səviyyəsində yüksək kürsülərdə səslənirsə, bunun əsas səbəbkarları aydınlarımız, söz adamlarımızdır. Onların bəzən birbaşa, bəzən dolayısı ilə apardıqları mücadilə dilimizi xoşagəlməz niyyətlərdən qoruya bilmişdir.

Dövlət səviyyəsində qayğı isə dilimizin mövqeyini daha da möhkəmləndirmişdir. Hələ hakimiyyətdə olduğu ilk dövrlərdə həmişə Azərbaycan dilinin qayğısına qalan Ümummilli Lider Heydər Əliyev deyirdi: "Dil hər bir millətin milliliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Bizim çox gözəl, zəngin dilimiz var. Azərbaycan dili şeiriyyət dilidir". Ana dilini sevən Ulu Öndər həm də onun qayğısına qalmış, inkişafı üçün xeyli əhəmiyyətli addımlar atmışdır.

Bu gün də ana dilimiz dövlət səviyyəsində mühafizə olunur, imkanları genişləndirilir, xaricdə yaşayan soydaşlarımızın dilimizi öyrənməsi istiqamətində dəyərli və əhəmiyyətli layihələr işlənib hazırlanır. Ana dilimiz bizə gələcək nəsillərin əmanətidir, Vətənimiz kimi, sərhədlərimiz kimi, dəyərlərimiz kimi biz bu əmanəti onlara çatdırmaq üçün əl-ələ verməliyik.

**_Aygün BAĞIRLI,_**
**_filologiya üzrə fəlsəfə doktoru, dosent_**

# Oyun, yoxsa təhlükə

Uşaqların internet mühitində üzləşdiyi risklər cəmiyyətin və dövlətin diqqət mərkəzindədir. Xüsusilə oyun platformalarının uşaqların psixoloji inkişafına təsiri ilə bağlı narahatlıqlar artmaqdadır. İnternet oyunları müasir dövrdə uşaqlar üçün, sadəcə, vaxt keçirmə vasitəsi olmaqdan çıxıb və ciddi psixoloji risk mənbəyinə çevrilib. Uşaqlar reallıqla virtual aləm arasındakı sərhədi ayırd etməkdə çətinlik çəkir, bu isə onların davranış və düşüncə tərzinə təsirsiz ötüşmür. İnternet oyunlarının yaratdığı təhlükələr ictimai məsələ kimi qiymətləndirilməlidir.

Uşaqların psixoloji sağlamlığının qorunması üçün ailə, məktəb və cəmiyyət səviyyəsində daha diqqətli və məsuliyyətli yanaşma zəruridir. Uşaqların virtual mühitdə təhlükəsizliyi onların real həyatda sağlam inkişafının əsas şərtlərindən biridir. Rəqəmsal mühitdə sürətlə artan və daim yenilənən oyunlar uşaqların maraq dairəsinə asanlıqla daxil olur və çox vaxt nəzarətsiz qalır. Nəticədə virtual aləmdə formalaşan davranışlar real həyatda da özünü göstərir, uşaqların psixoloji tarazlığına, ünsiyyət bacarıqlarına və sosial münasibətlərinə mənfi təsir edir.

Mütəxəssislər hesab edirlər ki, rəqəmsal mühitdə böyüyən uşaqların internetin yaratdığı təhlükələrdən qorunması artıq klassik yanaşmalarla məhdudlaşa bilməz. Bir neçə gün əvvəl Milli Məclisdə "Uşaq hüquqları haqqında" qanun layihəsinin müzakirəsi zamanı da bu məsələ qaldırılıb. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclasında həmin qanun layihəsinin müzakirəsi zamanı bildirib: "Biz "Roblox" korporasiyasına rəsmi müraciət ünvanlamışıq. Bu platforma geniş oyun şəbəkəsinə malikdir və uşaqlar üçün, demək olar ki, heç bir ciddi giriş məhdudiyyəti mövcud deyil. Uşaqlar orada öz ideyalarını sərbəst şəkildə reallaşdıra, həmin məzmunu dərhal ictimailəşdirə və digər uşaqları da bu prosesə cəlb edə bilirlər. Bu isə ciddi və zərərli nəticələr doğura bilər. Rəsmi müraciətimizdə iradlarımızı bildirmişik və onların nəzərə alınmasını tələb etmişik. Əgər bu məsələlər əməkdaşlıq çərçivəsində həll olunarsa, biz bunu qiymətləndirəcəyik. Əks halda isə qanunvericilik təşəbbüsləri ilə çıxış edəcəyik. Bu oyunların bir çoxunda yaş məhdudiyyətinin olmaması, nəzarətsiz ünsiyyət imkanları və istifadəçilərin anonimliyi uşaqlar üçün ciddi təhlükələr yaradır. Bu cür platformalar uşaqları zərərli məzmunla qarşı-qarşıya qoymaqla yanaşı, onların psixoloji vəziyyətinə, davranışlarına və sosial münasibətlərinə də mənfi təsir göstərə bilər".



Təhlükəli oyunlarla bağlı yalnız bir platformaya fokuslanmaq kifayət deyil. Problemin sistemli xarakter daşıdığı nəzərə alınaraq, həm qanunvericilik sahəsində, həm də maarifləndirmə istiqamətində əlavə addımlar atılmalıdır. Valideyn nəzarətinin gücləndirilməsi, uşaqların rəqəmsal savadlılığının artırılması və oyun platformalarının məsuliyyətinin yüksəldilməsi bu istiqamətdə əsas prioritetlər olmalıdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat katibi Teymur Mərdanoğlu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, komitə tərəfindən bununla bağlı təhlillər aparılıb: "Təhlillər göstərir ki, Roblox və digər onlayn oyun platformalarından nəzarətsiz istifadə uşaqlarda asılılıq, davranış pozuntuları, aqressiya və sosial təcrid risklərini artıra bilər. Təhlillərə əsasən, bu tip oyun platformaları uşaqlarda asılılıq yarada, davranış pozuntularına səbəb ola, aqressiya meyillərini gücləndirə və onların sosial mühitdən təcrid olunması riskini artıra bilər. Xüsusilə nəzarətsiz ünsiyyət imkanları və oyun daxilində yayılan müxtəlif məzmunlar uşaqların psixoloji inkişafına mənfi təsir göstərir".

O vurğulayıb ki, uşaqlar üçün nəzərdə tutulan oyun və informasiya məhsulları onların sağlamlığına, psixoloji vəziyyətinə və mənəvi inkişafına zərər vurmamalıdır. Bu mənada onlayn oyun mühitində uşaqların qorunması məsələsi xüsusi diqqət tələb edir və bu sahədə məsuliyyətli yanaşma zəruridir.

Mövzu ilə bağlı psixoloq Könül Əkbərovanın da fikirlərini öyrəndik. O, dövlət nəzarəti, valideyn məsuliyyəti və hüquqi mexanizmlərin praktik tətbiqi barədə danışıb. O bildirib ki, Roblox və digər onlayn oyunlar uşaqların həyatında ciddi təsirə malikdir. Bu oyunlar uşaqların real həyatdan uzaqlaşmasına səbəb olur. Uşaqlar virtual aləmə sığındıqda sanki beyinlərini "susdurur", özlərini daha rahat hiss edir və emosiyalarını dondururlar. Məhz bu səbəbdən telefonlara, sosial şəbəkələrə və bu tip oyunlara üstünlük verirlər. Bu oyunlar beynin zövq sistemini aktivləşdirdiyi üçün, məsələn Roblox-da səviyyə atladıqca və nailiyyətlər əldə etdikcə, uşağın ona asılılığı daha da artır. Nəticədə uşaq real həyatdan qopur, təkliyə meyil edir, əsəbi olur, aqressiyası artır, diqqətini toplamaqda, dərslərə fokuslanmaqda və verilən tapşırıqları sona qədər yerinə yetirməkdə çətinlik çəkir.

"Praktikada tez-tez müşahidə edirik ki, bir həftə uşaq oyunlardan daha az istifadə etdikdə seanslar çox gözəl keçir. Növbəti həftə isə valideynin işi çox olur, nəzarət azalır və uşaq telefonda, oyunlarda daha çox vaxt keçirir. Bu zaman uşaq seansa sanki 70 faiz dəyişmiş halda gəlir: aqressiyası artır, tapşırıqlara əməl etmək istəmir. Bu dəyişiklikdən artıq anlayırıq ki, həmin həftə uşaq virtual aləmdə daha çox vaxt keçirib. Buna görə də ilk növbədə valideynlərin rolu çox vacibdir. Valideyn uşağın emosional vəziyyətindəki dəyişiklikləri hiss etməli, niyə daha çox virtual aləmə yönəldiyini araşdırmalıdır. Ola bilsin ki, uşaq hansısa emosional çətinlik yaşayır və hisslərini dondurmaq üçün bu oyunlara müraciət edir", - deyə psixoloq əlavə edib.

K.Əkbərova vurğulayıb ki, valideynlə uşaq arasında açıq ünsiyyət mütləq olmalıdır: "Oyunları birdən-birə tamamilə qadağan etmək və ya əlindən almaq uşağın aqressiyasını daha da artıra bilər. Buna görə də nəzarətli şəkildə, uşağın yaşına uyğun zaman limiti müəyyənləşdirilməlidir. Paralel olaraq real həyatda alternativlər yaradılmalıdır: uşaqlar idmana, açıq hava oyunlarına, maraqlı fəaliyyətlərə daha çox cəlb edilməlidir. Uşağı virtual aləmdən yavaş-yavaş, sakit şəkildə uzaqlaşdırmaq daha sağlam nəticə verir".

Psixoloq qeyd edib ki, bu oyunların Rusiya, Çin, Türkiyə kimi ölkələrdə qadağan olunması təsadüfi deyil: "Çünki bu platformalarda bizim cəmiyyətə uyğun olmayan məzmunlar, o cümlədən uşaqlar üçün uyğun olmayan ideoloji və sosial mesajlar mövcuddur. Mən bunu şəxsi təcrübəmdə də müşahidə etmişəm. Öz oğlumda diqqət əskikliyi və hiperaktivlik pozuntusu var. Oyun platformalarını bir müddət test etdikdə gördüm ki, bu tip oyunlar diqqət əskikliyi və hiperaktivlik pozuntusu olan uşaqlarda çox ciddi neqativ nəticələrə gətirib çıxarır. Üstəlik, uşaqlar bir-birinə də təsir edir, məktəbdə dostlarının oynadığını görüb daha çox həvəs göstərirlər. Bu səbəbdən hesab edirəm ki, həmin oyunları birdən-birə deyil, tədricən azaltmaq və uşaqları yavaş-yavaş onlardan təcrid etmək daha düzgün və sağlam yanaşmadır".

İnternet oyunları ətrafında gedən müzakirələr göstərir ki, uşaqların müdafiəsi rəqəmsal təhlükəsizlik anlayışı ilə birgə düşünülməlidir.

Problem yalnız qadağalarla həll edilə bilməz. Valideyn nəzarətinin gücləndirilməsi, məktəblərdə və ailələrdə rəqəmsal təhlükəsizlik mövzusunda maarifləndirmənin artırılması, eyni zamanda oyun platformalarının uşaqlar qarşısında daha məsuliyyətli davranması vacibdir. Uşaqların maraqlarını və təhlükəsizliyini ön planda tutan sistemli yanaşma formalaşdırılmadığı təqdirdə onlayn oyunların yaratdığı risklər daha da dərinləşə bilər.

Müasir dövrdə uşaq təhlükəsizliyi anlayışı, sadəcə, real mühitlə məhdudlaşmır. Virtual aləmdə baş verənlər də uşaqların gələcəyinə birbaşa təsir göstərir və bu məsələ daim cəmiyyətin diqqətində olmalıdır.

**_Təhminə VERDİYEVA,_**
**_"Azərbaycan"_**





# Mədəniyyət





● I Türkoloji Qurultay - 100

# Üç şəxsiyyət, üç tale

**1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilmiş I Türkoloji Qurultay XX əsrdə türk xalqlarının elmi və mədəni inkişafında mühüm dönüş nöqtəsi kimi tarixə düşmüşdür. Bu qurultay təkcə dilçilik tədbiri deyil, türk dünyasının elmi düşüncəsinin koordinasiyasını, mədəni inteqrasiyasını və modernləşmə istiqamətini müəyyən edən genişmiqyaslı platforma olmuşdur. I Türkoloji Qurultay bu qlobal məzmunlu tədbirdə iştirak etmiş görkəmli ziyalıların həyatına, sonrakı taleyinə nəzər salmaq baxımından da yeni bir imkandır.**



Bu insanlar həmin qurultayda gələcəyə çox böyük ümidlərlə iştirak etmiş, işıqlı ideyalarını, təkliflərini bölüşmüşdülər. Onlar qəlbən inanırdılar ki, yeni günlər keçmişdən daha gözəl, aydın, cəmiyyət üçün xoşbəxtlik və rifah dolu olacaq. Əfsuslar ki, həyat dövrün ziyalılarına bu ümidlərin tamam əksini yaşatdı, bolşeviklərin repressiya maşını cəmi bir neçə ildən sonra I Türkoloji Qurultay iştirakçılarının çoxunun ömrünə son qoydu, bir qismi pantürkizm damğası ilə güllələndi, Sibirə gedər-gəlməzə göndərildi, həyatını adi bir təsadüfdən başa vuranları da oldu.

Stenoqrafik hesabatlara əsasən, I Türkoloji Qurultayda ümumən 131 nümayəndə və qonaq iştirak edib. Bu məqalədə onlardan fərqli talelər yaşamış 3 nəfər - Həbib Cəbiyev, Səməd ağa Ağamalıoğlu və Fuad Köprülzadə haqqında söhbət açmağa çalışacağıq.

## I Türkoloji Qurultayın repressiya qurbanı olmuş iştirakçısı



Əvvəlcə onu qeyd edək ki, sovet hakimiyyətinin ilk illərində Bakıda belə bir qurultayın keçirilməsi və burada türk xalqlarının dili, tədris-metodikası, hətta ortaq ədəbi dil məsələsi, ulu dil nəzəriyyəsi, türk dillərinin tarixi problemləri kimi mövzuların müzakirəyə çıxarılması ilk baxışında paradoksal görünə bilər. Axı bu həmin sovet hakimiyyətidir ki, cəmi bir neçə ildən sonra pantürkizmi düşmən ideologiya elan edəcək, zəmanəsinin ən görkəmli alimlərinə pantürkst damğası ilə qənim kəsiləcəkdi. Amma sovet hakimiyyətinin konyuktur mahiyyətindən yanaşanda bu paradoksu anlamaq çətin görünmür. I Türkoloji Qurultayın keçirilməsinə şərait yaradılması da, burada iştirak edən ziyalıların bir neçə ildən sonra qanlı repressiya maşınının çarxlarına sürüklənməsi də sovetlərin dövrə görə dəyişən siyasi maraqları ilə bağlı idi.

Sovet rəhbərliyi ötən əsrin 20-ci illərinin ortalarında qeyri-rus xalqlar arasında legitimlik qazanmaq, yeni dünyəvi və sovetləşmiş intellektual elita formalaşdırmaq, həmçinin savadlılıq kampaniyasını sürətləndirmək məqsədi güdürdü. Dil, əlifba islahatı, tədris, kütləvi savadlılıq bu baxımdan ideoloji yox, dövlət texnologiyası kimi qiymətləndirilirdi.

1930-cu illərdən isə sovetlər pantürkizmi ona görə düşmən ideologiya elan etdilər ki, bu ideyada imperiyanın siyasi bütövlüyü və mərkəzləşmiş nəzarəti üçün real təhlükələr görməyə başlamışdılar.

I Türkoloji Qurultayın repressiyaya qurban getmiş iştirakçılarından biri Həbib Cəbiyev oldu. O, 1899-cu ildə Balaxanıda doğulmuşdu, Ağahüseyn adlı qardaşı ilə birgə ailədə iki övlad idilər. Atası Piricanı Cəbiyev Bakı neftxudalarından sayılırdı, Nobel qardaşları ilə birgə çalışırdı, sonralar Hacı Zeynalabdin Tağıyev və Arafelovla birgə şirkət də təsis etmişdilər. Atası Həbibi öz işinin davamçısı kimi görmək istədiyindən onu 12 yaşında Bakı kommersiya məktəbinə qoymuşdu. Onda Bakıdakı bir çox məktəblər kimi burada da korkoranə inqilabi əhvali-ruhiyyə hökm sürür, tez-tez siyasi məzmunlu yığıncaqlar keçirilirdi. Bütün bunlar yeniyetmə Həbibin də dünyagörüşünə təsir göstərirdi, o, məktəbdə yaradılmış gizli şagird dərnəyinə üzv olmuşdu, dərnəyin fəallarından idi.

1916-cı ilin sonlarında Həbib Cəbiyev Birinci Dünya müharibəsi əleyhinə apardığı təbliğati işə görə həbs edilərək iki gün polis sahəsində saxlanılır. 1918-ci ildə - kommersiya məktəbinin son kursunda isə bolşeviklər partiyasına daxil olur və həmin il bolşevik "Hümmət" təşkilatının Balaxanı şöbəsinin katibi seçilir. Seyid Cəfər Pişəvəri, Nemət Bəsir və Əlisəttar İbrahimovla birlikdə Bakıdakı şəxsi mətbəələrdə siyasi ədəbiyyat nəşri ilə məşğul olur. 1919-cu ilin aprelində Gəncəyə gedir, bolşeviklər partiyasının Gəncə qəza komitəsinin fəal üzvlərindən birinə çevrilir. Gəncəbasar tərəflərdə inqilabi iş aparır, Qazaxda, Tovuzda, Ağstafada, Gədəbəydə partiya özəkləri və qrupları yaradır.

Həbib Cəbiyev jurnalistika fəaliyyəti ilə də məşğul olurdu və bu işə "Azərbaycan füqərası" qəzetindən başlamışdı. 1921-ci ilin mart-aprel aylarında o həmin qəzetin, 1921-ci ilin oktyabr ayından 1922-ci ilin yanvar ayına kimi "Kommunist" qəzetinin redaktoru vəzifəsində işləmişdir. O, sonralar yenidən iki dəfə "Kommunist" qəzetində məsul vəzifə tutmuşdu. 1923-cü ildən 1927-ci ilə və 1929-cu ildən 1930-cu ilə kimi qəzetin redaktoru olmuşdu.

I Türkoloji Qurultaya hazırlıq işinə də "Kommunist" qəzetinin redaktoru işlədiyi dövrdə cəlb edilmişdi. O, SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə qurultayın çağırılmasına hazırlıq üzrə yaradılmış təşkilat komissiyasında təmsil olunurdu. Qurultay zamanı isə rəyasət heyətinin üzvü kimi fəaliyyət göstərirdi. Həbib Cəbiyev latın əlifbasına keçidin qızğın tərəfdarı idi və səsvermə zamanı bu təşəbbüsün əksəriyyətin dəstəyini qazanmasına bütün gücü ilə çalışırdı. Qurultayın latın qrafikasına keçid barədə yekun qərarını da elə Həbib Cəbiyev oxumuşdu.

1929-cu ildə Həbib Cəbiyevin iştirakı və təşəbbüsü ilə "Azərbaycanı Tədqiq və Öyrənmə Cəmiyyəti" əsasında Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu yaradılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının özəklərindən sayıla biləcək bu institutun ilk həqiqi üzvləri sırasında R.Axundov, Ə.Haqverdiyev, S.Əfəndiyev, T.Şahbazi, V.Bartold, N.Marr, İ.Meşşaninov ilə yanaşı, Həbib Cəbiyev özü də təmsil olunurdu.

Ötən əsrin 20-ci illərinin sonlarına doğru Azərbaycanın rəhbəri olacaq Mircəfər Bağırovla Həbib Cəbiyev arasında münasibətlər gərginləşməyə başlayır. Mümkün təhlükələrdən uzaq qalmaq üçün o, Moskvaya köçür, SSRİ Xalq Yeyinti Sənaye Komissarlığında məsul vəzifələrdə işləməyə başlayır, yaxşı işinə görə həmin dövrün ən yüksək təltiflərindən olan "Lenin ordeni"nə layiq görülür.

Amma repressiya dalğası ondan yan keçmir. 1938-ci ildə Həbib Cəbiyevi həbs edib Bakıya göndərirlər. Çox güman ki, burada Mircəfərin fitvası da müəyyən rol oynayır. İstintaq zamanı Həbib Cəbiyevi bir neçə dəfə Mircəfər Bağırov özü dindirir, istədiyi ifadəni ondan ala bilmədiyini gördükdə 21 aprel 1938-ci ildə dindirmə zamanı şəxsən özü onu güllələyir. Həbib Cəbiyevin böyük oğlu Cahangir də repressiya dövründə öldürülür, kiçik oğlu Teymur isə Buzovna çimərliyində dənizdə batır.

## Sosial ədalət ideyalarına bağlı ziyalı



I Türkoloji Qurultaya hazırlıq üzrə təşkilat komitəsinin və qurultayın rəyasət heyətinin sədri Səməd ağa Ağamalıoğlu idi. Səməd ağa Ağamalıoğlu 1867-ci ildə Qazax qəzasının Qıraq Kəsəmən kəndində anadan olub. Dövrünün savadlı və dünyagörüşlü ziyalılarından biri kimi Qori Müəllimlər Seminariyasında, daha sonra Vladiqafqaz Hərbi Progimnaziyasında təhsil alıb. Tədqiqatçılar yazırlar ki, gənc yaşlarından sosial ədalət ideyalarına bağlı olan Səməd ağa varlı mülkədar ailəsindən çıxsa da, kasıblara xüsusi həssaslıqla yanaşırdı.

1905-ci ildə o, ata-babadan qalma bütün var-dövlətindən - torpaqlarından, mal-qarasından, qızıl və sərvətlərindən imtina edərək onları xidmətçilərinə paylayır. Onun bu addımı dövrün varlıları tərəfindən ağılsızlıq, yoxsullar tərəfindən isə misilsiz alicənablıq kimi dəyərləndirilirdi. Səməd ağa bərabərhüquqlu, azad və ədalətli cəmiyyət ideyasını həyat tərzinə çevirmiş nadir şəxsiyyətlərdən idi.

1905-1907-ci illər inqilabı zamanı o, sosial ədalət uğrunda mübarizəyə qoşulur, ona daha cəlbedici görünən bolşevik ideyalarını qəbul edərək siyasi fəaliyyətə başlayır. 1917-ci ildən RSDFP-nin (Rusiya Sosial Demokrat Fəhlə Partiyası) və Yelizavetpol Sovetinin üzvü olur, daha sonra "Hümmət" təşkilatında və mətbuatda fəal şəkildə çalışır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentə üzv seçilərək qanunvericilik proseslərində fəal iştirak edir.

Sovet hakimiyyəti qurulduqdan sonra Səməd ağa Ağamalıoğlu respublikanın ilk xalq torpaq komissarı, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri və SSRİ miqyasında yüksək vəzifələr tutur. Onun fəaliyyəti təkcə siyasi sahə ilə məhdudlaşmırdı. 1922-ci ildə Leninlə görüşü zamanı Səməd ağa Ağamalıoğlu ərəb-fars əlifbasının latın qrafikası ilə əvəz olunmasını təklif etmiş və qadınlara bərabər hüquqlar verilməsi ideyasını irəli sürmüşdü. Təsadüfi deyil ki, Lenin Səməd ağanın bu təşəbbüslərini "Şərqdə mədəni inqilab" adlandırırdı.

Səməd ağa yeni türk əlifbasının tətbiqində də mühüm rol oynamışdı. O, Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinə rəhbərlik etmiş, mətbuatda bu mövzuda çoxsaylı məqalələri işıq üzü görmüşdü. "Bizim yolumuz hayanadır?", "İki mədəniyyət", "Yeni türk əlifbasının müdafiəsində" kimi əsərləri ilə o, həmin dövrdə dil, əlifba mövzusunda polemikalara ciddi təsir göstərmişdir.

I Türkoloji Qurultaya hazırlıq üzrə komissiyaya və qurultaya sədrlik edərkən Səməd ağa Ağamalıoğlu Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışırdı. Qurultaydan sonra SSRİ MİK-in 11 may 1927-ci il tarixli sərəncamı ilə yeni türk əlifbasının Mərkəzi Komitəsi yaradılmış, Səməd ağa Ağamaloğlu onun sədri seçilmişdir. Amma I Türkoloji Qurultaydan sonra onun da həyatı uzun sürmədi, 1930-cu ildə Moskvada olarkən qəflətən vəfat etdi. Nəşi sonradan Bakıya gətirilərək Fəxri xiyabanda dəfn olundu.

## Yol qəzasına qurban gedən professor



I Türkoloji Qurultayın ən görkəmli nümayəndələrindən biri isə tarixçi-ədəbiyyatşünas, sonradan Türkiyədə siyasətçi kimi də məşhurlaşan professor Fuad Köprülü idi. O, 4 dekabr 1890-cı ildə İstanbulda - Bəyoğlu Cəza Dairəsi məmuru Faiz bəyin ailəsində anadan olmuşdur. Təhsilini İstanbulda almış, fars və fransız dillərini öyrənmiş, o dövrün nüfuzlu nəşrlərindən olan "Servet-i Fünun" jurnalında məqalələrlə çıxış etməyə başlamış, sonralar "Hak" qəzetinin redaksiya müdiri olmuşdu. Müxtəlif illərdə İstanbuldakı bir neçə məktəbdə dil-ədəbiyyat, İstanbul Universitetində türk ədəbiyyatı tarixi, mülkiyə məktəbində siyasi tarix və Türkiyə tarixi müəllimi kimi çalışmışdır. 1924-cü ildə Təhsil Nazirliyində müşavir işləmiş, eyni zamanda İstanbul Universitetində dərs demişdir. 1936-cı ildə Dil, Tarix və Coğrafiya Fakültəsində, 1937-ci ildə isə Siyasi Elmlər Məktəbində professor olmuş, Qars bölgəsindən Türkiyə Böyük Millət Məclisinə üzv seçilmişdir. Millət vəkili olduğu dövrdə Cümhuriyyət Xalq Partiyasından ayrılaraq üç dostu - Cəlal Bayar, Adnan Menderes ve Refik Koraltan ilə birlikdə Demokrat Partiyasını qurmuşdur. 1950-1954-cü illərdə Türkiyənin xarici işlər naziri, baş nazirin müavini vəzifələrində çalışmışdır. 1954-cü ildə yeni hökumət kabinetində də ikinci dəfə xarici işlər naziri olmuş, 1955-ci ildə isə bu vəzifədən istefa vermişdir. Xarici işlər naziri olduğu dövrdə Türkiyənin NATO-ya qəbulunda əhəmiyyətli rol oynamışdır. Qurulmasında yaxından iştirak etdiyi partiyanın sonrakı xəttini bəyənmədiyindən 1957-ci ildə Demokrat Partiyasından istefa vermiş və Hürriyyət Partiyasına keçmişdir. Siyasi fəaliyyəti ilə yanaşı, elmi araşdırmalarını da dayandırmamış, onun 1500-dən çox tədqiqat əsəri qalmışdır.

Bu böyük alim yaşının ixtiyar çağlarında təsadüfi bir hadisəyə qurban getmişdir. 15 oktyabr 1965-ci ildə Ankaradakı Türk Tarix Qurumundan piyada evinə qayıdarkən yol qəzasına düşmüşdür. 28 iyun 1966-cı ildə müalicə aldığı İstanbulda Baltalimanı xəstəxanasında vəfat etmiş, İstanbulun Çemberlitaşdakı Köprülü məscidə bitişik ailə qəbiristanlığında dəfn edilmişdir.

Fuad Köprülü I Türkoloji Qurultaya İstanbul Universitetinin professoru kimi qatılmışdı. O, ədəbiyyata sosioloji metod prizmasından baxır, ümumtürk ədəbiyyatını Osmanlı, Azərbaycan və Orta Asiya bölgələri üzrə öyrənməyi təklif edirdi. O, dil faktorunu əsas götürür, Azərbaycan ədəbiyyatını Həsənoğludan başlamağı təklif edirdi, farsca yazan şairləri bu ədəbiyyata qəbul etmirdi. Türkiyədə Azərbaycan ədəbiyyatının tanıdılmasında müasiri olan digər tanınmış alimlər kimi Fuad Köprülünün də böyük xidmətləri vardır.

Araşdırmaçı Azər Turan Köprülü haqqında məqalələrinin birində yazır ki, 1939-cu ildə Sarbon Universitetinin fəxri doktoru seçildiyi günlərdə alimin şərəfinə Sarbon Universitetinin çatısında türk bayrağı dalğalanırdı. Köprülü bunu elmi həyatında ən dəyərli mükafat kimi qiymətləndirirdi: "Sorbonna üstündə türk bayrağı dalğalanırkən universitetə Fransız Rəisicümhuru (Fransa Prezidenti Alber Lebren) gəlmişdi. Kəndilərinə məni türk alimi deyə təqdim etdilər. Əlimi sıxdı, nazikanə təbrik etdi".

Bir faktı da qeyd edək ki, 1925-ci ildə SSRİ Elmlər Akdemiyasının müxbir üzvü seçiləndə Fuad Köprülünün 35 yaşı vardı və rus elminin məşhurları - Bartold, Oldenburq, Kraçkovski etiraf edirdilər ki: "Köprülüzadənin tədqiqləri sayəsində türkoloji elm sahəsi istər tarix, istərsə də linqvistika baxımından keçmiş vəziyyəti ilə ölçüyəgəlməyəcək dərəcədə yüksəlmişdir". Akademik Qordlevskiyə görə, "Köprülüzadə Fuad bəy şübhəsiz ki, yeni Türkiyənin ən böyük simalarından biridir... Onun incə və parlaq üslübda yazılan əsərləri mövzularının yeniliyi ilə diqqəti cəlb etməsindən başqa, yalnız Türkiyə üçün deyil, bütün avropalı araşdırıcıları üçün də böyük dəyər daşıyır..."

Lakin 1948-ci ildə Stalinin qərarı ilə Köprülü SSRİ Elmlər Akademiyasının üzvlüyündən xaric edilir. Səbəb nə idi? Araşdırmaçı Azər Turan yazır ki, o zaman Gürcüstanın Elmlər Akdemiyasının alimləri sovet mətbuatında Türkiyə torpaqlarının bir qisminin sovet Gürcüstanına aid olması iddiası ilə çıxış edirdilər. Fuad Köprülü gürcü alimlərinə cavab olaraq "Vətən" qəzetində "Gürcü alimlərinə cavab", "Tarix yalançı şahid olamaz", "Tarix deyil, əfsanə", "Əfsanə deyil, tarix" sərlövhəli silsilə məqalələrini yazmış, dünya ictimaiyyətinin diqqətini Türkiyənin xeyrinə yönəldə bilmişdir. Elə həmin il - 1948-ci ilin 12 noyabrında SSRİ EA-nın ümumi yığıncağında Sovet İttifaqına qarşı "düşmənçilik və böhtan ruhlu" çıxışlarına görə türk professoru Fuad Köprülü akademiyanın əcnəbi müxbir üzvləri sırasından xaric edilmişdir. Bütün bunlar da göstərir ki, Köprülünün siyasi həyatı elmi həyatının daim ayrılmaz tərkib hissəsi idi.

I Türkoloji Qurultayın 100-cü ilində bu böyük aydınların hər birini sevgi ilə anırıq. Cəmiyyətin inkişafı naminə fədakar fəaliyyətlərinin yaratdığı əbədi mənəvi dəyərlər yaşadıqca, bu ziyalılar da yaşayır, keçmişdən bu günə, bu gündən gələcəyə işıq salırlar.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Vyanada Xalq rəssamı Əşrəf Heybətovun fərdi sərgisi açılıb



**Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində Xalq rəssamı Əşrəf Heybətovun "Azərbaycan - rənglərin yaddaşındakı ölkə" adlı fərdi sərgisi açılıb.**

Görkəmli rəssamın 75 illik yubileyinə həsr olunmuş sərgidə Azərbaycan təbiəti, onun tarixi məkanları, sadə insanları, adət-ənənələri ön planda dayanır.

Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova qonaqlara sərgi barədə məlumat verib və bildirib ki, təqdim olunan əsərlərdə rəssam milli-mədəni ənənələri müasir bədii ifadə vasitələri ilə ustalıqla birləşdirir. Əşrəf Heybətovun yaradıcılığında rəng, yaddaş və milli kimlik əsas bədii məfhumlar kimi çıxış edir. Onun tabloları Azərbaycanı yalnız coğrafi məkan kimi deyil, mənəvi yaddaş, mənsubiyyət və davamlı bağlılıq məkanı kimi təqdim edir. Landşaftlar, insan obrazları və ovqatlar birbaşa təsvir deyil, daha çox emosional və fəlsəfi yozum şəklində təqdim olunur.

Xalq rəssamı Əşrəf Heybətov çıxışında bildirib ki, Azərbaycan mövzuları onun yaradıcılığının əsas qayəsini təşkil edir. Son illərdə isə o, bu mövzunu daha da genişləndirərək, ümumtürk dünyasına həsr olunmuş tablolar yaradır. Vyanada ikinci dəfə əsərlərini sərgiləyən rəssam yubiley münasibətilə təşkil edilmiş sərgi üçün minnətdarlığını bildirib.

Qeyd edilməlidir ki, Əşrəf Heybətov incəsənət sahəsindəki xidmətlərinə görə bir sıra milli və beynəlxalq mükafatlarla təltif edilib. O, Azərbaycan Respublikasının Xalq rəssamı fəxri adına, UNESCO Rəssamlar Federasiyasının üzvlüyünə, eləcə də "Sülh səfiri" beynəlxalq diplomuna layiq görülüb. Rəssam Azərbaycan Rəssamlar İttifaqının fəxri üzvü olmaqla yanaşı, Azərbaycan-Almaniya Dostluq Cəmiyyəti və Alman Rəssamlar Birliyi də daxil olmaqla bir sıra beynəlxalq təşkilatların üzvüdür.

# ABAD-çı sənətkarın uğur hekayəsi - keramikada milli izlər

**"ABAD"ın dəstək göstərdiyi şəkili sənətkarlardan biri də gənc rəssam Zaur Əhmədovdur. O, 2011-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirərək, biliklərini praktik sənətkarlıqla birləşdirməyə müvəffəq olub. Hazırda Şəki şəhərində yerləşən "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzində rəssam-keramikaçı kimi fəaliyyətini davam etdirən Zaur palçıq və boyaların vəhdətindən milli ruhlu modern nümunələr yaradır.**



AZƏRTAC-ın bölgə müxbiri gənc sənətkarla görüşüb, onun yaradıcılıq yolu və uğurları ilə maraqlanıb.

Zaur Əhmədov Rəssamlıq Akademiyasını bitirdikdən sonra bir müddət zərgərlik fəaliyyəti ilə məşğul olub, bu sahədə peşə təcrübəsinə yiyələnib. Əmək fəaliyyətinə 2015-ci ildə Şəki Dövlət Rəsm Qalereyasında bərpaçı-rəssam kimi başlayıb. Gənc sənətkar, eyni zamanda fərdi yaradıcılığına da xüsusi diqqət ayırıb, kiçikölçülü qaya daşlarının üzərində rəngli boyalarla rəsm əsərləri yaratmaqla məşğul olub.

Rəssam-keramikaçı öz biznesini genişləndirmək, eyni zamanda Şəkinin gənc sənətkarlarını bir çətir altında toplamaq məqsədilə sənət dostu Asim Abbasovla birgə "ArtClub Kafe - Emalatxana" konseptini yaradıb. Bu sahədə ilk addımlarını atan Zaur əl işlərinin Şəkidən kənarda da tanıdılmasına nail olmaq, daha geniş satış bazarına çıxmaq, gəlirlərini artırmaq məqsədi ilə "Ailə Biznesinə ASAN Dəstək" layihəsinə - ABAD-a qoşulmaq qərarına gəlib və 2017-ci ildə onun bu arzusu gerçəkləşib.

Onun fəaliyyəti təkcə fərdi yaradıcılıqla məhdudlaşmır, tətbiqi sənətin qədim ənənələrini qoruyub saxlayaraq onları müasir üslubda yenidən işləyir. ABAD-ın təqdim etdiyi geniş texniki imkanlar və yaradıcı mühit Zaur Əhmədovun əl işlərinin həm yerli, həm də xarici turistlər üçün cəlbedici sənət nümunəsinə çevrilməsinə şərait yaradır. Şəkinin tarixi atmosferindən ilhamlanan gənc rəssamın keramika məhsulları sənətin nəsildən-nəslə ötürülən estetik dəyərini və ABAD-ın milli brendləşmə missiyasını özündə parlaq şəkildə təcəssüm etdirir.

"Əvvəllər hazırladığım əl işlərini satmaq üçün Şəkidəki mağazalara, sənətkarlıq dükanlarına təqdim edirdim. Biznesimi genişləndirməkdə çətinlik çəkirdim. ABAD-a qoşulduqdan sonra artıq əl işlərim Şəki ilə yanaşı, Bakıda və digər şəhərlərimizdə yerləşən mağazalarda, sənətkarlıq mərkəzlərində də satılır. Sifarişlərim xeyli çoxalıb. 2018-ci ildə Şəkidə ABAD Keramika və Tətbiqi Sənət Mərkəzi açılanda ABAD-la əməkdaşlıq etdiyim üçün məni də mərkəzə dəvət etdilər, təlimlərdə iştirak etdim, rəssam-keramist ixtisasına yiyələndim. İndi mən özüm burada təşkil olunan təlimlərdə gənclərə bu sənətin sirlərini öyrədirəm", - deyə o bildirib.

Həmsöhbətimiz vurğulayıb ki, mərkəz fəaliyyətə başladığı gündən bəri burada onlarla gənc keramist yetişib və hazırda onların bir çoxu bu sənətlə fərdi şəkildə məşğul olur.

Gələcək planları barədə danışan Zaur Əhmədov deyib: "Hazırda Azərbaycanın məşhur tarixi abidələrinin suvenir formasında, kiçik ölçüdə keramik maketləri üzərində işləyirəm, qəliblərini hazırlayıram. Bu abidələrə Şəkidəki, eləcə də Bakı, Qarabağ, Gəncə və digər regionlardakı məşhur abidələr daxildir. Turistlər üçün nəzərdə tutulan bu iş ABAD tərəfindən sifariş verilib. Qəliblər tam hazır olduqdan sonra növbəti mərhələdə bu suvenirləri keramikdən seriyalı şəkildə istehsal etməyə başlayacağam".

Beləliklə, Zaur Əhmədovun nümunəsi fərdi istedadın dövlət dəstəyi və müasir yanaşma mexanizmləri ilə birləşdikdə necə böyük uğurlara yol açdığını bir daha sübut edir.

4 Fevral Dünya Xərçənglə Mübarizə Günüdür

# Xərçəng həyatın sonu deyil



**İnsanlar tarix boyu saysız-hesabsız xəstəliklərlə üzləşirlər. Onlardan bəziləri zamanla yox olub, bəziləri isə elmin inkişafı ilə nəzarət altına alınıb. Ancaq elə xəstəliklər var ki, əsrlər keçsə də, hələ də qorxulu mərəz olaraq qalır. Xərçəng xəstəliyi kimi...**

Bu söz bir çox insan üçün ümidin azalması, qorxu, qeyri-müəyyənlik və psixoloji sarsıntı ilə assosiasiya olunur. Halbuki müasir tibbin gəldiyi nəticə göstərir ki, xərçəng nə qəfil ölüm hökmüdür, nə də müalicəsi mümkün olmayan bir xəstəlikdir. Elmi araşdırmalar sübut edir ki, xərçəng yeni yaranmış xəstəlik deyil. Alimlər bu xəstəliyin izlərinə təxminən 1,7 milyon il əvvələ aid tapıntılarda rast gəliblər. Bu fakt xərçəngin insanla bərabər "yaşadığını" və təkcə müasir həyat tərzinin nəticəsi olmadığını göstərir. Buna baxmayaraq, sənayeləşmə, ekoloji çirklənmə, qeyri-sağlam qidalanma, stres və zərərli vərdişlər xəstəliyin yayılma sürətini əhəmiyyətli dərəcədə artırıb.

Bu gün dünyada 200-dən artıq xərçəng növü mövcuddur. Onların yaranma mexanizmi oxşar olsa da, təsir etdiyi orqanlara, inkişaf sürətinə və müalicə üsullarına görə fərqlənirlər. Statistikalara əsasən, hər il dünyada təxminən 19,5 milyon insana xərçəng diaqnozu qoyulur. Mütəxəssislər bildirirlər ki, əgər profilaktik tədbirlər gücləndirilməzsə və erkən diaqnostika sistemləri genişləndirilməzsə, 2050-ci ilə qədər bu rəqəm 35 milyona çata bilər.

Xərçəngə qarşı qlobal mübarizənin gücləndirilməsi məqsədilə hər il fevralın 4-ü Ümumdünya Xərçənglə Mübarizə Günü kimi qeyd olunur. Bu günün əsas məqsədi insanları maarifləndirmək, düzgün həyat tərzinə təşviq etmək və xərçəngin erkən aşkar edilə bilən bir xəstəlik olduğunu cəmiyyətə anlatmaqdır.

### Xəstəliyin qarşısını almaq mümkündür

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimli bildirib ki, xərçəngin yaranma səbəbləri hələ də tam şəkildə müəyyən olunmayıb. Onun sözlərinə görə, bu xəstəlik hüceyrələrin nəzarətsiz şəkildə çoxalması ilə xarakterizə olunur və orqanizmin normal tənzimləyici mexanizmlərinə tabe olmur. Məhz bu səbəbdən xərçəng bir çox hallarda gec aşkar edilir. Xərçəngin inkişafına təsir edən əsas risk faktorları sırasında genetik meyli, tütün və spirtli içkilərin istifadəsini, ionlaşdırıcı radiasiyanı, kanserogen maddələri, müxtəlif virusları, qeyri-sağlam qidalanmanı və ətraf mühitin çirklənməsini qeyd edirlər. Bu amillərin bəziləri insanın nəzarətindən kənarda olsa da, böyük bir hissəsi gündəlik həyat tərzi ilə birbaşa bağlıdır.

Həkim-onkoloq deyib ki, insanların öz sağlamlıqlarına qarşı məsuliyyətli yanaşması xərçəng riskini əhəmiyyətli dərəcədə azalda bilər: "İlk növbədə düzgün yuxu rejimi formalaşdırılmalı, balanslı və sağlam qidalanmaya üstünlük verilməlidir. Qida rasionunda təbii və mümkün qədər orqanik məhsullara yer verilməli, hazır və emal olunmuş qidalardan uzaq durulmalıdır. Gün ərzində üç dəfə qidalanmaq, axşam yeməyini isə gec saatlara saxlamamaq tövsiyə olunur".

Onkoloji xəstəliklərin artmasının cəmiyyət tərəfindən bəzən yanlış şərh olunduğunu qeyd edən mütəxəssis bildirib ki, bir çox insanlar bu artımı yalnız xəstəliyin yayılması ilə əlaqələndirir. Halbuki əhali sayı artdıqca bütün xəstəliklərin statistik göstəricilərində yüksəlişin müşahidə olunması normal haldır. Məsələn, avtomobillərin sayının artması yol-nəqliyyat hadisələrinin çoxalmasına səbəb olduğu kimi, əhalinin artması da xəstəliklərin aşkarlanma sayını artırır. Bu isə hər zaman xəstəliyin daha təhlükəli hala gəldiyini göstərmir.

### Erkən diaqnoz və psixoloji dəstək sağalmanın əsas şərtidir

Onkoloqların fikrincə, xərçənglə mübarizədə ən mühüm amil erkən diaqnostikadır. Xəstəliyin ilkin mərhələdə aşkar olunması müalicənin effektivliyini dəfələrlə artırır. Təəssüf ki, bir çox hallarda insanlar yalnız simptomlar şiddətləndikdə və xəstəlik III-IV mərhələyə keçdikdə həkimə müraciət edirlər. Bu isə müalicə prosesini çətinləşdirir.

Azad Kərimli qeyd edib ki, hər bir xərçəng növünün özünəməxsus lokal əlamətləri var. Lakin bu əlamətləri gözləmədən, müntəzəm tibbi müayinələrdən keçmək daha doğrudur. Statistik məlumatlara əsasən, kişilər arasında daha çox ağciyər, traxeya və prostat vəzi xərçənginə rast gəlinir. Qadınlarda isə süd vəzi və uşaqlıq boynu xərçəngi daha geniş yayılıb. Buna görə də qadınlara 35 yaşdan sonra hər il mamoqrafiya müayinəsindən keçmək tövsiyə edilir. Kişilərin isə 40-45 yaşdan etibarən mütəmadi olaraq uroloq müayinəsi, qan analizləri və rentgen müayinələri etmələri vacib hesab olunur. Bu sadə addımlar xəstəliyin erkən aşkar olunmasına və həyat keyfiyyətinin qorunmasına ciddi töhfə verir.

Cəmiyyətdə xərçənglə bağlı dərin qorxu və təşvişin olduğunu deyən həkim-onkoloq vurğulayır ki, bu qorxu bəzən xəstəliyin özündən daha təhlükəlidir: "Psixoloji gərginlik insanın immun sistemini zəiflədir və müalicə prosesinə mənfi təsir göstərir. Halbuki xərçəng də bir çox digər xəstəliklər kimi sağalma potensialına malikdir. Bu xəstəlik həyatın sonu deyil. Xəstəlik vaxtında aşkarlanarsa, düzgün diaqnoz qoyularsa və müalicə strategiyası peşəkar şəkildə seçilərsə, tam sağalma mümkündür. Bu gün ölkəmizdə onkoloji xəstələrin müalicəsi müasir texnologiyalar və avadanlıqlar vasitəsilə aparılır".

Xərçənglə mübarizədə vaxtında atılan hər addım, gecikdirilməyən hər müayinə, laqeyd yanaşılmayan hər simptom insan həyatında həlledici rol oynaya bilər. Sağlamlığı prioritetə çevirmək, müayinələri vərdiş halına gətirmək və xəstəliyə qorxu ilə deyil, şüurlu yanaşma ilə baxmaq xərçəngin yaratdığı ağır fəsadların qarşısını almağın ən real yoludur. Müasir tibbin imkanları və artan maarifləndirmə göstərir ki, düzgün yanaşma ilə xərçəng insan taleyini müəyyən edən hökm yox, idarə edilə bilən bir sağlamlıq probleminə çevrilə bilər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**



**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


BEYNƏLXALQ HƏYAT

# Fransa hökuməti aylarla davam edən müzakirələrdən sonra milli büdcəni qəbul edib

Bir gündə daha iki etimadsızlıq səsvermesindən sonra Sebastyan Lekornünün hökuməti 2026-cı ilin dövlət büdcəsinin qəbul olunmasını təmin edə bilib. Bu, Fransanın dövlət büdcə kəsirini ÜDM-in 5 faizindən aşağı salmağa kömək etməlidir.



Baş nazir Sebastyan Lekornü sosial mediada yazıb: "Nəhayət, Fransanın büdcəsi var - aydın qərarları və əsas prioritetləri əks etdirən bir büdcə, dövlət xərclərini məhdudlaşdıran, ev təsərrüfatları və müəssisələr üçün vergi artımlarını nəzərdə tutmayan bir büdcə".

"Bütün fraksiyaların düzəlişlərini əhatə edən parlament kompromisinin nəticəsi" olan büdcənin Fransanın dövlət büdcə kəsirini ümumi daxili məhsulun (ÜDM) 5,4 faizindən 5 faizdən aşağı salacağı gözlənilir. AFP-nin məlumatına görə, S. Lekornünun ilkin planlaşdırdığı qənaət tədbirləri əvvəlcə elan ediləndən daha az radikal olub. Bundan əlavə, müdafiə büdcəsi 6,7 milyard avro artırılaraq 57,1 milyard avroya çatdırılacaq.

Milli büdcənin qəbul edilməsindən əvvəl hökumətə qarşı daha iki etimadsızlıq səsverməsi keçirilib. Bu dəfə o, parlamentdəki solçu düşərgə tərəfindən Milli Assambleyaya təqdim edilib və tələb olunan 289 səs əvəzinə 260 səs toplayıb. Marin Le Penin ifrat sağçı "Milli Birlik" partiyasından daxil olan ikinci oxşar təklif isə cəmi 135 səs alıb. Ümumiyyətlə, son həftələrdə hökumət büdcənin müəyyən hissələri ilə bağlı artıq dörd etimadsızlıq səsverməsinə məruz qalıb.

Hədəfinə çatsa belə, Fransa yenə də Aİ-nin 3 faizlik dövlət kəsiri hədəfindən xeyli geridə qalacaq. Bundan əlavə, AFP-nin qeyd etdiyi kimi, ölkənin dövlət borcu yeni büdcə ilə artmağa davam edəcək. Hökumət bunun 2025-ci ildə ÜDM-in təxminən 116 faizindən 2026-cı ildə təxminən 118 faizə yüksələcəyini gözləyir.

Xatırladaq ki, Fransa Prezidenti Emmanuel Makron 10 oktyabr 2025-ci ildə Sebastyan Lekornünü hökumət başçısı vəzifəsinə yenidən təyin edib. 4 ay ərzində Parisdəki parlament üzvləri büdcə ilə bağlı kompromisə nail olmağa çalışıblar. S.Lekornü vəzifəyə başladıqdan sonra verdiyi sözün əksinə gedərək Fransa Konstitusiyasının 49.3-cü maddəsini tətbiq etməyə məcbur olub. Bu maddə hökumətin sonrakı etimadsızlıq səsvermesindən "sağ çıxacağı" halda qanunvericiliyin qəbul edilməsinə imkan verir.

İki ildən az müddətdə Prezident E.Makron dörd baş nazirə büdcə kəsirini azaltmaq və dövlət maliyyəsini tarazlaşdırmaq vəzifəsini tapşırıb. Hazırda Avropa İttifaqında Yunanıstan və İtaliyadan sonra üçüncü ən böyük dövlət borcu olan ölkə Fransadır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Nəcibə Abdulla qızı Musayevanın adına verilmiş Şəhid ailəsi üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibinin müavini Mədət Quliyev Qurban Süleymanova atası
**ASLAN SÜLEYMANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi komissiyanın İqtisad elmləri üzrə ekspert şurasının üzvü, professor Ədalət Əliyevə oğlu
**ELÇİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış 10A sinfinin məzunları sinif yoldaşları Arif Xəlilova anası
**SÜRƏYYA ƏKBƏR QIZI XƏLİLOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri Əlipaşa Zeynalova əzizi
**MAHMUD RZAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədrinin köməkçisi Murad Əlizadəyə əmisi
**AKİF ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Abşeron Rayon Vəkil Bürosunun kollektivi vəkil Abil Bayramova atası
**NƏZİR MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Azərbaycan ərazisində son dövrün ən güclü palçıq vulkanı püskürmələrindən biri baş verib

Qobustan geoloji rayonunda yerləşən və aktivliyi ilə tanınan Durandağ palçıq vulkanı növbəti dəfə oyanaraq güclü püskürmə nümayiş etdirib. Təxminən 15 dəqiqə davam edən aktiv faza zamanı yüzlərlə metr hündürlüyə qalxan alov sütunu müşahidə olunub, yer səthinə böyük həcmdə palçıq breksiyası xaric edilib.



Bu barədə AZƏRTAC-a AMEA-dan məlumat verilib.

Hadisə yerində püskürmənin miqyasını qiymətləndirmək məqsədilə Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun "Palçıq vulkanizmi" şöbəsinin əməkdaşları - baş elmi işçi, Yer elmləri üzrə elmlər doktoru, dosent Orxan Abbasov, elmi işçi Elnur Baloğlanov, həmçinin mühəndislər Elmar Səmədov və Orxan Mehdiyev tədqiqatlar aparıblar. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlarının da iştirak etdiyi monitorinqlər zamanı müəyyən olunub ki, püskürmənin aktiv fazası qısa olsa da, vulkanın püskürmə mərkəzində intensiv alovlanma prosesi davam etməkdədir. Alovlanma nəticəsində vulkan strukturunun şərq yamacında və ətraf bitki örtüyü ərazisində geniş yanğın sahəsi yaranıb. Tədqiqatın ilkin nəticələrinə əsasən, müəyyən olunub ki, yer səthinə atılan palçığın orta qalınlığı təxminən 0,9 metr, ümumi yayılma sahəsi isə 14 hektar təşkil edir. Püskürmə zamanı xaric olunan palçığın ümumi həcmi 126 000 kubmetr həcmində qiymətləndirilir. Püskürmə hadisəsi vulkan sahəsində güclü dağıdıcı təsirlərlə müşayiət olunub, palçıq axını zonasının şimal və cənub kənarlarında kilometrlərlə ölçülən çoxsaylı radial çatlar formalaşıb.

Bu hadisə Durandağ vulkanının 7-ci paroksizmi (püskürməsi) olaraq qeydə alınıb. Vulkanın əvvəlki püskürmələri 1960, 1968, 1986, 2001, 2004 və 2016-cı illərdə baş verib.

Hazırda Durandağ palçıq vulkanında elmi araşdırmalar davam etdirilməklə, püskürmə nəticəsində yer səthinə çıxarılan süxur nümunələrinin laborator şəraitdə analitik tədqiqatları aparılır.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3242
Sifariş 171

Qiyməti 60 qəpik